3. Брусиловский А.Е., Строгович М.С. Свидетельские показания в качестве судебных доказательств // Методика следственной работы. Киев, 1934, 132 с.
4. Гальтон Ф. Отпечаток пальца. Лондон: Мачмиллан и К и Нью-Йорк, 1892, 216 с.
5. Гросс Г. Руководство для судебных следователей, чинов общей и жандармской полиции / Пер. с нем. – Вып.1. Смоленск, 1895, 940 с.
6. Панфилов П.Б. Основные принципы обеспечения достоверности исследований запаховых следов человека с использованием собак-детекторов в судебной экспертизе. /Учебное пособие. М.: Юрлитинформ, 2007, 264 с.
7. Торвальд Ю. Век криминалистики. М.: Оригинал-макет, 2018. – 368 с.
8. Холлиен Г. Акустика преступления: новая наука о судебной фонетике (на английском языке). Нью-Йорк и Лондон: Университет Флориды, Прессы Пленума, 1990, 388 с.
9. Фант Г. Акустическая теория речеобразования / Пер. с англ. Л.А.Варшавского, В.И.Медведева под ред. В.С.Григорьева. М.: Наука, 1964, 328 с.
10. Алек Джеффрис, первая в истории «ДНК облава» и убийство, как вредная привычка https://www.stena.ee/blog/alek-dzheffris-pervaya-v-istorii-%C2%ABdnk-oblava%C2%BB-i-ubijstvo-kak-vrednaya-privychka (дата обращения: 22.08.2020)
11. Бертильонаж – искусство идентификации https://kriminalisty.ru/stati-istorija-kriminalistiki-bertilyonaj/ (дата обращения: 28.08.2020)
12. 12. Видок, Эжен Франсуа https://ru.wikipedia.org/wiki Видок_Эжен_Франсуа (дата обращения: 22.08.2020)
13. Генетика, Русский Медицинский Сервер http://genetics.rusmedserv.com/dermatol/ history (дата обращения: 19.08.2020)

14. Закон Азербайджанской Республики от 29 июня 2018 года №1197-VQ «О государственной дактилоскопической и геномной регистрации в Азербайджане» http://base.spinform.ru/show_doc.fwx?rgn=110062 (дата обращения: 22.08.2020)
15. Немецкий врач Герман Людвиг Фердинанд фон Гельмгольц http://lechebnik.info/7-38.htm (дата обращения: 24.08.2020)
16. Fingerprint http://en.wikipedia.org/wiki/Fingerprint (дата обращения: 18.08.2020)

## CİNAYƏTKARLARIN EYNİLƏŞDİRMƏSİNİN ELMİ METODLARININ YARADILMASININ TARİXİ

**R.O.QULİYEVA**

### XÜLASƏ

Məqalədə cinayətkarların şəxsiyyətinin eyniləşdirməsinin elmi metodlarının mənbələrinə, antropometrik metoddan başlayaraq müasir DNT-eyniləşdirmə metoduna qədər baxılır. Cinayətkarların eyniləşdirmə metoduna XVIII əsrin 70-ci illərinin ortalarında fransız cinayətkarı residivist Fransua Ejen Vidokun tərəfindən təklif edilmiş ideyası cinayətkarların qeydiyyatdan keçirilməsi başlanğıcını qoydu. Cinayətkarların eyniləşdirməsinin ilk elmi antropometrik metodunu fransız polisinin Syurtenin kargüzarın köməkçisi Alfons Bertilyonun tərəfindən təklif edilmişdi. Antropometriyanın yerinə daktiloskopiya metodu gəldi. XX əsrin ortasında insanın eyniləşdirməsi üçün biometrik metodları ortaya çıxdı. Şəxsin DNT-nin unikallığı əsasında, cinayətkarın DNT-eyniləşdirməsi və ya genetik eyniləşdirməsi metodla müəyyən edilməsi yeni inqilabi metodudur.

**Açar sözlər:** antropometriya metodu, daktiloskopiya metodu, eyniləşdirmənin biometrik metodları, DNT-eyniləşdirmə metodu, genetik eyniləşdirmə

## HISTORY OF THE CREATION OF SCIENTIFIC METHODS FOR IDENTIFICATION CRIMINALS

**R.O.GULIYEVA**

### SUMMARY

The article are considered the origins of scientific methods for identifying the personality of criminals, from the anthropometric method to the modern method of DNA identification. The beginning of the identification of criminals was laid by the idea of their registration, proposed in the mid-70s of the XVIII century by the French criminal repeat offender François Eugene Vidocq. The first scientific method of anthropometric identification of criminals was proposed by the assistant clerk of the French police Surte - Alphonse Bertillon. The method of fingerprinting replaced anthropometry. In the middle of the XX century, biometric methods of human identification appeared. A new revolutionary method of identifying a criminal is the method of DNA identification or genetic identification, based on the uniqueness of the individual's DNA.

**Key words:** anthropometry method, fingerprint method, biometric identification methods, DNA identification method, genetic identification

UOT 342-34

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ MARAQLARIN TƏMİN EDİLMƏSİ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ

**X.NİYAZOV**
***AMEA Hüquq və İnsan Haqları İnstitutu***
***xalid-555@mail.ru***

*Tarixi dönəmin bütün mərhələlərində olduğu kimi, o cümlədən müasir dövrümüzdə də hər bir dövlətin qarşısında duran əsas öhdəliklərdən biri milli maraqlarının maksimal dərəcədə təmin olunmasına yönəlmişdir. Bu cəhətdən KİV təbliğat və təşviqat imkanları baxımından ölkələrin daxili siyasətində önəmli rol oynamış və oynamaqda davam edir. Dövrün reallıqlarına uyğun olaraq hər bir ölkə öz milli təhlükəsizliyinin effektiv təşkil edilməsi üçün medianın fəaliyyətindən səmərəli istifadə etməyi bacarmalıdır.*

*Məlumdur ki, KİV insanlara, ictimai rəyə ciddi təsir etmə mexanizmlərinə malikdir. Bu təsir xarici ünsürlərin və düşmən qüvvələrin fəaliyyəti nəticəsində hər bir xalqın milli maraqlarına ziyan vura bilər. Məhz buna görə müharibə vəziyyətində olan respublikamızda təhlükəsiz informasiya məkanının yaradılması üçün informasiya siyasətinə xüsusi diqqət yetirilmiş, bu sahə ümummilli maraqlarımızın təmin edilməsinin əsas istiqamətlərindən biri kimi hər zaman dövlətin himayəsində olmuşdur. Eyni zamanda dövlət və media əlaqələrinin liberal-demokratik dəyərlər üzərində qurulması da milli maraqlarımızın təmini baxımından müstəsna rol oynamışdır.*

**Açar sözlər:** Azərbaycan dövləti, informasiya siyasəti, milli maraqlar, xəbər siyasəti, media, cəmiyyət

Elmi dövriyyəyə ötən əsrin ilk yarısında daxil edilən milli maraqlar anlayışının parametrləri konkret götürülmüş dövlət və cəmiyyətdə mövcud olan dəyərlər sistemi, həmçinin, dünya nizamı əsasında müəyyən edilir. Elə məhz bu amil də milli maraqların müəyyən qədər abstrakt və subyektiv kateqoriya olmasını şərtləndirir. Lakin belə bir obyektiv gerçəkliyi də gözardı etmək mümkün deyildir ki, beynəlxalq arenada hər bir dövlət öz fəaliyyətini özünün milli maraqları kontekstində əsaslandırmağa çalışır. Bu mənada milli maraqları dövlətin mövcudluğunun əsas təməl prinsiplərindən biri kimi də səciyyələndirmək mümkündür.

Milli təhlükəsizlyin obyektləri kimi şəxsiyyətin, cəmiyyətin, dövlətin həyat tərzi və funksiyaları, apriori, onların ümumi milli maraqlarını da ərsəyə gətirir. Onlar fərdlərin, sosial təşkilatların və dövlət orqanlarının ziddiyyət

təşkil edən maraqları arasında müəyyən bir tarazlıq, yaxud kompromis aləti kimi çıxış edirlər. Amma bunlara rəğmən, dövlətlərin varlığını şərtləndirən milli maraqlar kifayət qədər geniş yayılmış kateqoriya olsa da, onun dəqiq təyinatını müəyyən etmək hələ də mümkün olmamışdır. Ümumi kontekstdə yanaşdıqda milli maraqlar dövlətin, cəmiyyətin, ictimai hərəkatın ali dəyərlərinin və məqsədlərinin məcmusu kimi qəbul edilir.

**Milli maraqlar və milli media resursları**

Sözügedən sahədə tanınmış tədqiqatçılardan olan B.Mejuyev Hans Morqentaunun araşdırmaları əsasında milli maraqlar anlayışına aşağıdakıları daxil etmişdir:

1. Milli maraqlar obyektiv reallıqdır. O, ilk növbədə dövlətin geosiyasi mövqeyinə və onunla bağlı olan geoiqtisadi, sosial-mədəni inkişafının xüsusiyyətlərinə əsaslanır; ikincisi, insan təbiətinin xüsusiyyətləri ilə ifadə olunur.

2. Dövlət xadimləri ondan çıxış etməlidirlər ki, yaxşı siyasət düzgün təfsir edilmiş milli maraqlara əsaslanan rasional siyasətdir. Belə siyasətin bazası milli maraqların təmin edilməsi ilə dövlətin dəqiq şəkildə qurulmuş imicidir.

3. Milli maraqlar ictimai maraqdan kardinal şəkildə fərqlənir. Milli maraqlar xarici, ictimai maraqlar isə daxili siyasətlə təmin edilir. Onlar nə bir-birinə qarşı çıxmalı, nə də bir-birilə çulğaşmalıdırlar [5,188]. Başqa sözlə ifadə edilsə, milli və ictimai maraqlar daim bir-birini tamamlamalıdır. Ən azından ona görə ki, iki və çoxtərəfli münasibətlər ictimai maraqlardan da yan keçmir və milli maraqların özü eyni zamanda ölkə daxilində mövcud sosial-iqtisadi, ictimai-siyasi vəziyyətdən əhəmiyyətli dərəcədə asılı olur.

Azərbaycan dövləti milli maraqların təmin edilməsinə üçlü trayektoriyadan – həm daxili, həm regional, həm də qlobal kontekstdən yanaşır. Bu gün ölkəmizin təhlükəsizliyinin təmin edilməsində milli maraqlar mühüm rol oynayır. Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla aşağıdakılardır:

- *dövlətin müstəqilliyinin və ərazi bötövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazığının təmin edilməsi;*
- *Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasıının təşviqi;*
- *vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;*
- *demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı,* qanunun aliliyi, asayişin *təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;*
- *beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;*

- *bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin oluması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;*
- *təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;*
- *dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;*
- *Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi* [1, 6].

Azərbaycanın, yaxud istənilən digər ölkənin milli maraqları rasional tələb və dəyərlər əsasında formalaşır. Eyni zamanda, bu proses, yəni milli maraqların formalaşması cəmiyyətin və dövlətin ehtiyaclarından irəli gəlir. Başqa sözlə, milli maraqlar mövcud şərtlər nəzərə alınmaqla dövlətin cəmiyyətin elitası tərəfindən tərtib edilmiş obyektiv ehtiyacları və vətəndaş cəmiyyətinin üzvlərini birləşdirən qüvvədir.

Dünya təcrübəsi çox aydın şəkildə göstərir ki, bu gün istənilən ölkənin dayanıqlı və davamlı tərəqqisinin, sabitliyinin təmin edilməsində milli maraqların gözlənilməsi müstəsna əhəmiyyətə malikdir. Obyektiv varlıq kimi qəbul edilən milli maraqlar qabaqcıl Qərb ölkələrinin, demokratik cəmiyyətlərin timsalında ilk növbədə vətəndaş maraqlarının ümumiləşdirilməsindən başlamış dövlətin coğrafi mövqeyinin xüsusiyyətlərinə və bir tərəfdən bu xüsusiyyətlərdən irəli gələn iqtisadi, siyasi, mədəni inkişafa, digər tərəfdən isə insan təbiətinin özəlliklərinə əsaslanaraq ərsəyə gəlir. Bu mənada ölkəmizin milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusunun ifadəsi kimi də səciyyələndirilə bilər. Paralel olaraq, xalqın vahidliyinin qorunub saxlanılması, vətəndaş cəmiyyətinin formalaşdırılması kontekstində azərbaycançılıq ideyasının təşviqi, insan hüquq və əsas azadlıqlarının təmin olunması ön planda yer alır.

Ümumiyyətlə, Azərbaycanın milli maraqları ilə bağlı dövlət siyasətinin formalaşması prosesində ideoloji, siyasi, iqtisadi, sosial, mədəni, humanitar amillər, dövlətin ali təhlükəsizlik maraqları, vətəndaşların milli iradəsi əsas götürülür. Bu, həm də dövlətin varlığının qorumasının ən etibarlı yoludur.

Prezident İlham Əliyevin bu xüsusda aşağıdakı fikirləri xüsusi aktuallıq kəsb edir: "Bu gün biz müstəqil, azad dövlət və xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq. Həmişə belə olmalıdır. Həmişə ölkəmizin taleyi Azərbaycan xalqının əlində olmalıdır. Ona görə özümüzü xarici təsirdən qorumaq üçün Azərbaycan dövləti çox ciddi və uğurlu siyasət aparır. Deyə bilərəm ki, bizə təzyiq etmək, bizi nəyəsə sövq etmək, məcbur etmək cəhdləri kəskin şəkildə aşağı düşüb. O

cümlədən, ona görə ki, bu səylərin heç bir nəticəsi yoxdur. Ona görə biz informasiya məkanımızı da qorumalıyıq. Bunu etmək çətindir. Çünki biz bu gün internet dövründə yaşayırıq. Hansısa hər bir yalan, böhtan, təxribat xarakterli məlumat dərhal özünə yer tapır. Ancaq milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır" [8].

Mövcud şərtlər daxilində ictimai rəyə real təsir imkanlarına malik media oqanları cəmiyyətin obyektiv və operativ informasiya ehtiyaclarını təmin edərkən onu milli maraqlarla uzlaşdırmağı da bacarmalıdırlar. Bu məqsədlə Azərbaycan mediası daim vətənpərvərlik mövqeyindən çıxış edərək, milli dövlətçiliyə sədaqətin, milli maraqlar uğrunda prinsipiallığın rəmzi olduğunu diqqətdən qaçırmamalıdır. Akad. R.Mehdiyevin bu xüsüsusda aşağıdakı fikirləri maraqlıdır: "Müasir dövrdə vahid informasiya məkanının mövcud olduğu şəraitdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. KİV-lər Azərbaycanın konstitusiya quruluşu, ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, milli təhlükəsizlik və digər bu kimi məsələlərdə kifayət qədər həssas davranmalı, cəmiyyətə milli təəssübkeşliyin nümunəsini təqdim etməli, onun obyektiv və operativ informasiya ehtiyacını ödəmək missiyasını milli maraqlarla uzlaşdırmalıdırlar. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca elementlərini təşkil etməlidir" [7].

Təqdirəlayiq haldır ki, Azərbaycan mediası öz şərəfli tarixi ənənəsinə sadiq qalaraq, bütün dövrlərdə olduğu kimi, indi də mənsub olduğu xalqına və dövlətçiliyinə xidmət missiyasını ləyaqətlə davam etdirir. Eyni kontekstdə mütləq nəzərə alınmalıdır ki, dövlətin milli maraqlarının məzmunu onların həyata keçirilməsi vasitələri və üsulları ilə ayrılmaz surətdə, sıx şəkildə bağlıdır. Paralel olaraq hər hansı bir dövlətin, o cümlədən də Azərbaycanın milli maraqlarının məzmununun müəyyənləşdirilməsində çeviklik, həmin maraqların reallaşması üçün uyğun vasitə və metodların müəyyənləşdirilməsi, xüsusilə aktualdır. Bu, ilk növbədə, hərbi təhlükəsizliyin təmin olunmasında, iqtisadi maraqların qorunmasında, bütün dünyada ekoloji problemlərin həllində və digər bu qəbildən məsələlərin çözümündə dövlətlərin və xalqların regional, qlobal xarakterli qarşılıqlı münasibətləri ilə şərtlənmişdir.

Bir tərəfdən, belə bir qarşılıqlı tənasüb milli-dövlət maraqlarının təmin edilməsi üçün optimal üsul və vasitələrin seçilməsində özünü göstərir. Digər tərəfdən, nəzərə almaq lazım gəlir ki, istənilən bir dövlətin təhlükəsizliyi bütün dünya ictimaiyyətinin kollektiv səyləri ilə təmin edilən ümumi təhlükəsizliyin tərkib hissəsinə çevrilmişdir. Azərbaycan bütün bu xüsusatları nəzərə alır və öz milli maraqlarını məhz sözügedən kontekstdə reallaşdırır.

Mövcud şəraitdə Azərbayanın Respublikasının milli maraqları həm də fərdin, cəmiyyətin və dövlətin iqtisadi, siyasi, sosial, beynəlxalq, informasiya, hərbi, sərhəd, ekoloji, eləcə də digər həyat fəaliyyətli sahələrdə maraqların balanslaşdırılmış məcmusu kimi çıxış edir. Bir qayda olaraq onlar uzunmüddətli

xarakter daşıyır və Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas məqsədlərini, strateji və cari vəzifələrini müəyyən edir. Bu zaman milli maraqlar Konstitusiyaya müvafiq olaraq dövlət hakimiyyəti institutları, ictimai təşkilatlar tərəfindən təmin olunur. Vətəndaşın, fərdin maraqları onun öz şəxsi təhlükəsizliyini təmin etmək, həyat səviyyəsini, fiziki, mənəvi və intellektual inkişaf göstəricilərini yüksəltmək üçün konstitusion hüquq və azadlıqlarını dolğun şəkildə həyata keçirə bilmək imkanları ilə şərtlənir.

Cəmiyyətin maraqları demokratiyanın möhkəmlənməsi, hüquqi və sosial dövlətin yaradılması, ictimai harmoniyaya nail olunması və konkret ölkənin mənəvi cəhətdən daim təkmilləşməsini özündə ehtiva edir. Qeyd olunanlara müvafiq olaraq dövlətin maraqları Konstitusiya quruluşunun gözlənilməsini, Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını, siyasi, sosial, iqtisadi sabitlyin təmin edilməsini, bərabər və qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığı nəzərdə tutur. Bu zaman diqqət mərkəzində yer alması zəruri olan məqamlardan biri bütün bu proseslərdə etibarlı, eyni zamanda uğur amili üzərində qurulmuş informasiya və xəbər siyasətidir.

**Yeni informasiya siyasəti**

İnformasiya sahəsində Azərbaycanın milli maraqlarının dörd əsas istiqamətini fərqləndirmək mümkündür. Bu sahədə ölkənin milli maraqlarının ilk komponenti Konstitusiyaya uyğun olaraq şəxsin məlumat əldə etmək və ondan istifadə etmək hüququnun reallaşdırılmasını, Azərbaycan cəmiyyətinə xas mənəvi dəyərlərin, vətənpərvərlik və humanizm ənənələrinin qorunub saxlanması və möhkəmləndirilməsini, ölkənin mədəni və elmi potensialının davamlı şəkildə təzələnməsini nəzərdə tutur. Belə bir məqsədə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- ictimai inkişaf naminə informasiya infrastrukturundan istifadənin səmərəliliyinin artırılması, sosial inkişafın, cəmiyyətdə həmrəyliyin möhkəmləndirilməsi, çoxetnoslu Azərbaycan dövlətinin mənəvi yüksəlişi;
- Azərbaycanın elmi, texniki və mənəvi potensialının əsasını təşkil edən informasiya resurslarının formalaşması, qorunması və səmərəli istifadəsi sisteminin təkmilləşdirilməsi;
- istənilən qanuni yolla məlumatı axtarmaq, almaq, istehsal etmək, yaymaq, ötürmək kimi vətəndaşın konstitusiya hüquq və azadlıqlarının təmin edilməsi;
- vətəndaşın və onun ailəsinin şəxsi həyatına müdaxilənin yolverilməzliyi, şərəf və ləyaqətin gözlənilməsi, yazışmalarda məxfiliyin, telefon danışıqlarında, poçt, teleqraf və digər rabitə vasitələrində ünsiyyət zamanı vətəndaş azadlıqlarını tam təmin etməsi;
- əqli mülkiyyətin qorunması sahəsində hüquqi mexanizmlərin gücləndirilməsi;
- kütləvi informasiya vasitələrinin azadlığına tam təminat verilməsi, sosial, irqi, milli, dini zəmində təbliğat və təşviqatın qarşısının alınması.

İnformasiya sahəsində Azərbaycanın milli maraqlarının ikinci komponenti ölkənin beynəlxalq həyatında baş verən ictimai əhəmiyyətli hadisələr barədə rəsmi mövqeyin, dövlət siyasətinin dünya ictimaiyyətinə operativ, dəqiq və dolğun şəkildə çatdırılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin davamlı olaraq həyata keçirilməsi vacibdir:

• dövlətin dəstəyi ilə kütləvi informasiya vasitələrini daha da gücləndirmək, Azərbaycan cəmiyyətinin, eləcə də xarici vətəndaşların ölkə mediası üzərindən etibarlı informasiyaya çıxışını təmin etmək;

• açıq dövlət informasiya resurslarının formalaşmasını daha da intensivləşdirmək, onlardan istifadənin səmərəliliyini artırmaq.

İnformasiya müstəvisində ölkəmizin milli maraqlarının digər komponenti müasir informasiya texnologiyalarının inkişaf etdirilməsi, milli informasiya sənayesinin formalaşdırılması, yerli informasiya resurslarının qorunması və səmərəli istifadəsi, onun beynəlxalq auditoriya üçün də açıq olmasını təmin etməkdən ibarətdir. Müasir dövrdə bu əsasda müvafiq texnoloji bazanının yaradılması, elm və texnologiyanın nailiyyətlərinin media sahəsində də effektiv tətbiqi çox vacibdir. Buna nail olmaq üçün aşağıdakı addımlar atılmalıdır:

• Azərbaycanın vahid informasiya məkanının infrastrukturunu inkişaf etdirmək və təkmilləşdirmək;

• yerli informasiya xidmətləri sektorunu inkişaf etdirmək və dövlət informasiya resurslarından istifadənin səmərəliliyini artırmaq;

• informsiya istehsalı sahəsində rəqabətqabiliyyətli mühiti təmin etmk;

• fundamental və tətbiqi tədqiqatlar, informasiya, telekommunikasiya və kommunikasiya sahəsində inkişafı intensivləşdirəcək təşəbbüslərə dövlət dəstəyi göstərmək.

Ölkəmizin informasiya sahəsindəki milli maraqlarının dördüncü komponenti informasiya resurslarına icazəsiz daxil olmanın qarşısını almaqdan, informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinin təmin olunmasını həyata keçirməkdən ibarətdir. Bunun üçün atılacaq zəruri addımlar aşağıdaklıdardır:

• İnformasiya sistemlərinin təhlükəsizliyini davamlı olaraq artırmaq;

• İnformasiyanın istehsalı və müdafiəsinin proqram təminatının yüksəldilməsi və bu məqsədlə müvafiq metodların təkmilləşdirilməsi;

• dövlət sirrini təşkil edən məlumatların qorunmasını təmin etmək;

• Azərbaycanın informasiya resurslarından təhlükəsiz şəkildə istifadə olunması sahəsində beynəlxalq əməkdaşlıq səylərini genişləndirmək, informasiya sahəsində qarşıdurmanın aradan qaldırılması təşəbbüslərini dəstəkləmək.

Bütün bunlar göstərir ki, informasiya sahəsində Azərbaycanın milli maraqlarının təmin edilməsi genişmiqyaslı və çoxşaxəli işdir, bu vəzifənin həyata keçirilməsi təkcə dövlətin deyil, bütün cəmiyyətin, o cümlədən media quruluşlarının fəaliyyətinin aparıcı pozisiyasıdır. Belə bir harmoniyanın əldə olunmasında ilk növbədə milli birlik amili çox vacib element kimi çıxış edir. Bunun əksi ciddi təhdidlər üçün əsas yaradır. Bu cür təhdidlərin miqyası isə bütöv bir

xalqın tarix səhnəsindən silinə bilməsi təhlükəsinə bərabərdir. “Öz daxilində birləşərək dövlətçilyini və milli maraqlarını qoruya bilməyən xalqlar, müstəqil daxili və xarici siyasət aparmaq qabiliyyətinə malik olmayan dövlətlər zaman-zaman tarix səhnəsini tərk etmişlər” [4,11].

Müasir dövrdə uğurlu xəbər siyasəti vətəndaşların “informasiya aclığını” aradan qaldırmaq üçün əsas məqamlardan biridir. Bu gün dünya informasiya cəhətdən zəngin və yoxsul ölkələrə bölünür. Birincilər inkişaf edirlər, müasirləşirlər, çiçəklənirlər, digərlərində isə təkamül prosesləri çox ləng gedir. Onlar birincilərdən asılıdırlar, onların iradəsini, mövqeyini mütləq nəzərə almaq məcburiyyətindədirlər. Məsələnin bu cür qoyuluşu xəbər siyasəti, informasiya cəmiyyəti quruculuğunun nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini kifayət qədər aydın nümayiş etdirir.

Ölkənin daxili və xarici siyasətinə davamlı şəkildə müdaxilə edən xarici dairələr öz maraqları çərçivəsində informasiya və digər müvafiq təbliğat vasitələri yaradaraq təxribatçı fəaliyyətlərdən belə çəkinmirdilər. Bu, ölkədaxili həmrəyliyə, sabitliyə mənfi təsir edir, cəmiyyətdə səbatsızlıq yaradırdı. Media vasitələri ayrı-ayrı qrupların, dairələrin göstərişləri əsasında hərəkət etdiyindən onların bir çoxunun da fəaliyyəti destruktiv xarakter daşıyırdı. İnformasiyanı ötürmə vasitələri, müvafiq şəbəkələrin iflic vəziyyətdə olması vəziyyəti daha da ağırlaşdırırdı. Anarxiyanın yaranması ilə müşayiət edilən bu vəziyyətə yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra son qoyuldu. Digər sahələrlə yanaşı, milli maraqlar çərçivəsində xəbər siyasətinin formalaşmasına, vahid informasiya məkanının yaradılmasına, medianın aktiv şəkildə bu proseslərə cəlb edilməsinə start verildi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları əks etdirən, şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin əsas vəzifələrini, istiqamətlərini və prioritetlərini ehtiva edən yeni milli təhlükəsizlik konsepsiyası yaradıldı və sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi [3, 3]. Onun hakimiyyətə gəlişi ilə Azərbaycanda tam fərqli inkişaf mərhələsi başlandı və yenicə qazanılmış müstəqillyin itirilməsi təhlükəsi tədricən aradan qalxmağa başladı. Həmin dövrdə Heydər Əliyevin söylədiyi fikirlərdən biri əsil həqiqətin nədən ibarət olduğunu aydın şəkildə əks etdirirdi: “Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir” [2].

Əldə olunan və saxlanılması heç də asan olmayan müstəqillyin qorunması üçün proseslərə genişspektrli yanaşma sərgiləmək və bu kontekstdə uğurlu dövlət informasiya siyasəti formalaşdırmaq böyük uzaqgörənlik, məharət tələb edirdi və Heydər Əliyev bu vəzifələrin öhdəsindən ustalıqla gəldi. Elə o

dövrdən başlayaraq kütləvi informasiya vasitələrinin məzmun və formasının cəmiyyətin informasiya maraqlarına və tələbatlarına uyğun şəkildə dəyişməsi prosesi başlandı. Cəmiyyətin ehtiyac duyduğu xəbərlərlə, məlumatlarla təmin edilməsi vətəndaşların yaşadıqları mühitin reallıqlarını müəyyən etməyə, dünyada gedən proseslərin ümumi mənzərəsini dəqiqləşdirməyə, davranış və problemli vəziyyətlərin həllində istiqamət seçimi etməyə geniş imkanlar verdi. Məhz Heydər Əliyev söz və mətbuat azadlığı sahəsində məhdudiyyət və maneələrin aradan qaldırılmasını həyata keçirməklə cəmiyyətdə qarşılıqlı anlaşmanın, insanların öz fikir və mövqelərinin azad şəkildə çatdırmaq imkanlarının genişləndirilməsinə lazımi şərait yaratmışdır. Bütün bunlar həm də dövlətin uğurlu xəbər siyasəti yürütməsinin bariz göstəriciləri idi. İnformasiya resurslarının bütün növlərinin səmərəli idarəçiliyi, yerli informasiya istehsalına dövlət dəstəyi, medianın fəaliyyətində zəruri siyasi-hüquqi tənzimləmələr milli maraqların daha dolğun reallaşdırılmasında əsas rıçaqlardan biri kimi səciyyələndirilirdi. Bu dövrdə sözügedən sahədə qabaqcıl dünya təcrübəsindən istifadə olunması da diqqət mərkəzində idi.

Ümumiyyətlə, media tarixi göstərir ki, KİV ictimai rəyə əsaslı surətdə təsir göstərir, ancaq bu təsir cəmiyyətin inkişaf səviyyəsinin çərçivələri həddində reallaşır. Müasir dövrdə də yeni texnologiyalar vasitəsilə KİV müəyyən həddə ictimai rəyi manipulyasiya etmək iqtidarındadır. Göstərilən kontekstdə KİV-in hakimiyyətə təsir imkanlarının böyük olması, eyni zamanda, medianın dövlət orqanları üçün cəmiyyətə çıxış baxımından effektiv kanal olması ictimai rəy məsələsində medianın həyata keçirdiyi funksiyaların diapozununu daha da genişləndirir. Burada KİV artıq hakimiyyətlə cəmiyyət arasında vasitəçi rolunda çıxış etməklə həm də ictimai rəyi tam yönəltmək imkanları əldə edir. A.Mol bununla bağlı yazır: “KİV faktiki olaraq, bizim mədəniyyətimizi küll halında öz filtrindən keçirərək idarə edir, buradan ayrı-ayrı elementləri seçib çıxarır və yerdə qalanlara xüsusi rəng verir, seçdiyi ideyanın xüsusi çəkisini yüksəldir, digərini dəyərdən salır. Kütləvi kommunikasiya vasitələrinin təsir dairəsindən kənarda qalanlar cəmiyyətin inkişafına hər hansı bir formada təsir göstərə bilmək imkanlarını qeyb edirlər” [6,114]. Burada Mol mədəniyyət anlayışı altında ictimai həyatın bütün seqmentlərini nəzərdə tutur və beləliklə, müasir insan KİV-in təsirindən yayına bilməz. KİV-in ictimai rəyə təsiri bir çox elmi ədəbiyyatda “fikrin manipulyasiyası” kimi dəyərləndirilir. Manipulyasiyanın daha böyük “uğurlara” nail olması üçün onun hiss edilmədən həyata keçirilməsi şərtdir. Manipulyativ priyomların “müvəffəqiyyətin”i təmin edən əsas məqam isə manipulyasiya tərəfinin baş verənləri qaçılmaz və təbii qəbul etməsindən ibarətdir. Media vasitələrində bu, indiki dövrdə elektron KİV-lərdə, xüsusən də televiziyada daha effektiv alınır, çünki audiovizual görüntü burada öz sözünü deyir. Amma istənilən nəticəyə nail olmaq üçün insanlar əsas sosial institutların neytrallığına da inanmalıdırlar. Onlar əmin olmalıdırlar ki, hökumət, KİV toqquşan sosial maraqların fövqündədirlər və deməli, vəziyyəti tənzimləyə, vətəndaşların maraqlarını müdafiə edə bilərlər.

Bununla yanaşı, fikirlərin manipulyasiyası prosesində əsas rolu təkcə ictimai rəyin idarə olunması yox, həm də cəmiyyətə inteqrasiya, bu və ya digər hadisəyə münasibətdə ictimai rəy tərəfindən gözlənilən reaksiyanı əldə etmək üçün onu lazımi məcraya yönləndirilməsi oynayır. Özü də nəzərə almaq lazımdır ki, ictimai rəyin manipulyasiyası heç də daim neqativ faktor sayılmamalıdır. Ölkələrin böyük əksəriyyəti tərəfindən manipulyasiya siyasəti dövlətlərin bütövlüyünü saxlamaq, təhlükəsiz şəraiti təmin etmək məqsədilə həyata keçirilir. Bu səbəbdən KİV sözügedən hallarda dövlətin əvəzsiz köməkçisi, cəmiyyətə böyük təsir imkanlarına malik sosial institut qismində özünü göstərir. Digər tərəfdən, burada xarici təsir amillərinin və onların neytrallaşdırılmasında medianın rolu da xüsusi vurğulanmalıdır.

**Nəticə**

Beləliklə, milli maraqlar mövcud şərtləri nəzərə alaraq, cəmiyyətin elitası tərəfindən tərtib edilmiş dövlətin obyektiv ehtiyaclarıdır və o, vətəndaş cəmiyyətinin üzvlərini birləşdirən aparıcı qüvvədir. Mövcud şərtlər daxilində ictimai rəyə real təsir imkanlarına malik media oqanları məhz bu durumda cəmiyyətin obyektiv və operativ informasiya ehtiyacını təmin edərkən onu milli maraqlarla uzlaşdırmağı da bacarmalıdırlar. Bu o deməkdir ki, milli maraqların reallaşdırılmasında həyata keçirilən xəbər siyasəti və onun əsas daşıyıcısı olan medianın müstəsna rolu vardır. Cəmiyyətin ehtiyac duyduğu xəbər və məlumatlarla təmin edilməsi vətəndaşların yaşadıqları mühitin reallıqlarını müəyyən etməyə, dünyada gedən proseslərin ümumi mənzərəsini dəqiqləşdirməyə, davranış və problemli vəziyyətlərin həllində istiqamət seçimi etməyə geniş imkanlar verir.

Hazırda media-cəmiyyət-dövlət üçbucağında münasibətlər xalqın, dövlətin taleyi baxımından olduqca əhəmiyyətli vasitəyə çevrilmişdir və bu münasibətlər sistemində xəbər siyasəti artıq idarəetmənin həyata keçirilməsində mühüm funksional vahid qismində özünü göstərir. Medianın iştirakı olmadan hansısa məsələ ətrafında ictimai rəy yaradılması mümkünsüzdür. Amma bu ictimai rəyin informasiya təhlükəsizliyi şəraitində yaradılması da vacibdir, çünki bunun əksi xaos deməkdir. Milli təhlükəsizliyin təmin edilməsinin əsas tərkib elementlərindən biri qismində məhz hərətərəfli informasiya təminatının keçdiyini söyləmək mümkündür. Bu mənada dövriyyədə olan informasiyanın məzmunu, keyfiyyəti milli maraqlar, təhlükəsizlik baxımından proqnozlaşdırılmalı, müvafiq xəbər siyasəti həyata keçirilməlidir. Bu, ilk növbədə dövlət mənafeyinin, milli maraqların təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Bakı, 2007, 26 s.
2. Əliyev H.Ə. Müstəqilliymiz əbədidir. Elektron külliyyat. http://heydaraliyev.preslib.az
3. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinə konseptual yanaşma. "Geostrategiya" jurnalı, Bakı, iyul, 2011-ci il
4. Həsənov Ə. Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti. Bakı: Letterperes Nəşriyyat evi, 2011, 438 s.
5. Межуев Б.В. Концептуализация «национального интереса» в политических дискуссиях / Б.В.Межуев // Социальные исследования в России. Берлин - Москва, 1998, 231с.
6. Моль А. Социодинамика культуры. М.: Прогресс, 1973, 256 с.
7. dovletchiliye_sedaqet_milli_maraqlar_ugrunda_prinsipialliq_KIV_lerin _fealiyyetinin_baslica_elementlerini_teskil_etmelidir-791939. 12.10.2017
8. http://www.president.az/articles/24740. 14.10.2017


## ENSURING THE NATIONAL INTERESTS OF AZERBAIJAN IN THE CONTEXT OF INFORMATION SECURITY

**Kh.NIYAZOV**


## SUMMARY

One of the main obligations facing each state at different historical stages, including in the modern age, is aimed at maximizing the national interests. In this regard, the media have played and continue to play an important role in the internal politics of the country in terms of propagandist and promotional opportunities.

According to the realities of the modern period, to ensure its sustainable national security, each country must have the ability to effectively use media activities.

It is well known that the media have a mechanism of serious impact, which as a result of external elements and the activities of enemy forces can damage the national interests of each country, on people and public opinion. That is why to create a safe information space in our country, which is in a state of martial law, special attention was paid to the information policy, and ensuring national interests in this sector has always been the focus of state attention. Along with this, the establishment of state-media relations on liberal-democratic values also played a crucial role in ensuring national interests.


**Key words:** The Azerbaijani state, information politics, national interests, news policy, media, society

## ОБЕСПЕЧЕНИЕ НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСОВ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

**Х.НИЯЗОВ**


## РЕЗЮМЕ

Одно из основных обязательств, стоящих перед каждым государством на разных исторических этапах, в том числе и в современную эпоху, направлено на максимальное обеспечение национальных интересов. В этом отношении СМИ играли и продолжают играть важную роль во внутренней политике страны с точки зрения пропагандистских и

поощрительных возможностей.

Общеизвестно, что СМИ обладают механизмом серьезного воздействия, которое в результате внешних элементов и деятельности вражеских сил может нанести ущерб национальным интересам каждой страны, на людей и общественное мнение. Именно поэтому для создания безопасного информационного пространства в нашей республике, находящейся в военном положении, особое внимание было уделено информационной политике, а обеспечение общенациональных интересов в данной сере всегда было в центре внимания государства. Наряду с этим, установление отношений государства и медиа на либерально-демократических ценностях также сыграло исключительную роль в обеспечении национальных интересов.

**Ключевые слова:** Азербайджанское государство, информационная политика, национальные интересы, новостная политика, медиа, общество

**UOT 159.923**

# SEPARATİZMİN PSİXOLOJİ MAHİYYƏTİ VƏ TƏDQİQİ İSTİQAMƏTLƏRİ

**İ.BAYRAMOV**
***Bakı Dövlət Universiteti***
***imdad_bayramov@list.ru***

*Məqalədə separatizm problemi ilə bağlı tarixi, sosial-psixoloji və ideoloji baxışlar araşdırılır, bu mövzuda araşdırma istiqamətləri müəyyənləşdirilir. Məsələn, marksizmdə separatizmə və milli azadlıq hərəkatına qarşı bir müxalifət var idi. Milli azadlıq hərəkatı xalqların anti-imperialist, müstəmləkəçilik mübarizəsinin ümumi istiqamətinə uyğun gələn müsbət, mütərəqqi bir fenomen kimi təqdim edildi. Ayrılıq, bəzi təlimlərlə mənfi və ya müsbət bir fenomen olaraq xarakterizə olunurdu.*

**Açar sözlər:** sosial-psixoloji, separatizm ideologiyası, milli azadlıq hərəkatları, anti-imperialist və müstəmləkəçilik mübarizələri.

Ümumiyyətlə, demək olar ki, dünyada separatizmin müxtəlif aspektləri ilə bağlı bir çox tədqiqat işləri mövcuddur. Bu işlərin tədqiqi separatizm fenomeninin dərk olunmasında, onun tədqiqində atılmış bir addım kimi dəyərləndirilə bilər. Problemin çoxaspektli olması, mürəkkəbliyi bir çox elmi istiqamətlərin kompleks yanaşmasını tələb edir. Xüsusilə problemin fəlsəfi-psixoloji baxımdan öyrənilməsinə xüsusi ehtiyac vardır. Çünki separatizm fenomeninin sosial-psixoloji tədqiqi, problemin mahiyyətinin ortaya çıxmasına şərait yaratmış olar. İstənilən dövlətin ərazisində potensial olaraq meydana çıxa bilən separatizm amili müəyyən sosial-psixoloji durumlarda aktivləşir. Separatizm cəmiyyətin dərin siyasi, sosiomədəni transformasiyası ilə, həmçini mərkəzi hakimiyyətin, milli-mənəvi dəyərlərin tənəzzülü ilə bağlıdır. Separatizm hərdən ölkədə sosial-siyasi, iqtisadi ədalətsizliyin aradan qaldırılmasında yardımçı xarakter daşıyır. Ölkədə aparılan səmərəli regional siyasət, ümumən ölkədə regional inkişafın sürətlənməsinə şərait yaradır. Buna görə də, problemə yanaşma, bəzən subyektiv və fərqli xarakter daşıyır. Problemin səbəb və xüsusiyyətləri vahid elmi kontekstdə həll oluna bilməz. Bunun üçün problemin ümumi elmi əsasları və prinsipləri formalaşmalıdır. Sosial-psixologiya sahəsində isə, problemin əsasən fərdi müstəvidə həllinə, yəni problemin antropoloji təhlilinə üstünlük verilir.

Separatizmin baş vermə və ya fəallaşma səbəblərinin araşdırılması, onun perspektivinə zəmin hazırlayan funksional tendensiyalarının müəyyənləşdirilməsi və problemin aradan qaldırılması yollarının axtarılması, problemin sosial-psixoloji tədqiqini zəruriləşdirir. Problemin sosial-psixoloji mahiyyətini və onun müxtəlif formalarda olan təzahürlərini üzə çıxarmaq, onun formalaşması, funksional fəaliyyətinin şərtləri barədə olan təsəvvürləri ümumiləşdirmək və sistemləşdirmək, prosesinin dinamikasına təsir edən sosial-psixoloji amilləri müəyyənləşdirmək və təsnifatını aparmaq, postsovet məkanında, azərbaycan ərazisində separatizm fenomeninin ortaya çıxmasının tarixi mərhələli şəkildə araşdırmaq və tarixi sosal-psixoloji köklərini müəyyənləşdirmək problemin tədqiqində əsas məqsəd və vəzifələri təşkil etməlidir. Onlar problemin ümumiləşdirilməsinə, onun inkişaf tendensiyalarının müəyyənləşməsinə şərait yaradır. Problemlə əlaqədar etniklik, millilik, inteqrasiya, dezinteqrasiya, diferensiasiya, adaptasiya, identiklik, «biz-onlar», şəxsiyyət, kütlə psixologiyası anlayışları problemin tədqiqində mühüm rol oynayır.

Separatist münaqişələrin səbəbləri ilə bağlı sosial-bioloji, sosial-psixoloji, sosial-sinfi və funksional nəzəriyyələr mövcuddur. Sosial-bioloji nəzəriyyəyə görə, cəmiyyətdə müşahidə olunan münaqişələr sistemini, biz eyni ilə təbiətdə heyvanlar aləmində müşahidə edirik. Bu nəzəriyyə Ç.Darvinin təkamül nəzəriyyəsinə əsaslanır. Ona görə, hər bir canlı öz varlığını qorumaq üçün mübarizə aparır. Bu aqresiya özünü cəmiyyətdəki sosial münaqişələrdə göstərir. Bu baxımdan separatizm probleminin mənşəyi insanın bioloji varlığı ilə əlaqələndirilir. Z.Freyd bu təlim əsasında insanın şüuraltı sistemini, ümumiyyətlə, libidonu insanın bioloji başlanğıcı ilə əlaqələndirmişdir. Seksual azadlıq ideyası, məhz cəmiyyətdə aqresiyaya, separatist qarşıdurmalara səbəb olan bioloji enerjinin (libido) qarşısındakı bütün tabuların qaldırılması və sosial-psixoloji patalogiyadan azad olunması demək idi.

Digər tərəfdən bəziləri separatizmin mənşəyinin dil, din, adət-ənənə, mədəniyyət və başqa fərqlərdə olduğunu söyləmişlər. Modernizmin irqi avropasentrizm psixologiyası avropalılardan başqa bütün digər millətlərdə natamamlıq kompleksi yaratmış və avropa dəyərlərinin universallıq, ümumbəşərilik statusu qazandırmışdır. Bu psixoloji durum, xalqların öz dəyərlərindən əl çəkib, vahid avropa dəyərlərində birləşməsinə və tərəqqinin yanlız bu şəkildə əldə olunacağını təlqin edirdi. Əks təqdirdə separatizmin mənbəyinə çevrilən fərqlər ictimai inkişafa mane olacaq və təkamül nəzəriyyəsinə uyğun olaraq bir çox zəif xalqlar yer üzərindən silinəcəklər. Bu gün, problemin həlli yolu fərqlərin aradan qaldırılmasında yəni onları unifikasiya edən qloballaşmada olduğunu söyləyənlər vardır. Əslində yeni psixoloji durum, yenə də sosial darvinizmin irqçilik dünyagörüşünə əsaslanaraq, köləliyə haqq qazandırmaqdadır.

Sosial-psixoloji nəzəriyyəyə görə, separatizm sosial gərginlik ilə ortaya çıxan sosial amildir. İnsanların psixikasında bu psixoloji gərginliyi yaradan amillər araşdırılır (qloballaşma, urbanizasiya, əhalinin artımı, ekologiyanın pozulması, özgələşmə problemi və s.). Münaqişələrin yaranmasına, sosial partla-

yış həddinə gəlib çatan psixoloji gərginliyin mərhələləri araşdırılır. Psixoanalitiklər "daxili konfliktlərə" daha çox diqqət yetirərək, onun üç sahədə özünü büruzə verdiyini əsaslandırmağa cəhd etmişlər, yəni insanın instinktləri, düşüncəsi və şüur sferalarında təzahür etdiyini irəli sürmüşlər [3, 76-84]. İnsanın psixoloji durumu üçün ciddi əhəmiyyət kəsb edən ziddiyyətli həyat şəraiti iki başlıca mənbədən qaynaqlanır: birincisi, xarici təbii mühit və sosial şəraitdən, ikincisi isə, insanın yaş dövrü, sağlamlığı, özünüduyumu və özünüdərk edib qiymətləndirilməsilə bağlı "daxili səbəblərdən" irəli gəlir. Daxili səbəblər, adətən psixoloji konfliktlərin əsas mənbəyini təşkil edir .

Sosial-sinfi nəzəriyyəyə görə, separatist münaqişələr cəmiyyətin antoqonist siniflərə bölünməsi nəticəsində baş verir. Bu sifinlərin tələb, maraq və dəyərləri fərqləndiyi üçün, onlar daima bir-biri ilə qarşıdurma durumunda olurlar. Bu nəzəriyyə gələcəyi qurmaq məqsədi naminə hər cür ictimai zorakılıq metodlarından istifadə etməyi məqbul sayır. Marksizm separatizmin sosial mənşəli olduğunu, cəmiyyətin ən təməl və ilkin sosial institutu olan ailə institutundan qaynaqlandığını irəli sürür. Ailə institutu cəmiyyətdə xüsusi mülkiyyət institutunun yaranmasında, identikliyin formalaşmasında və ənənələrin qorunmasında əvəzsiz rol oynayır. Antik dövrdən başlayaraq bu günə qədər bəzi ideoloqlar (Platon, K.Marks) separatizmin mənşəyini xüsusi mülkiyyət ilə və bu institutun yaradıcısı hesab olunan ailə ilə bağlamağa çalışmışlar. Bu ideya nəticə etibarı ilə separatizmin sosial mənşəyini ailə institutunda görür, dövlət və siniflərin yaranmasını da ailəyə bağlayırdılar. Ailə institutunun aradan qalxması ilə dövlət və siniflər də ortadan qalxır, nəticədə cəmiyyətdə «sosial ədalət» bərpa olunur [6, 34-36].

Funksional nəzəriyyəyə görə, separatizm və sosial konfliktlər cəmiyyətin varlığında zəruri və təbii amillərdir. Buna görə separatizm nizama qarşı deyildir. Əksinə bu sosial hadisələr ictimai inkişafın əsas prinsipləri kimi dəyərləndirilir. Təbii fərqliliklər ümumi qanunauyğunluqlara tabe olduqları kimi, sosial fərqliliklər öz mövcudiyyətlərini tamamlamaq üçün bu ümumi harmoniyaya tabedirlər. Çünki onların varlığı ümumi harmonik sistemin vəhdətində mümkündür. Bu vəhdətin pozulması yanlız iradə azadlığının mövcud olduğu insan cəmiyyətində müşahidə olunur. İnsanlar öz iradə azadlığından süni istifadə edərək öz fərqli xüsusiyyətlərini, fərqli istək və arzularını ön plana çəkir, nəticədə müxtəlif nəfsani istəklər vahid nizamda bir-biri ilə toqquşur. Məhz bu separatizmin yaranması şərtlərindən ən əsasıdır. Y.Moreronun sosiometriya nəzəriyyəsinə görə, şəxsiyyətlərarası və cəmiyyətlərarası münaqişələr, insanlararası (və ya cəmiyyətlərarası) emosional münasibətlərdəki vəziyyəti, onların bir-birinə rəğbət və ya nifrət bəsləməsi ilə müəyyən olunur.

Təbiət qanunlarının cəmiyyət hadisələrinə bu və ya digər şəkildə təsiri mövcuddur. Cəmiyyətdə sosial təzahür formaları qeyri-xətti dinamikanın nəticəsi kimi ortaya çıxır. Onlar bəzən attraktor sahəsinə daxil olaraq timolitar partlayış yaradan psixoloji həddə yaxınlaşırlar. Sosial psixofiziologiya bunu kompleks şəkildə yəni cəmiyyətdə cərəyan edən koqnitiv «məntiqi» struktur-

ları, etnik qomeostazı, etnik qrupların genetik xüsusiyyətlərini və günəş aktivliyinin insan psixikasına təsirini öyrənir [7, 111-126]. Bununla yanaşı, şüuraltı qatlarda formalaşan arxaik psixoloji strukturlar, müəyyən sosial-fiziki dəyişikliklərlə bağlı olaraq aktivləşirlər.

Sosial qruplar arasında müşahidə olunan separatizm meyllərinin fərdi aspektlərini motivlik, durum, koqnitiv və fəaliyyət formalarında nəzəri olaraq araşdırmaq olar. Separatizm formalarında motivlik əsasən psixikanın emosional sahəsi ilə bağlıdır. Problemə ilk dəfə müvafiq şəkildə yanaşma Z. Freyd və onun davamçıları tərəfindən həyata keçirilmişdir. Separatizmin kökündə dayanan digərlərinə qarşı olan nifrət hissi kiçik yaşlarından ailədə emosional tərbiyə üsulu ilə ötürülən şüuraltı elementlərdir.

Separatizmin nəticəsində müşahidə olunan frustrasiya, aqressiya kimi bir çox psixoloji problemlər, nəzəri baxımdan fərqli yanaşmaların ortaya çıxmasına şərait yaratmışdır. Qruplararası separatizm meyllərinin motivini «frustrasiya və aqressiya» konseptual prizmasından açıqlamağa çalışan tədqiqatçılar vardır. Onlara görə, frustrasiya gərginlik, həyəcan, qəzəb və aqressiyaya hazırlıq anlarında fəallaşır. Aqressiya ilə nəticələnən bu frustrasiya durumu, separatist qrupların, xüsusilə etnoseparatizmin psixoloji fəaliyyətində daha aktiv şəkildə müşahidə olunur. O, kütləvi xarakter alanda psixiki partlayış həddinə çatır [2, 10].

Separatizm sosial identiklik probleminin yanlış dərk olunmasından ortaya çıxır. Buna görə fərdin subyektiv koqnitiv aləmi problemin tədqiqində önəmli yer tutur. Sovet psixoloqlarından L.S.Vıqotski, A.N.Leontev sosial psixologiya sahəsində fərdin sosial, mədəni-tarixi identiklik məsələlərinə gətirdikləri aydınlıq bu günün özündə də aktuallığını itirməmişdir. Aparılan tədqiqatlar sübut edir ki, koqnitiv proses separatist qrupların fəaliyyət xarakteri, onların mövcud olduqları obyektiv şərait nəzərə alınmadan izah oluna bilməz. Çünki obyektiv şərtlər həm separatizmin yaranmasına, həm də onun təməlində dayanan koqnitiv proseslərin müəyyənləşməsində mühüm təsirlərə malikdirlər [2, 34-37]. Buna görə problemin araşdırımasında şəxsin koqnitiv-motivlik sahəsinin və həmçinin cəmiyyətin sosial-siyasi, etnomədəni şəraitinin sistemli metodlar əsasında nəzərə alınması vacibdir. İdentikliyin və onun təşəkkül formalarının dinamikasını requlyativ, qoruyucu sosial-perseptiv, kompensator və reqressiv psixoloji mexanizmlərinin psixoloji metodlar əsasında tədqiqi problemin dərk olunmasına şərait yaratmış olar. Sosial-perseptiv mexanizm separatist qruplar arasında formalaşan emosional-atributiv fenomenlər əsasında araşdırılır. Bu fenomenlər separatist qrupların digərləri ilə fərqlərinin artmasında, öz daxilində isə fərqlərin azalmasında, «biz» strukturunun pozitivliyinin kəskinləşməsində, «onlar» antitezisinin neqativliyinin artmasında, etnik meyarlar əsasında günahkarın axtarılmasında müşahidə olunur. Xalqın həyatında müşahidə olunan siyasi, iqtisadi və başqa uğursuzluqlarda günah, məsuliyət digərlərinə və ya onların liderlərinə yönləndirilir. Yəni bu kimi hallarda psixoloji olaraq səbəb daxildə deyil, kənarda axtarılır. Bu digər tərəfdən

daxildə süni şəkildə birliyi təmin etmək üçün kənarda yaradılan neqativ stereotiplərlə əlaqədardır. Beləliklə, emosional dəyişikliklərlə müşayiət olunan atributiv mexanizm işə düşür. Yaxşını pisdən, düzü yalandan ayırmağa maneçilik törədən bu psixoloji durum, çox yaxın münasibətlərə malik olan xalqları bir-birinə düşmən etmək iqtidarındadır.

Separatist qruplar arasında kompensator mexanizminin işə düşməsi «natamam qrup» kompleksinin nəticəsində formalaşır. Bu mexanizm təhqir olunma hipertrofik hissinin oyanmasına, separatist qrupun marginallığının dərk olunmasına şərait yaradır. Kompensator kompleksi qapalılığa, hamıdan üstün özünü hesab etməyə, real və xəyali təhqirə qarşı qisas almaq və ya mübarizə aparmaq kimi hissləri oyadır. Xüsusən, separat qruplar sosial-siyasi dəyişiklər zamanı, vətəndaş identikliyinin böhranı zamanı öz kompensator funksiyasını yerinə yetirir. Bu kütləvi miqyasda hiperidentikliyin artması şəraitində özünü daha qabarıq şəkildə büruzə verir. Antiassimlyasiya əhval-ruhiyyəsi yanlız psixoloji planda deyil, həmçinin siyasi-iqtisadi müstəqillik cəhdlərindəki ləyaqətin bərpasında aktualaşır.

Reqressiv mexanizm gələcəyə olan ümidsizlik şəraitində ortaya çıxır. Bu isə, öz növbəsində separast qrupların arxaik münasibətlər sisteminə dönməsinə, mədəniyyətdə qəbilə-tayfa sisteminin bərpa olunmasına şərait yaradır. Məsələn, keçid dövründə bir çox keçmiş sovet respublikalarında keçmiş ənənələrə dönüş müşahidə olunmuşdu (Qafqaz, Orta Asiya). Reqressiv mexanizm separatizmin nəticəsi kimi ortaya çıxan uzun və mürəkkəb konfliklərin mövcudluğu şəraitində aktivləşir. Bu mexanizm həm konfliklərin qarşılıqlı barışığa əsaslanan həlli yollarından biri kimi götürülə bilər, həm də sivilizasiyalı inkişaf dinamikasına maneçilik təşkil edə bilər. Yəni bu geriyə addım qədim zamanlarda olduğu kimi mübahisələrin zor və hərbi yolla həllinə aparıb çıxara bilər.

Bəhs etdiyimiz sosial-psixoloji mexanizmlər separatist qruplar arasında intolerant münasibətlərin yarandığı şəraitdə aktivləşir. Tolerantlıq sosial və etnik identikliyə az əhəmiyyət verən insanlar arasında geniş yayılmışdır. Bunlar əsasən çox işgüzar və ya həyat tərzində ümummədəni istiqamətdə formalaşan insanlar arasında, riyaziyyatçılar, təbiətşünaslar, iqtisadçılar arasında geniş yayılmışdır. Onlar üçün tolerantlıq «dözüm, səbr» anlayışları ilə, qruplararası münasibətlərdə indifferentlik isə xalqların tələbatlarını unutmaq və ya assimlyasiya tendensiyaları kimi başa düşülür. Buna görə, tolerantlığın elmi, praktik, ideoloji və siyasi mənaları ortaya çıxır. Tolerantlıq özünü məhdudlaşdırmaq mövqeyi və məqsədyönlü müdaxilədən uzaqlaşmaq, qarşılıqlı dözümə razılıq kimi deyil, əslində digərlərini olduğu kimi qəbul edib, onlarla münasibətlər qurmaqdan ibarətdir [5, 52-53].

Durum amili qruplararası münaqişələrdə rəqabəti və «onlar» tərəfindən təhlükəni müəyyənləşdirir. Məhz təhlükə qruplararası nifrəti artırır, qrupdaxili birliyi möhkəmləndirir, qrupun normalarından kənarlaşmağı qəti cəza tədbiri ilə cəzalandırır [2, 17]. Bu təhlükə psixoloji olaraq qruplararası münasibətlərdə intolerantlığın yaranmasına şərait yaradır. Hər hansı bir durum (siyasi, iqtisadi,

sosial) maraqların toqquşmasına, vəziyyətin dərk olunmasına təsir göstərir ki, bu da sonra bu və ya digər şəkildə qrup daxilində birliyin artmasına və separatist etnomədəni psixoloji sərhədlərin dərinləşməsinə şərait yaradır. Fərd durum amilində separatistlərlə birgə olub-olmamasını, yəni müvafiq durumu özü üçün müəyyənləşdirir. Lakin belə ümumi durumlar da formalaşır ki, tərəflər bir-birindən asılı vəziyyətdə qalır və əməkdaşlıq yolunu yeganə çıxış yolu kimi dəyərləndirirlər.

Separatizm kiçik etnik qrupun öz milli-etnik «mən» başlanğıcını böyük sosial birlik daxilində gərgin adaptasiya şəraitində assimlyasiya olunmaq qorxusundan psixoloji özünüqoruma instinkti kimi ortaya çıxa bilər. Dezinteqrasiya nəticəsində dağılan böyük sosial birliyin identiklik problemi də ortadan qalxır (osmanlı identikliyi, sovet xalqı identikliyi). Dağılma nəticəsində ortaya çıxan dağıdıcı psixoloji enerji idarə edilməyən təhlükəli sosial fenomenə çevrilir. Bu enerci özünü etnik münaqişələrdə, dini müharibələrdə, vətəndaş müharibəsində, avtoritarizmin, etnomərkəzçiliyin, ksenofobiyanın artmasında büruzə verir. Bu kimi dezinteqrasiya prosesinin mövcud olduğu sosial şəraitdə demokratiya və insan hüquqlarından danışmaq absurddur .

Separatizmin mənşəyi məsələsinə gələndə biz tarixdə problemə müxtəlif yanaşmaların olduğunu və problemin müxtəlif metodlarla həll olunduğunu görürük. Sadəcə olaraq əvvəllər problemə terminoloji, metod və qnoseoloji baxımdan fərqli yanaşmalar olmuşdur. Çünki separatizm bütün dövrlərdə cəmiyyətin həyatında müşahidə olunan diferensiallaşma hadisəsidir. Daima mütəfəkkirlər bu sosial fenomenin mahiyyəti dərk etməyə çalışmış və cəmiyyəti bu bəladan qurtarmağın yollarını axtarmışlar.

Problemin tam həlli mümkün deyildir. Çünki o ictimai inkişafın qanunauyğun şərtlərindəndir. Cəmiyyətin inkişafı ziddiyyətlərin münasibətləri zəminində təmin olunur. Cəmiyyətdə bu ziddiyyətləri təmsil edənlər sosial qruplar, sosial təbəqələr, siniflər və ayrı-ayrı fərdlərdir. Qədim və antik dövrlərdə peyğəmbərlər, filosoflar, sonrakı dövrlərdə yaşayan mütəfəkkirlər cəmiyyətdə münaqişələrə səbəb olan separatizm probleminin səbəblərini və aradan qaldırılması yollarını göstərmişlər. Onların bəziləri praktiki olaraq öz dövründə problemin həllinə qismən nail olmuş, bəziləri isə nəzəri ideyalar ilə kifayətlənmişlər. Lakin problem hər dövrün xarakterinə görə dəyişən dinamik bir hadisə olduğu üçün, onun səbəb və həll yollarının müəyyənləşdirilməsi, insan psixologiyasının dinamik tədqiqində mümkündür.

Mütəfəkkirlər bütün dövrlərdə separatizmə əsas verən səbəblərin psixoloji köklərini aydınlaşdırmağa çalışmışlar. Bir çoxları bu cəmiyyətdə maddi ehtiyatların qeyri-bərabər bölüşdürülməsi, hakimiyyətin qeyri-ədalətliliyi, cəmiyyətdə sosial ayrıseçkilik, insan hüquqlarının pozulması və başqa səbəblərlə bağlamağa çalışmışlar. Məsələn, Platon, K.Marks cəmiyyətdəki bütün qarşıdurmaların xüsusi mülkiyyətdə gördükləri üçün, cəmiyyətin bu problemlərdən çıxış yolunu ictimai mülkiyyətə əsaslanan dövlət qurumunda görmüşlər. Yaxud sosial təbəqələşmənin separatizmə əsas verdiyini önə çəkərək, sinfi və ya

digərləri isə dini identiklikliyə əsaslanan cəmiyyət modellərinin qurulmasını irəli sürmüşlər. Başqaları isə problemin səbəb və həll yollarını müxtəlif aspektlərdə axtarmışlar.

Separatizm terminoloji olaraq deyil, bir sosial problem kimi bütün dövrlərdə insan cəmiyyətinin ayrılmaz hissəsi olmuşdur. Çünki cəmiyyətin mövcud olduğu gündən bu günə qədər bəşəriyyət daima sosial münaqişələrlə, müharibələrlə üzləşmişdir. Cəmiyyətin varlığında mövcud olan bu problemin mənşəyi məsələsi və ondan çıxış yolları daim dövrün mütəfəkkirlərini düşündürmüşdür. Lakin problem mürəkkəb və çoxaspektli olduğuna görə, heç bir zaman öz tam həllini tapmamış və bu günə qədər də öz aktuallığını qoruyub saxlamışdır.

Separatizm, tarixin əsasən keçid mərhələlərində aktuallaşan dezinteqrativ sosial-tarixi bir prosesdir. Lakin bu sosial prosesin mənşəyi, insanın şüuru və şüuraltı aləmi ilə bağlıdır. Bu baxımdan problemin qnoseologiyası sosial-psixologiya, ümumiyyətlə, psixologiya sahəsinin tədqiqat obyektidir. Lakin problemin varlığı ilə əlaqədar mövcud olan dünyagörüşlərinin, elmi nəzəriyyələrin tarixi tədqiqi, ictimai düşüncə tarixində problemə mifoloji, dini və ümumfəlsəfi kontekstdə bir neçə aspektdən yanaşıldığını göstərir. Məhz psixoanalitika sahəsində mifoloji təfəkkür kollektik şüurun, şüuraltı arxetiplərin araşdırılması baxımından çox aktualdır. Bu baxımdan Z.Freyd, K.Yunq öz elmi nəzəriyyələrini məhz mifoloji təfəkkürün təhlili üzərində formalaşdırmışlar. Çünki insan psixikasının ən dərin qatlarını təmsil edən bu dünyagörüşü sistemi bəşəriyyətin təfəkkür sistemini müxtəlif transformasiyalarla hər bir dövrdə müşayiət etmişdir. Separatist şüur struktur baxımından mifoloji təfəkkürün kontekstində formalaşmışdır. Separatist şüur mədəni-tarixi inkişaf ilə əlaqədar olaraq bütün insanların kollektiv şüur səviyyəsində potensial olaraq öz aktivliyini qoruyub saxlayır. Buna görə də, mifologi təfəkkürün öyrənilməsi metodu istənilən sosial-psixoloji problemin qnoseologiyasında mühüm əhəmiyyət kəsb edir. Xüsusilə biz Levi Stross, K.unqun və başqalarının bu istiqamətdə apardığı tədqiqatlardan və onların metodoloji bazasından istifadə etməliyik.

Separatizm probleminin sosial-psixoloji tədqiqi, insanın özünüdərk problemi ilə əlaqədar bir çox ziddiyyətlərin elmi şəkildə dərk olunmasına şərait yaratmış olar. Çünki problemin tədqiqi, əslində problemin insanın şüuru ilə bağlı olduğunu ortaya qoyur. Cəmiyyətdə yaranan ziddiyyət, insanın psixikasında tarixi-mədəni şəkildə formalaşan psixoloji mexanizmlərin inikasıdır. Buna görə də, bu ziddiyyət birinci növbədə insan üçün müəyyən məna kəsb edən və öz həllini gözləyən problem dərk olunmalıdır. Bu psixoloji durum, hissiyyatın fəallaşmasını, fəallığın artmasını, yəni konfliktdən çıxış yolunu axtarmasını, qarşıya çıxan problemi aradan qaldırmağa xüsusi cəhd göstərməsini təmin edir [1, 32].

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
2. Агеев В.С. Межгрупповое взаимодействие. Социально-психологические проблемы. М., 1990, 324 с.
3. Абульханова-Славская. Деятельность и психология личности. М.: Наука, 1980, 269 с.
4. Дробижева Л.М. Толерантность и рост этнического самосознания: пределы совместимости//От толерантности к согласию. М., 1997, 321с.
5. Энгельс Ф. Происхождение семьи, частной собственности и государства. М., 1974, 238 с.
6. Солдатова Г.У. Межэтническое общение: когнитивная структура этнического самосознания / Г.У.Солдатова // Познание и общение. М., 1988, 234 с.
7. Тишков В.А. Очерки теории и политики этничности. М., 1997, 256 с.


## НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ ПРОБЛЕМЫ СЕПАРАТИЗМА


**И.БАЙРАМОВ**



**РЕЗЮМЕ**

В статье рассматриваются исторические, социально-психологические и идеологические взгляды на проблему сепаратизма, выявляются навравления исследований по данному вопросу. Например, в марксизме проводилось противопоставление сепаратиз-мам национально-освободительного движения. Национально-освободительное движение представлялось как положительное, прогрессивное явление, соответствующее общей направленности антиимпериалистической, антиколониальной борьбы народов. Сепаратизм, однако, некоторыми учениями характеризовался как негативное или позитивное явление.



**Ключевые слова:** социально-психологические, идеология сепаратизма, национально-освободительные движения, антиимпериалистическая и антиколониальная борьбы.


## DIRECTIONS OF RESEARCH OF A PROBLEM OF SEPARATISM


**I.BAYRAMOV**



**SUMMARY**

In article it is considered historical, sosial - psychological and ideological vision on a problem of separatism. Also it is considered orientation research on the given question. For example, in marxism opposition between separatism and national-liberation movement was carried out. National-liberation movement was represented as the positive, progressive phenomenon corresponding to the general orientation of antiimperialistic, anticolonial struggle of peoples. Separatism, however, was characterized by some doctrines as negative or as the positive phenomenon.



**Key words:** Sosial - psychological and ideological, separatism, national-liberation movement, antiimperialistic, anticolonial struggle.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Sosial-siyasi elmlər seriyası* 2019

UOT 342.537.36

# KONSTİTUSİYA QANUNLARININ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİK SİSTEMİNDƏ YERİ

**A.F.HƏMİDOVA**
***Bakı Dövlət Universiteti***
***hemidovaida@mail.ru***

*Məqalədə konstitusiya qanunlarının hüquqi təbiətinin təhlili və müqayisəli-hüquqi tətqiqat metodu ilə spesifik cəhətləri ortaya çıxarılaraq onların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri barədə müəllif yanaşması əsaslandırılır. Bu məsələdə konstitusiya qanunlarının hüquqi qüvvəsi, qəbul edilməsinin xüsusi prosedur qaydası, ölkənin konstitusion inkişafında funksiyaları, əhəmiyyəti və rolu kimi digər xüsusiyyətləri əsas götürülmüşdür. Araşdırmanın normativ hüquqi bazası qismində Respublikanın Əsas Qanunu, milli və xarici ölkələrin qanunvericilik aktları çıxış etmişdir.*

**Açar sözlər:** konstitusiya qanunu, orqanik qanun, konstitusiyaya dəyişikliklər, konstitusiyaya əlavələr, qanunvericilik aktlarının iyerarxiyası

Hər bir normativ hüquqi aktın qanunvericilik sistemində yeri onun hüquqi qüvvəsi ilə müəyyən olunur. Konstitusiya qanunlarının hüquqi qüvvəsi onların fəaliyyət sferası, məzmunu, qəbul edilmə qaydası və forması ilə birgə onların hüquqi təbiətinin tərkib hissəsi kimi çıxış edir. Normativ hüquqi aktların müstəqil növü kimi konstitusiya qanunlarının konstitusiya hüquq münasibətlərinə tətbiqinin məcburiliyi, habelə onların digər normativ hüquqi aktlara nisbətdə üstünlüyü və ya uyğunluğunun müəyyən edilməsi bu aktların qanunvericilik sistemində yerini dəqiqləşdirməyə imkan verir. Bu baxımdan konstitusiya qanunlarının qanunvericilik sistemində yerinin dəqiqləşdirilməsi mühüm nəzəri və təcrübi əhəmiyyətli məsələlərdən biridir.

12 noyabr 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin 1-ci hissəsində qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar iyerarxik şəkildə göstərilmişdir. Bu maddəyə görə qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar Konstitusiya, referendumla qəbul olunmuş aktlar, qanunlar, fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından ibarətdir. Həmin maddənin II hissəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik

sisteminin ayrılmaz tərkib hissəsi olduğu təsbit olunmuşdur. Konstitusiyanın 151-ci maddəsində isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin bir növü olan dövlətlərarası müqavilələrin hüquqi qüvvəsi müəyyən edilmişdir. Müvafiq maddəyə görə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Yuxarıdan göründüyü kimi, Respublika Konstitusiyasında normativ hüquqi aktlar sisteminin iyerarxiyasını müəyyən edən "Qanunvericilik sistemi" adlı X fəsildə Konstitusiya qanunlarının hüquqi qüvvəsi və qanunvericilik sistemində yeri aydın şəkildə müəyyən edilməmişdir. Respublika Konstitusiyasında konstitusiya qanunlarını adi qanunlardan fərqləndirilməsi meyarlarının birbaşa şəkildə ifadə edilməməsi onların qanunvericiliyin iyerarxiyasında yerinin müəyyən edilməsi ilə bağlı hüquqtətbiqetmədə çətinliklərin yaranmasına səbəb ola bilər. Qeyd etmək lazımdır ki, bu məsələdə müəyyən nəticəyə gəlmək üçün əhəmiyyət kəsb edən müddəalar Əsas Qanunun "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr" adlı fəslində təsbit edilmişdir ki, həmin müddəalara uyğun olaraq Konstitusiyaya əlavələr Konstitusiya qanunları formasında qəbul olunur, onlar Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır (156 maddə).

Prof. M.F.Məlikovanın konstitusiya qanunlarının bu xüsusiyyətlərini nəzəri baxımdan bir-biri ilə sıx məntiqi əlaqədə olan və bir-birini izləyən spesifik əlamətlər kimi ardıcıl şəkildə göstərməsini əsaslı hesab etmək lazım gəlir (4, 169-170). Konstitusiya qanunlarının Konstitusiyanın ayrılmaz hissəsi kimi nəzərdən keçirilməsi onların hüquqi qüvvəsini müəyyən etməyə və qanunvericilik sistemində tutduğu yerinin dəqiqləşdirilməsinə xidmət edən əsas cəhətlərdən biridir.

Elmi ədəbiyyatın öyrənilməsi konstitusiya qanunlarının qanunvericilik sistemində yeri barədə konstitusiyaya münasibətində mövcud olan elmi fikirləri iki qrup üzrə təsniflşdirməyə imkan verir. Birinci qrup yanaşmaya görə konstitusiya qanunları qanunların müstəqil bir növüdür və hüquqi qüvvəsinə görə Konstitusiyadan aşağıda duran aktın cəhətlərini özündə əks etdirir. Bu yanaşmanın hüquqi əsası qismində konstitusiya qanununun konstitusiyaya zidd olmasının yolverilməzliyi, onun konstitusiyaya, yəni əsas hüquqi akta yalnız əlavə olduğu müddəası çıxış edir. İkinci yanaşmaya görə isə konstitusiya qanunu qanunvericilik sistemində əhəmiyyətinə görə Konstitusiyaya daha yaxın olan və Konstitusiyaya əlavə və dəyişiklik edən akt kimi hüquqi qüvvəsinə görə ona bərabər olmalıdır. Bu halda konstitusiya qanunu xüsusi statusa malik olan müstəqil normativ hüquqi akt deyil, konstitusiyanın bir hissəsi kimi qiymətləndirilir (8,7;10,45-47).

İlkin baxışdan konstitusiya qanunları Konstitusiyaya əlavə olması, ona

zidd olmaması tələbinə görə Konstitusiyadan aşağı olması, adi qanunlardan isə üstün olduğu barədə fikir daha inandırıcı görünsə də, belə yanaşma problemə tam şəkildə aydınlıq gətirmir. Hesab etmək olar ki, məsələnin mahiyyətini izah etmədən konstitusiya qanunlarının hüquqi qüvvəsi barədə düzgün nəticəyə gəlmək çətin olardı. Konstitusiya qanunlarının qanunvericilik sistemində yerinin müəyyən edilməsinə dair yekun nəticəyə gəlmək üçün qanunvericilik sisteminin iyerarxik əlaqəsi və bunun araşdırılan məsələyə tətbiqi ilə doğru nəticələrə gəlmək olar.

Məlumdur ki, hüququn sistemi özlüyündə daxili məntiqi əlaqəyə, düzülüşə malik olan hüquq normalarının məcmusundan ibarətdir. Hüquq sisteminə daxil olan normalar öz aralarında daxili məntiqi əlaqə ilə düzülmüş birləşmədir. Hüquq normalarının bir-biri ilə sistem yaratması üçün onlar arasındakı əlaqə iyerarxik olmalıdır, yəni onlar üst-üstə sıralanmalıdır. “Hüquqa həm də zahiri ifadə forması, müəyyən mənada zahiri struktur xasdır ki, bu da onun əhatə etdiyi və özünün iyerarxikliyi və tabeliyi ilə xarakterizə olunan normativ hüquqi aktlar sistemidir” (4, 222).

Hüquq normaları qüvvəsinə görə düzülüşü onların piramidasını təşkil edir. İlk dəfə sistematik şəkildə Hans Kelzen tərəfindən əsaslandırılan bu nəzəriyyənin təməl ideyası ondan ibarətdir ki, hər bir norma özünün legitimliyini onun tabe olduğu və ondan daha yüksək hüquqi qüvvəyə malik olan digər bir normadan alır. Qanun qüvvəli aktlar özünün legitimliyini qanundan, qanun isə Konstitusiyadan alır. Konstitusiya isə bu legitimliyi əsas qaydadan (grund norm) alır. Yekun olaraq normalar iyerarxiyasında aşağıda duran norma yuxarı normaya tabedir və ona zidd ola bilməz. Hüquq normalarının iyerarxiyası hüququn vahidliyini, sistemliyini təmin edən əsas şərtlərdən biridir. Hüquq sisteminin daxili məntiqi əlaqədə olması üçün onun normaları arasında məntiqli şəkildə düzülüşü təmin edən normaların iyerarxiyası durur. Hüququn sistemliyi bütün hüquq normalarının ən üst normaları nəzərdə tutan Konstitusiyaya uyğun olması ilə şərtlənir (5, 349).

Hüquq norması dövlət iradəsinin məhsulu olduğu üçün onun hüquqi qüvvəsi də həmin iradənin gücü ilə bağlıdır. Normaların iyerarxiyasının əsasında bu iradənin daşıyıcısı olan “orqanların iyerarxiyası” durur. Beləliklə də, normalar iyerarxiyasında hər hansı normanın yeri onu qəbul edən dövlət orqanının orqanlar iyerarxiyasındakı yeri, sırası ilə müəyyən olunur. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində təsbit olunmuş qanunvericilik sisteminin iyerarxik quruluşu da məhz bu qanunauyğunluğa əsaslanır. Həmin iyerarxiyada konstitusiya qanunlarının yerini müəyyən etməsinə onların ayrılmaz şəkildə bağlı olduğu Konstitusiyaya düzəlişlərin edilməsi qaydalarının nəzəri əsaslarının araşdırılması imkan verir.

Konstitusiyanın qəbulu və ona dəyişikliklər edilməsi ilə bağlı mövcud olan çoxsaylı nəzəriyyələrdən biri də, vaxtilə Böyük Fransa İnqilabı dövründə yaşamış fransız maarifçisi E.Siyes tərəfindən irəli sürülmüş təsisedici (pouvoir constituant) və təsis edilmiş hakimiyyət (pouvoir constitué) nəzəriyyəsidir.

Müəllifə görə xalq təsisedici hakimiyyətə malikdir. Bu hakimiyyət Konstitusiya ilə təsis edilmiş (qurulmuş) qanunverici, icra və məhkəmə hakimiyyətindən fərqlənir. Xalqın təsisedici hakimiyyəti konstitusion sərhədlərlə məhdudlaşdırıla bilməz və təsisedici hakimiyyət təkcə xalqın özü tərəfindən deyil, onun xüsusi köməkçiləri və xüsusi nümayəndələri tərəfindən də həyata keçirilə bilər. Təsisedici hakimiyyətin əsas vəzifəsi Konstitusiya qəbul etməkdir. Onun səlahiyyətləri sıravi dövlət orqanlarına həvalə edilə bilməz (9,110-116).

E.Siyesin mülahizələrini konstitusiya qanunlarına dair nəzəriyyəyə tətbiq edilərkən konstitusiya qanunlarının qanunvericilik sistemində yerinin dəqiqliklə müəyyən edilməsi üçün təsisedici hakimiyyət və təsis edilmiş hakimiyyət arasında iyerarxik münasibətlərin olub-olmamasını aydınlaşdırmağa ehtiyac duyulur. Dolayısı ilə, bu münasibətlərin iyerarxik olduğu qəbul edildikdə konstitusiya qanunları yerinə görə Əsas Qanundan aşağıda, digər normativ hüquqi aktlardan yüksəkdə olması etiraf edilməlidir. Əks təqdirdə Konstitusiya qanunu Konstitusiya ilə eyni hüquqi qüvvəyə malik olduğu yanaşması əsaslı sayılmalıdır. Bu əlaqənin müəyyən edilməsi həm də konstitusiya qanunları ilə referendum yolu ilə qəbul edilmiş aktların nisbəti məsələsində nəticəyə gəlməyə imkan vermiş olardı.

Bu məsələdə E.Siyesin konsepsiyası müəyyən dərəcədə öz aktuallığını hələ də saxlayır. Belə ki, Türkiyə alimi K.Gözlər ilk əvvəl, E.Siyesin mövqeyini dəstəkləyərək göstərir ki, təsisedici hakimiyyət ən yüksəkdə duran ali hakimiyyətdir, hüquqi boşluq şəraitində meydana gəlir, ali hakimiyyət kimi onun hüdudları yoxdur. Bu hakimiyyət konstitusiyanı qəbul etməklə təsis edilmiş (qurulmuş) hakimiyyəti yaradır. Məhz buna görə də təsisat kimi təşkiledilmiş hakimiyyət təsisedici hakimiyyətdən aşağıda durur. Müəllif daha sonra E.Siyesin irəli sürdüyü fikirlərin bəzi məqamları ilə razlaşmayaraq bildirir ki, təsisedici hakimiyyət daima fəaliyyət göstərən bir hakimiyyət deyildir. Yeni bir konstitusiya yaratdıqdan sonra öz yerini təsis edilmiş hakimiyyətə verir və bununla da fəaliyyətini dayandıraraq səlahiyyətlərinin həyata keçirilməsini təsis edilmiş dövlət hakimiyyətinə həvalə edir. Təsisedici hakimiyyət təsis edilmiş hakimiyyətdən üstün olsa da, bu, onlar arasında iyerarxiyanın olduğu anlamına gəlməməlidir. Çünki təsisedici hakimiyyət fəaliyyət göstərdikdə təsis edilmiş dövlət hakimiyyəti fəaliyyət göstərmir, təşkiledilmiş hakimiyyətin fəaliyyət göstərməsi üçün təsisedici hakimiyyətin öz fəaliyyətini bitirməsi tələb olunur. Başqa sözlə, bu iki hakimiyyət eyni anda fəaliyyət göstərə bilməz. Bu səbəbdən də göstərilən hakimiyyətlər arasında iyerarxiyanın mövcud olduğunu iddia etməyin əhəmiyyəti yoxdur. Əlavə olaraq göstərmək lazımdır ki, təsis edildikdən sonra təsis edilmiş hakimiyyət təsisedici hakimiyyətin qəbul etdiyi Konstitusiyanı dəyişdirmək səlahiyyətinə malik olur və buna görə də funksiyası, yəni gördüyü iş baxımından təsisedici və təsis edilmiş hakimiyyət eyni səviyyəli işlərlə məşğul olduqları üçün onların fəaliyyətinin nəticələri arasında iyerarxiya müəyyən etmək yanlış olardı. Çünki hər iki hakimiyyətin vəzifəsi "konstitusiya hüquq norması"nı müəyyənləşdirməkdir.

Dolayısı ilə təsisedici hakimiyyət və təsis edilmiş hakimiyyətin müəyyən etdiyi konstitusiya hüquq normaları arasında iyerarxiya yoxdur, onlar eyni səviyyədə yer alırlar. Yekun olaraq bu əsaslandırma ilə təsisedici və təsis edilmiş (qurulmuş) hakimiyyətin orqanların iyerarxiyasında eyni səviyyədə olduğunu söyləmək olar. Məhz buna görə bu iki hakimiyyəti "qurucu hakimiyyət" termini ilə adlandırmaq lazım gəlir (7, 182).

E.Siyes isə təsisedici hakimiyyəti davamlı olaraq mövcud olan bir hakimiyyət kimi nəzərdən keçirir. Həmçinin Konstitusiyaya düzəlişlər edilməsi zərurəti yarandığı hər bir halda təsisedici hakimiyyət fəaliyyətə başlayır və Konstitusiyaya düzəlişlər edir. Təsisedici hakimiyyət bu düzəlişləri edərkən Konstitusiyada təsbit olunmuş qaydalara belə riayət etmək məcburiyyətində deyildir (6, 48). Bununla da müəllif faktiki olaraq təsisedici və təşkil edilmiş dövlət hakimiyyətləri arasında iyerarxik münasibətlərin olduğunu təsdiqləyərək təsisedici hakimiyyətin təşkil edilmiş hakimiyyətdən daha yüksəkdə durduğu mövqeyini müdafiə etmiş olur.

Fikrimizcə, bu məsələdə təsisedici və təşkil edilmiş hakimiyyət arasındakı qarşılıqlı əlaqəni diqqətdən kənarda saxlamaq doğru olmazdı. Lakin nəzərə almaq vacibdir ki, demokratik quruluşlu ölkələrdə dövlət hakimiyyəti xalq tərəfindən həyata keçirilir, xalqı təşkil edən vətəndaşlar dövlət hakimiyyətinin təşkili və fəaliyyətinin həyata keçirilməsində, dövlətin idarə edilməsində bilavasitə iştirak edirlər. Məhz bu səbəbdən ölkəmizin Konstitusiyasında vətəndaşların dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakını elan edən çoxsaylı insan və vətəndaş hüquqları nəzərdə tutulmuşdur. Bu sırada bütün siyasi hüquqları, o cümlədən cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ (54-cü maddə), dövlətin idarə olunmasında iştirak etmək hüququ (55-ci maddə), seçki hüquqi (56-cı maddə) və s. göstərmək olar.

Heç şübhəsiz ki, konstitusiyanın təsbit etdiyi konstitusion qayda çərçivəsində özünün dəyişikliklər edilməsi üsulunu müəyyən edib həmin səlahiyyəti bir təsisata verməsi, xüsusən bu məsələdə yekun qərarı qəbul etmək səlahiyyəti xalqa məxsus olduğu halda bu, təsisedici hakimiyyətin davamlılığı müddəasını inkar etmir. Təsisedici hakimiyyətin daima fəaliyyətdə olması onun məhdudiyyətsiz fəaliyyəti kimi anlaşılmamalıdır. Əks halda bu, Konstitusiyanın ali hüquqi qüvvəsi, qanunvericiliyin əsası olması, tədricən isə hüquq qaydasının pozulması ilə nəticələnmiş olardı. Beləliklə də, qəbul etmək lazımdır ki, təsisedici hakimiyyət konstitusiyanı qəbul etdikdən sonra onun qüvvəyə minməsi ilə fəaliyyətsiz bir rejimə keçmir, onun həyata keçirilməsində iştirak edir, Konstitusiyaya düzəlişlər etmək zərurəti yarandıqda bu səlahiyyəti həyata keçirir. Belə olan halda hər iki hakimiyyət eyni zamanda fəaliyyət göstərmiş olur, onların arasında iyerarxiyanın mövcud olmasının zəruriliyini qəbul etmək lazım gəlir. Xüsusən dövlət hakimiyyətinin mənbəyinin xalqın olduğunu nəzərə alaraq təsisedici hakimiyyətin dövlət hakimiyyəti ilə iyerarxiyada olmadığı iddiası reallığa uyğun olmur. Aydındır ki, əgər dövlət hakimiyyətinin mənbəyi xalqdırsa, o, "orqanlar iyerarxiyasında" dövlət hakimiyyətindən

yüksəkdə durur. Bu baxımdan onun iradəsinin daha üstün olduğu nəticəsinə gəlmək doğru hesab oluna bilər.

Göstərilənləri Azərbaycan Respublikasının Konstitusiyasına şamil etdikdə belə bir mülahizə irəli sürmək olar ki, Respublika Konstitusiyasını qəbul etmək və ona düzəlişlər aparmaq səlahiyyəti təsisedici hakimiyyət səlahiyyətləri kimi Azərbaycan xalqına məxsusdur. Azərbaycan Respublikası Konstitusiyasının 1.1-ci maddəsi Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqının olduğunu elan edir. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi də daxil olmaqla Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni bilavasitə ümumxalq səsverməsi - referendum qaydasında həll edə bilər. Bununla da, sanki Azərbaycan xalqı orqanlar iyerarxiyasında ən üstün yer tutmağa qadir olur.

Bununla yanaşı, Konstitusiyaya əlavələr etmək səlahiyyəti təsis edilmiş dövlət hakimiyyətinə aid edilmişdir. AR Konstitusiyasının 156-cı maddəsinin I hissəsinə görə Azərbaycan Respublikası Konstitusiyasına əlavələr Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya qanunları şəklində qəbul edilir. Şübhəsiz ki, təsis edilmiş hakimiyyətin Konstitusiyaya əlavələr etmək səlahiyyətinin mövcudluğu xalqın bu səlahiyyətlərə malik olmasını aradan qaldırmır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının mətninin dəyişdirilməsi ilə bağlı keçirilmiş referendumlarda təkcə onun məzmununu dəyişdirən və ya onun ayrı-ayrı müddəalarını ləğv edən normalara deyil, həm də, ümumiyyətlə, Əsas Qanunda olmayan normaların - ona əlavələrin daxil edilməsi məsələsinin ümumxalq səsverməsinə çıxarıldığını müşahidə etmək olar. Məsələn, 18 mart 2009-cu ildə keçirilən ümumxalq səsverməsi ilə Konstitusiyanın 108-ci maddəsinə II hissə əlavə edilərək əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilməsi müvafiq maddəyə daxil edilmişdir.

Azərbaycan Respublikasında konstitusiya qanunlarının Konstitusiyaya əlavələrin edilməsi və Konstitusiyaya əlavələrin Əsas Qanuna düzəlişlərin bir forması olduğunu nəzərə alaraq Konstitusiyaya düzəlişlər edilməsi anlayışının hüdudlarını müəyyən etmək əhəmiyyətli məsələlərdən biridir. Bir çox ölkələrin hüquq sisteminin öyrənilməsi təsdiqləyir ki, konstitusiyaya düzəlişlər etmək dedikdə, onun məzmununda dəyişikliklər və əlavələr etmək başa düşülür. ABŞ Konstitusiyasının timsalında bunu aydın şəkildə görmək olur. ABŞ Konstitusiyasına düzəlişlər "amendment" termini ilə ifadə olunaraq məzmununda Əsas Qanunun mətnində dəyişikliyin olunması və onun mətnində olmayan məsələ ilə bağlı əlavələrin edilməsini nəzərdə tutur. İzahlı lüğətlərdə "amendment" termini məhz bu məzmunda izah olunur (11; 12).

Rusiya Federasiyası Konstitusiyasının 9-cu bölməsində Konstitusiyada əlavə və dəyişikliklər edilməsi üçün "поправки" anlayışından istifadə olunur. Bu söz dilimizə "əlavə düzəliş, təshih, düzəliş, düzəlmə" kimi tərcümə olunur.

Azərbaycan dilinin izahlı lüğətinə nəzər yetirdikdə "düzəliş" sözünün

1.düzəlmə, düzəlişmə, razılaşma, saziş; 2.düzəltmə (nöqsanları və s. çatışmazlıqları aradan qaldırma), düzəldilmə, təshih etmə, təshih edilmə (1, 735-736) kimi başa düşüldüyünü görmək olur. "Dəyişiklik" sözü başqa şəklə (hala) düşmə, başqalaşma, başqalıq, təbədüllat; yenilik, yeni hal, yeni vəziyyət, dönüş (1, 609) kimi, "əlavə sözü isə 1.əsas şeyin üstünə artırılan; üstəlik; 2.kitaba, ayrı-ayrı fəsillərə, yazıya və s.ə artırılan hissə, bəhs; 3.Xüsusi terminologiyada: artım, törəmə, bir maddənin, məhlulun və s. tərkibinə, üstünə əlavə edilən maddə və s. (2, 95-96) kimi mənalarda işlədilir. "Düzəliş" sözünün məna baxımında nöqsan və çatışmazlıqları aradan qaldırma mənasında həm dəyişiklik, həm də əlavə mahiyyəti özündə birləşdirdiyini qəbul etmək olar.

Milli konstitusiya hüquq ədəbiyyatında Konstitusiyaya əlavə və dəyişiklik anlayışları bir-birindən fərqləndirilir. Prof. Z.Əsgərov bununla bağlı göstərir ki, konstitusiyaya əlavələr Konstitusiyada dəyişikliklərdən fərqli olaraq mövcud normaları saxlamaqla hüquqi tənzimləmənin konstitusiya səviyyəsində dəqiqləşdirilməsidir. Məsələn, əgər Konstitusiyanın 3-cü maddəsindəki yalnız referendumla həll olunmalı məsələləri olduğu kimi saxlamaqla onların sırasına yalnız referendumla dəyişdirilməsi mümkün olan əlavə bir məsələ artırılırsa, onda belə dəyişiklik konstitusiyaya əlavə hesab ediləcəkdir. Dəyişikliklər isə, əksinə, normanın müddəalarının tamamilə yeniləşdirilməsini nəzərdə tutur. Məsələn, 3-cü maddədəki yalnız referendumla dəyişdirilməsi mümkün məsələlər bütövlükdə konstitusiyanın mətnindən çıxarılıb əvəzində tamamilə başqa – yeni məsələlər göstərilərsə, artıq bu, dəyişiklik olacaqdır. Konstitusiyaya dəyişikliklər mövcud normaların nizamasalınmasındakı çətinlikləri aradan qaldırmaq məqsədi güddüyü halda, əlavələr tamam yeni konstitusion normalar müəyyən edir (3, 543-544).

Konstitusiyaya əlavə və dəyişiklik edilməsi anlayışı ilə bağlı diqqəti çəkən məqamlardan biri də, Azərbaycan Respublikasında normativ hüquqi aktlarla bağlı münasibətləri tənzimləyən "Normativ hüquqi aktlar haqqında" 21 dekabr 2010-cu il Konstitusiya qanununda 1.0.23-cü maddəsində normativ hüquqi aktda dəyişikliklərə verilən anlayışdır. Həmin maddəyə görə normativ hüquqi aktlara dəyişiklik edilməsi dedikdə, normativ hüquqi akta onun müddəalarının mətnini dəyişən və ya əlavə normaların daxil edilməsi başa düşülür. Göründüyü kimi, normativ hüquqi aktda dəyişikliklər həm onun mətninin dəyişməsi, həm də onun məzmununa əlavə normaların daxil edilməsi kimi başa düşülür. Beləliklə, fikrimizcə nəzəri baxımdan Konstitusiyaya edilən düzəlişlərin iki formasını - dəyişikliklər və əlavələr formalarını fərqləndirmək olar.

Ölkə Konstitusiyasının müddəalarının öyrənilməsi göstərir ki, onun məzmununda düzəlişlər olunmasının iki forması nəzərdə tutulmuşdur: 1) Konstitusiyaya dəyişikliklərin edilməsi və 2) Konstitusiyaya əlavələrin edilməsi. Düzəlişlərin hər iki forması üçün tənzimləmə mexanizmi nəzərdə tutulmuşdur. Konstitusiyaya düzəlişlər edilməsi səlahiyyəti Azərbaycan xalqına, əlavələr edilməsi səlahiyyəti isə həm də dövlət hakimiyyət səlahiyyəti kimi qanunverici orqan olan Milli Məclisə aid edilir. Lakin Konstitusiyaya Milli Məclis tərə-

findən qəbul edilən konstitusiya qanunu ilə olunan əlavə və xalq tərəfindən referendumla konstitusiyaya edilən əlavənin müqayisəsi zamanı aydın şəkildə görmək olur ki, sonuncusu Konstitusiyanın mətninə daxil edildiyi halda konstitusiya qanunlarındakı əlavələr isə Əsas Qanunun mətninə daxil edilmir. Qanunverici orqanın fəaliyyətinin məhsulu olan konstitusiya qanunlarını xalqın iradəsinin nəticəsi olan Konstitusiyanın mətninə daxil edilməsi həm hüquqi, həm də məntiqi baxımından doğru sayıla bilməz. Qeyd olunanlar konstitusiya qanunun Konstitusiya ilə iyerarxik əlaqəsini təsdiqləməyə imkan verir.

Göstərmək zəruridir ki, konstitusiya qanunları daimi inkişafda olan sosial-iqtisadi və siyasi reallıqları (sosial gerçəklikləri) əks etdirərək təbiətinə görə stabil konstitusiyanın mətnini dəyişmədən onun məzmununu yeniləşdirir, ayrı-ayrı müddəalarını tamamlayır və inkişaf etdirilməsi üsulu qismində çıxış edir. Konstitusiya qanunları Konstitusiyanın tərkib hissəsi olsa da, Konstitusiyanın mətninə əlavə edilmir. Halbuki, əlavələr Konstitusiyanın mətninə daxil edilmiş olsaydı, onun məzmunu dəyişmiş olardı. Konstitusiyanın mətni isə yalnız referendum vasitəsilə dəyişə bilər. Məhz bu səbəbdən də konstitusiya qanunları formal-hüquqi əlamətlərinə (adlandırılması, qəbulu qaydası və s.) görə müstəqilliyə malik olub qanunvericilik sistemində özünəməxsus yer tutur.

Qeyd edək ki, Azərbaycan Respubikası qanunvericilik sistemində konstitusiya qanunlarının yerinin dəqiq müəyyən edilməsi üçün onun həm də referendumla qəbul olunmuş aktlarla nisbəti məsələsinə diqqət ayırmaq lazımdır. Xalq özünün iradəsini bilavasitə referendum vasitəsilə ifadə edir və referendum aktı xalq iradəsinin bilavasitə hüquqi forması kimi meydana çıxır. Məlumdur ki, Azərbaycan Respublikasında referendum yolu ilə qəbul olunmuş aktlar qanunvericilik sistemində Konstitusiyadan sonra ikinci yerdə durur. Bəzi ölkələrdən (məsələn, İsveçrə Konstitusiyasına görə məşvərətçi referendumun göstərişlərinə bütün dövlət ərazisində xüsusi qanunla məcburi hüquqi qüvvə verilir) fərqli olaraq Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddənin II hissəsinə görə referendumla qəbul olunmuş aktlar dərc edildikdən sonra tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir. Buna səbəb onların da konstitusiya kimi bilavasitə xalq tərəfindən qəbul olunmasıdır. Lakin onlar, konstitusiyaya münasibətdə, adətən, konkret məsələləri həll edirlər və burada nizamlanan münasibətlər konstitusion münasibətlər qədər əhəmiyyətli deyil. Yalnız bir halda referendumla qəbul olunmuş aktların hüquqi qüvvəsi konstitusiyanın hüquqi qüvvəsinə bərabər sayılır ki, bu da Konstitusiyanın 3-cü maddəsinə uyğun olaraq, konstitusiyaya edilən dəyişikliklərdir. Referendumda xüsusi əhəmiyyətli məsələlər həll edilir (3, 527-528).

Hüquqi təbiətinə görə konstitusiya qanunu və referendum aktı bir-birindən fərqlənir. Əgər konstitusiya qanunu Milli Məclis tərəfindən xüsusi qaydada qəbul olunaraq Konstitusiyaya əlavələr edir və ya onun ayrı-ayrı normalarını inkişaf etdirib məzmununu tamamlayırsa, referendum aktı xalq tərəfindən həm konkret xüsusi məsələlər, həm də Konstitusiyaya dəyişikliklər

haqqında qəbul edilir.

Konstitusiya qanunu Milli Məclisin qəbul etdiyi, dəyişdirdiyi və ya ləğv etdiyi aktdırsa, referendum aktı xalqın iradəsinin bilavasitəsi ifadəsinin təzahürü kimi çıxış edir. Konstitusiya qanunu Milli Məclis tərəfindən xüsusi qaydada qəbul edilən və özünün hüquqi tənzimləmə predmetinə malik olan aktlardan biridir. Formal baxımdan qanunverici orqan xalqın təmsilçisi olsa da, referendum aktı xalqın iradəsinin bilavasitə özü tərəfindən ifadə vasitəsi olduğu üçün konstitusiya qanunlarının ondan aşağıda durması fikri daha əsaslı sayıla bilər. Unutmaq olmaz ki, konstitusiya qanunu Konstitusiyanın mətnində düzəliş apara bilməz, bu səlahiyyət yalnız xalqa məxsusdur. "Orqanlar iyerarxiyasında" xalqın dövlət hakimiyyətindən yuxarıda olduğunu nəzərə alaraq konstitusiya qanunları qanunvericilik sistemində həm Konstitusiyadan, həm də referendum yolu ilə qəbul olunmuş aktlardan aşağıda yer tutması barədə nəticəni daha doğru saymaq əsaslı olar.

Bütün bunlarla eyni zamanda göstərmək lazımdır ki, konstitusiya qanunları cari qanunların tənzimlədiyi təsir sferasından daha geniş sahələri əhatə edən və kompleks institutlara aid ictimai münasibətləri tənzimləyir. Məhz tənzimlədiyi ictimai münasibətlərin əhəmiyyəti, onların məzmunu, müəyyən etdiyi davranış qaydalarının xüsusiyyətləri konstitusiya qanunlarının cari qanunlara nisbətdə yüksək hüquqi qüvvəyə malik olduğunu iddia etməyə əsas verir. Konstitusiya qanunlarının adi qanunlardan üstün hüquqi qüvvəyə malik olduğunu təsdiqləyən digər əsaslarla yanaşı, dövlətin formal baxımdan bu növ aktın məhz konstitusiya qanunu kimi adlandırılmasıdır ki, bu da onun mahiyyət etibarilə konstitusiyanın müddəalarına, normalarına aid olması ilə əlaqədardır. Fikrimizcə, həm Azərbaycan Respublikası Konstitusiyasının, həm də "Normativ hüquqi aktlar haqqında" 21 dekabr 2010-cu il Konstitusiya qanunun normativ hüquqi aktların hüquqi qüvvəsi ilə bağlı normalarında konstitusiya qanunlarının hüquqi qüvvəsi barədə birbaşa və aydın göstərişin nəzərdə tutulması, xüsusən konstitusiya qanunları ilə referendum aktı və cari qanunlar arasındakı nisbəti münasibətlərinin dəqiq tənzimlənməsi bu növ qanunların sosial dəyərliliyi və səmərəliliyi baxımdan faydalı olardı.

Konstitusiya qanunlarının Azərbaycan Respublikası qanunvericilik sistemində yeri barədə deyilənləri nəzərə alaraq onların iyerarxiyasını aşağıdakı kimi ehtimal etmək olar:

1) Konstitusiya;
2) referendumla qəbul edilmiş aktlar;
3) Konstitusiya qanunları;
4) qanunlar;
5) fərmanlar;
6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;
7) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

**ƏDƏBİYYAT**
1. Azərbaycan dilinin izahlı lüğəti: I cild. Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: II cild. Bakı: Şərq-Qərb, 2006, 792 s.
3. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti, 2011, 760 s.
4. Məlikova M.F. Hüquq nəzəriyəsi. Dərslik. Üçüncü nəşr. Bakı: Elm və təhsil, 2019, 448 s.
5. Siyasi və hüquqi təlimlər tarixi. Dərslik. H.e.d., prof.O.E.Leystin redaktorluğu ilə (tərcümə edən ZeynalovaTəranə Kamil qızı). M.: Zerstalo, 2006, 568 s.
6. Gözler K. "Asli Kurucu İktidar - Tali Kurucu İktidar Ayrımı: TBMM yeni bir Anayasa yapabilir mi?", Ece Göztepe ve Aykut Çelebi (editörler), Yeni Anayasa: demokratik bir Anayasa için öneriler, İstanbul: Metis Yayınları, 2012, s.45-61
7. Gözler K. Hukuka giriş. Ekin kitabevi yayınları, 2014, 496 s.
8. Мишин А.А. Конституционное (государственное) право зарубежных стран. Учебник для вузов. Издание 17-е. М.: Статут, 2013, 520с.
9. Шустров Д.Г. Сущность Конституции: основные теории. Монография. М.: Юрлитинформ, 2017, 600 с.
10. Щеголев И.Б. Место и роль федеральных конституционных законов в системе российского законодательства. Кандидатская диссертация. Краснодар, 2007, 202 с.
11. https://dictionary.cambridge.org/dictionary/english/amendment
12. https://www.lexico.com/en/definition/amendment?fbclid=IwAR2gTT9llDkG4tVO7O6WeAMV4VpSD7epkF_rpUXnsK2NT6HflGhGngl46X0

## МЕСТО КОНСТИТУЦИОННЫХ ЗАКОНОВ В ЗАКОНОДАТЕЛЬНОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**А.Ф.ХАМИДОВА**

**РЕЗЮМЕ**

В статье на основе исследования правовой природы конституционных законов, выявления методом сравнительно-правового анализа специфических особенностей обосновывается авторский подход к определению их места в системе законодательства Азербайджанской Республики. Исходными в данном вопросе стали признаки конституционных законов: юридическая сила, особый процедурный порядок принятия, функции, значение и роль в конституционном развитии страны и др. Нормативно-правовой базой исследования послужили Основной закон Республики, законодательные акты Азербайджана и зарубежных стран.

**Ключевые слова:** конституционный закон, органический закон, конституционные изменения, дополнения к конституции, иерархия законодательных актов

## PLACE OF CONSTITUTIONAL LAWS IN THE LEGISLATIVE SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN

**A.F.HAMIDOVA**

**SUMMARY**

The article substantiates the author's approach to determining their place in the system of legislation of the Republic of Azerbaijan based on the study of the legal nature of constitutional laws and the identification of specific features by the method of comparative legal analysis. The basic features of constitutional laws were the legal force, special procedure for adoption, functions, meaning and role in the constitutional development of the country, etc. The Main law of the Republic, legislative acts of Azerbaijan and foreign countries served as the legal basis for the study.

**Key words:** constitutional law, organic law, constitutional amendments, additions to the constitution, hierarchy of legislative acts

## FƏLSƏFƏ

**UOT 316.334:7**

# ŞƏRQ-QƏRB KONTEKSTİNDƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ VƏ TOLERANTLIQ

**S.H.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***sahiba.aliyeva.@list.ru***

*Məqalədə Şərq-Qərb kontekstində mədəni, ictimai-siyasi mühitin müqayisəli təhlili, bu sahədə görkəmli alim və tədqiqatçıların elmi əsərləri öz əksini tapmışdır. Məqalədə Şərq-Qərb münasibətlərində yaranmış boşluğu görən və bu ayrı-seçkiliyi nisbətən yumşaltmaq məqsədi daşıyan beynəlxalq əməkdaşlıq, eləcə də bu sahədə ev sahibliyi edən Müstəqil Azərbaycan Dövlətinin apardığı məqsədyönlü siyasətin təhlili və təbliği öz əksini tapmışdır.*

*Məqalədə eləcə də Müstəqil Azərbaycan Dövlətinin yeritdiyi siyasətin tərkib hissəsi olan multikulturalizm siyasətinin uğurlu nəticələri şərh olunur. Belə ki, dünya dövlətləri üçün örnəkolacaq bu siyasətin "Azərbaycan modeli" təqdim olunur.Multikulturalizm anlayışının tərkib hisssələri və onun bir siyasət kimi fəaliyyət prosesi təhlil olunur.*

**Açar sözlər:** "Azərbaycançılıq" ideologiyası, multikulturalizm, tolerantlıq, irqçilik, ksenofobiya, izolyasionizm, assimliyasiya, apparteid

Qloballaşma-milli sərvətlərin qeyri-şərtsiz olaraq ümumdünya sisteminə qoşulması prosesidr. Elmi-nəzəri ədəbiyyatda qloballaşma iki dəfə inqilabi xarakter almışdır:

1. XIX əsrin sonu və XX əsrin əvvəllərində. Bu dövr ərzində dünyanın müxtəlif hissələri bu prosesə daxil olmuşdur. Belə ki, ticarətə, iqtisadiyyata investisiya qoyuluşu əhəmiyyətli xarakter daşıyırdı.

2. Bu dövr 70-ci illərin sonlarını əhatə edir. Bu dövr kompüter əsri adlandırılır. Belə ki, əvvəlki illərə nisbətən bu dövrdə kompüterlərin ümumi sayı iki dəfə artdı. 90-cı illərdən başlayaraq informasiyanın həcmi hər il 60 faiz artmağa başladı.

Yuxarıda sadalananlar qloballaşmanın 1-ci mərhələsini təşkil edir. XXI əsr qloballaşmanın ikinci-müasir mərhələsi adlanır. Bu dövrdə vahid qlobal iqtisadiyyatın yaradılmasında Amerika, Avropa İttifaqı və Şərqi-Qərbi Asiya iştirak edir. XXI əsrdə qloballaşma dünyasında nəinki iqtisadiyyatın, eləcə də etnik-psixoloji xüsusiyyətlərin cəmləşdiyi mədəniyyətlərin dialoqu da bu

kontekstə daxildir.

Mədəniyyətlərarası dialoqun əhəmiyyətliyi və özü-özlüyündə qlobal xarakter daşıması kulturoloq alimlərin həmişə diqqətində olmuşdur. Belə ki, Rus alimi S.V.Sokolovun mədəniyyətə və sivilizasiya ilə bağlı sözləri üst-üstə düşür. Mədəniyyət dedikdə: 1) ictimai şüuru; 2) praktik və mənəvi fəaliyyət vərdişlərini; 3) sosial dəyərlər məcmusunu birləşdirir. Beləliklə, cəmiyyət özlüyündə 1) adamları; 2) mədəniyyəti; 3) sosial fəaliyyəti; 4) təbiəti əhatə edir. Burada mədəniyyət dedikdə, insan əli ilə yaradılan ikinci mədəniyyət başa düşülür.

Mədəniyyətlərarası dialoq məsələsinə gəldikdə,sosioloq, Harvard Universiteti Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Samuel Hantinqtonun nəzəriyyəsini xatırlamaq lazımdır. O, özünün 1993-cü ildə çap etdirdiyi «Sivilizasiyaların toqquşması» əsərində gələcək müharibələrin iqtisadi-siyasi və s. sahədəki ziddiyyətlər nəticəsində deyil, mədəniyyətlərin toqquşması nəticəsində yarana biləcəyini əsaslandırmağa çalışır. Müəllif bu fikri ilə axıracan qalır və onu əsaslandırmağa çalışır. Hantinqton öz fikirlərini əsaslandırmaq üçün beş əsas arqument götürür:

1. Əsrlər boyu formalaşan sivilizasion fərqlər bu gün də mövcuddur və gələckdə də aradan götürülməyəcək;

2. Sivilizasion özünüdərkin inkişafı sivilizasiyalar arasında fərqlərin dərinləşməsinə aparır;

3. Fundamentalist hərəkatlar formasında «dinlərin dirçəlişi» yaranacaq;

4. Sivilizasiyaların hər birində «öz kökünə qayıtmaq» istəyi yaranacaq;

5. İqtisadi və siyasi xüsusiyyətlərdən fərqli olaraq mədəniyyət amili dəyişikliyə daha az məruz qalır və mədəniyyətlər arasındakı fərqləri götürmək, birləşdirici kompromis variant tapmaq çox müşkül məsələdir.

S.Hantinqtona görə mədəniyyətlərin toqquşması həm mikrosəviyyədə (qruplararası), həm də makrosəviyyədə (fərqli mədəniyyətlərə mənsub dövlətlər arasında) mümkündür.

S.Hantinqton qeyd edir ki, gələcəkdə 7-8 sivilizasiya arasındakı böyük qarşıdurma olacaq və o da artan xətlə yüksələcək. Bu mədəniyyətlərin arasında gedən və ayrılan xətlərin kəsişməsidir. Bu fərqləri şişirdən və kəskinləşdirən müxtəlif qrup adamlar mövcuddur və onların da müxtəlif maraqları vardır (7, 90).

Müasir dünyanın geosiyasi kontekstindən danışarkən, birinci növbədə, sivilizasiyalar və mədəniyyətlərin qarşılıqlı təsir mexanizminə fikir verməK lazımdır. Çünki millətləri bir araya yığan sivilizasiya və mədəniyyətlər öz aralarında ortaq mövqeyə malikdirlər. Qərb geosiyasətçiləri gələcək dünya inkişafının əsasən iki konsepsiyasından çıxış edirlər. Onlardan biri – neoatlantik konsepsiya (ən görkəmli nümayəndəsi S.P.Hantinqton) gələcək dünya nizamını müxtəlif sivilizasiyalar (əsasən 8 sivilizasiya - Atlantik, Latın Amerikası, slavyan-provaslav, islam, hind, Çin, Yaponiya, və Afrika) arasında mədəni, ideoloji, dini ziddiyyətlərin güclənməsi fonunda təsəvvür edir. Hantinqtonun fikrincə,

dünya dövlətləri və xalqları arasında başverəcək toqquşmalar və dağıntılar məhz bu sivilizasiyalar arasında baş verən gərginlikdən əmələ gələcəkdir. Qərb dünyasının mədəniyyətini özündə əks etdirən nəzəriyyəçi buraya daxil olan dövlətlərin mədəniyyətlərini tənərənnüm etməklə məşğuldur. Belə ki, Qərb sivilizasiyası digər xalqların sivilizasiyalarından köklü şəkildə fərqlənir. Müəllif sivilizasiyalar rəqabətində mədəniyyət faktorunun mühüm rol oynadığını əsas gətirərək "sivilizasiyaların toqquşması" nəzəriyyəsində bu yaxınlaşmanın qeyri-mümkün olduğunu söyləmişdir. Düzdür, sonralar, 1996-cı ildə nəşr etdirdiyi "The clash of civilizations and the remaining of the World" kitabında mədəniyyətlər və sivilizasiyaların qismən də olsa yaxınlaşmağın mümkünlüyünü qeyd etsə də, lakin bu yaxınlaşmağın kulminasiya nöqtəsi kimi ABŞ dövlətini götürürdü. Bu baxışlarda humanizmdən çox, millətçilik və irqçilik xarakteri hiss olunmaqdadır (8). Amerikalı geosiyasətçi Frensis Fukuyamanın təklif etdiyi, "mondializm" adlanan ikinci konsepsiyaya görə gələcək dünyanın inkişafı məhz Qərbdən keçir. Qərbin qələbəsi bütün dünya mədəniyyətlərini və sivilizasiyaları öz ağuşuna alacaqdır. Bütün xalqların, dövlətlərin dünyabaxışlarının eyniləşməsi çox mürəkkəb və ağrılı prosesdir. Ona görə ki, burada ayrı-ayrı dövlət və xalqların mədəniyyəti və mental baxışlar sistemi özünü göstərməkdədir. Onları isə bir araya yığma məsuliyyəti ev sahibinin öz üzərinə düşür. Dünyanın gələcək inkişafı bu sivilizasiyaların münasibətinin təzahürü kimi çıxış edir. Çünki dünya dövlətləri və xalqlarının əmin-amanlıq, sülh şəraitdə yaşamasının müqəddəm şərti məhz sivilizasiyalararası dialoqdan keçir. Bu suallara cavabı yenə də sivilizasiyaların, mədəniyyətlərin qarşılıqlı əlaqəsində, dialoqunda axtarmaq lazımdır. Məsələnin belə qlobal olmasının əsas mahiyyəti isə belədir: Qərb yönümlü mədəniyyət üstündürmü, ilk əvvəl Şərq mədəniyyəti, yoxsa Qərb mədəniyyəti yaranmışdır? Bu gün XXI əsrin astanasında superdövlətlərin münaqişə ocağına çevrilən Şərq dövlətlərinin mədəniyyətlərinin itirilmə qorxusu varmı? Şərq dövləti bu mədəniyyətlərarası dialoqa ev sahibliyi edə bilərmi- kimi suallar geosiyasi məsələnin önünüdə duran suallardır. Mütəxəssislər qeyd edirlər ki, Şərq-Qərb münasibətlərinin universal şəkildə öyrənilməsi istiqamətində çox az iş görülmüşdür. Tədqiqatlar əsasən ayrı-ayrı şəxsiyyətlər üzrə aparılmışdır. Şərq və Qərb sivilizasiyalarının Azərbaycanın tarixi-mədəni inkişafına təsiri, milli mədəniyyətimizin və təfəkkür tərzimizin Şərq və Qərb mədəniyyətləri kontekstində araşdırmaq və onun inkişaf perspektivlərini müəyyənləşdirmək də müasir cəmiyyətimizin əsas vəzifələrindən biridir (5).

Tarixən məlum olduğu kimi, elm və mədəniyyət Şərqdə başlayıb, Qərbdə başa çatmışdır. Qərb özünü mədəniyyətin beşiyi hesab edir. Lakin bu gün Yaponiya, Çin, Hindistan, Cənub-Şərqi Asiya ölkələrinin texnoloji modernləşmədə qazandıqları uğurlar göz qabagındadır. Artıq siyasi, iqtisadi, texnogen, mədəni mühitdə Qərbin hegemonluğuna son qoyulur. Adlarını çəkdiyimiz sferalardakı inkişaf nailiyyətləri bütün regeonlara parçalanır. Bu ayrı-seçkiliyə son qoymaq isə tarix boyu çox ağır, taleyüklü bir məsələdir. Ona görə də bəşəri

böhrandan çıxış yolunu birgə araşdırmaq lazımdır. Müasir dünyada mədəniyyətlərarası münasibətlər ümumbəşəri səylərlə axtarıb tapılmalıdır.

Bu gün dünyada Qərbin diqtə etdiyi bütün sferalarda inkişafın "eqoist-rasionalist" modeli üstünlük təşkil edir. Bu siyasi baxışların altında güclü-gücsüz məsələsi durduğu üçün inkişaf etmiş Qərb dövləti və ondan geri qalmış Şərq dövlətinin aqibəti və münasibəti durmaqdadır. Bu münasibətlər çərçivəsində ayrı-ayrı xalqların taleyi:milli-etnik məsəllələr, milli kimliyin təsdiqi, nəhayət, millətin və dövlətin qalıb-qalmaması məsələsi durur. Bu çətin və məsuliyyətli işin öhdəsindən gəlmək olduqca çətindir. Belə ki, xalqların milli-mədəni xüsusiyyətlərinin qorunub saxlamaq və bir-birinə inteqrasiya etmək kimi yeni inkişaf paradiqması işlənib hazırlanması vacib idi. Bunun üçün isə yenə sivilizasiyaların və mədəniyyətin dialoqu zəruridir. Elə dialoq ki, bütün bəşəriyyətin, müxtəlif sivilizasiyaların, xalqların vətəndaş, mənəvi-etik, humanitar potensialını hərəkətə gətirə bilsin, müxtəlif mədəniyyətlər arasındakı fərqləri aradan qaldırmağa deyil, onlar arasında balansın yaradılmasına, mədəni ənənələrin inteqrasiyasına və bütövlükdə sülhə və əminamanlığa xidmət etsin. Bu prosesdə bir paradoksallıq ondan ibarətdir ki, Qərb texnogen inkişafa üstülük verib dünya hegemonluğunu ələ aldığı halda, Şərq isə öz mənəviyyatına sığınıb milli-mədəni dəyərlərini qorumaqla məşğuldur. Qərb sivilizasiyasının təməlində iqtisadi sistem, Şərq sivilizasiyasının təməlində isə mənəviyyat durur. Digər tərəfdən, Qərb cəmiyyətinin daha mütəşəkkil idarə olunmasının əsasını iqtisadi nailiyyətlər, Şərq düşüncə tərzinin əsasını insanın mənəvi kamilliyi təşkil edir. Qərb sivilizasiya tipinin sosial-mədəni identikliyinin əsasını ictimai münasibətlər tipində insanların yaxşı yaşaması və rifahıdır. Qərb bu yaşam tərzinin əsasını iqtisadiyyatın gücündə görür. Şərq təfəkküründə ənənəçilik çox güclüdür. Hətta bu ənənəçiliyə sadiqlik bəzən mühafizəkarlıqla nəticələnir. Daim yeniliklərlə üzləşən Qərbdə yaxşı yaşamaq uğrunda mübarizə gedir və insanlar demokratiya, insan azadlıqları uğrunda daim mübarizə aparırlar. Qərb siyasi sivilizasiyasının əsası budur. Lakin tarixən mədəniyyətin beşiyi olan Şərqdə bütün yazılı mənbələrdən məlum olur ki, ədalətli cəmiyyət yaratmaq uğrunda mübarizə bu ölkələrin əsas məqsədi olmuşdur. Bu fərqləri nəzərə alaraq Qərb-Şərq qarşıdurmasını bir az azaltmaq və yumşaltmaq nöqteyi-nəzərdən bu tərkibdə olan beynəlxalq dialoqların keçirilməsi olduqca zəruridir.

Şərq-Qərb münasibətlərinə elmi rakusdan baxdıqda, Sovet rejimindəki qadagalara baxmayaraq, bu suallara cavab verən görkəmli şərqşünas alim Aidə İmamquliyeva öz tədqiqatlarında yeni müstəvidə araşdırmış, elmin inkişaf konturlarını genişləndirərək Şərq-Qərb münasibətlərinin xarakterini və perspektivlərini təhlil etmişdir. Alimin tədqiqatlarında təkcə Şərqi öyrənməklə deyil, Şərqin öz üsul dəsti-xəttini araşdırmaqla Qərbin texnogen modelinə yiyələnməklə Şərq-Qərb münasibətlərinin zəruriliyini ortaya çıxarmışdır. Bu sahədə geniş tədqiqat işlərinin böyük tərkib hissəsi kimi şərqşünas alimin fundamental yaradıcılığının elmi-fəlsəfi mahiyyətini dərindən açan akademik Səlahəddin

Xəlilov yazırdı:"Aida xanım öz zəmanəsini qabaqlayaraq Azərbaycan gerçəkliyində Şərq və Qərbin vəhdəti ideyasını ilk dəfə konseptual şəkildə irəli sürmüşdür" (6).

Artıq müasir dövrdə Şərq-Qərb qarşıdurmasının nəzəri əsaslarının praktikada tətbiqinin vaxtı çoxdan çatmışdır.Bu gün XXI əsrin astanasında superdövlətlərin münaqişə ocağına çevrilən Şərq dövlətlərinin mədəniyyətlərinin itirilmə qorxusu varmı? Şərq dövləti bu mədəniyyətlərarası dialoqa ev sahibliyi edə bilərmi - kimi suallar geosiyasi məsələnin önünüdə duran suallardır.

Bütün dünyada yenidən aktuallaşmış bu problemi Azərbaycanda Aida İmanquliyevanın qızı, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bir daha siyasi gündəliyə daxil etmiş, öz məqsədyönlü fəaliyyəti ilə ölkəmizin bu dialoqda təşəbbüskar və aparıcı tərəf kimi çıxış etməsinə nail olmuşdur. Məhz bu fəaliyyətin nəticəsi olaraq Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan olundu.Tarixən Böyük İpək yolu, ticarət məkanı Azərbaycandan keçdiyi üçün bu böyük ərazi Qərblə Şərqi birləşdirən bir məkana çevrilmişdir. Bu əlverişli şərait Azərbaycana imkan vermişdir ki, böyük iqtisadi, mədəni və siyasi nailiyyələrə imza atsın.Məhz bu əlverişli şəraitdən istifadə edən Müstəqil Azərbaycan Dövləti Qərblə Şərqi birləşdirən tarixən İpək yolunun bərpası işinin təməlini Bakıda qoydu. O gündən Azərbaycanın paytaxtı Bakı şəhəri Şərq-Qərb mövzusunda keçirilən beynəlxalq elmi məclislərə ev sahibliyi missiyasını öz üzərinə götürür.

Yuxarıda sadalanan mədəniyyətlərin birgə ünsiyyəti və araşdırılması dözümlük və birgə əməkdaşlıq nəticəsində əldə olunur. Elmi-fəlsəfi ədəbiyyatda məlum olduğu kimi, **Tolerantlıq** — dini dözümlülük deməkdir. Bu onu xatırladır ki, müxtəlif xalqların inanc və əqidələrə hörmət etmək və dözümlü yanaşmaq tələb edir. Tolerantlıq insan hüquqları və vicdanı ilə bağlı olduğu üçün bu incə məsələlərə hörmətlə yanaşmaq tələb olunur. Tolerantlıq deyəndə, insan azadlığı, demokratiya, söz azadlığı və s. kimi milli hisslərin çulğaşdığı bəşəri hisslər durur. Bu terminin altında onun üçün irqçilik, ksenofobiya, dini dözümsüzlük, dini ayrı-seçkilik, terror və ekstremizmin qəbul edilməməsi xarakterikdir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin dediyi kimi:" Tolerantlıq geniş anlayışdır. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir" (1).

Dözümlülük ideyası tarixi çox qədimdir. Bu istilah ilk dəfə XVI- XVII əsrlərdə Avropada meydana gəlmişdir. Din və vicdan ilə bağlı olan bu istilah 1648-ci ildə imzalanmış Vestfal sülhü dini dözümlülüklə bağlı ilk sənəddir. Baxmayaraq ki, bu istilahdan sonra saysız-hesabsız müharibələr olmuşdur.Bu istilah öz yerini tapa bilmədi. Bu fikirlərin tam dolğunluğu yalnız II minilliyin sonunda formalaşmağa başladı.

Dini dözümlülük dedikdə, əzilmiş xalqın dinini, mənəviyyatını məhv etmək deyil, əksinə sülhü qoruyub saxlamaqla qonşu xalqların mədəniyyətinə

və dininə hörmət kimi başa düşülür. Bu ən çox azsaylı xalqların mədəniyyətində təzahür edilir. Həqiqətən də, dinlər arasında dialoqun yaradılması, qarşılıqlı hörmət göstərilməsi müasir cəmiyyətdə demokratik stabilliyin yaradılması üçün çox vacibdir. Bu müqəddəs işin ağırlığını hiss edən ölkə başçısı öz nitq və çıxışlarında xüsusi qeyd edir: "Azərbaycan həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi multikulturalizmi bir missiya kimi öz üzərinə götürmüşdür. Biz hesab edirik ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Multikultiralizmin alternativi yalnız ayrı-seçkilik, irqçilik, ksenofobiya, islamafobiya və antisemitizm ola bilər" (1).

Elmi ədəbiyyatdan məlum olduğu kimi, multikulturalizm cəmiyyətdə təzahür edən çoxnövlü mədəni müxtəlifliyin növlərindən biridir. Bundan başqa, biz multikulturalizmlə əlaqədar olan izolyasionizm (təcrid etmə), assimilyasiya və aparteid kimi digər təzahürləri də qeyd edə bilərik.

*1. İzolyasionizm* siyasətinin məqsədi hər hansı bir ölkəyə gələn xarici miqrantların təxribat törətmək, ixtişaşlara yol vermək, dini ayrı-seçkilik yaratmaq, müxtəlifliyə yol verməyin qarşısını alır. Məsələn, 1901-ci ildə Avstraliyada qəbul olunmuş "İmmiqrasiya haqqında Qanunu" göstərmək olar;

*2. Assimilyasiya* –Bu siyasətin də əsas məqsədi hər hansı bir ölkəyə gələn xarici vətəndaşın müxtəlifliklər yaratmaq haqqında fikirlərinə qarşı çıxır, onları öz mədəniyyətlərində əridir.

*3. Aparteid* – müəyyən qrup adamların assimilyasiyasına mane olmaq məqsədilə onların izolyasionizmə (təcridinə) yönəlmiş siyasətdir.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qarqaşlıq kimi dəyərləri təşkil edir. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir. Multikultural dəyərlərin məzmununu demokratik dəyərlər təşkil edir. Demokratiya multikultural cəmiyyətin təkamülü üçün əlverişli şərait yaradır. Multikultural cəmiyyət ilk dəfə Qərbi Avropanın və Şimali Amerikanın demokratik ölkələrində tolerantlığın, əxlaqi qaydaların yüksək olduğu münbit bir yedə yaranıb inkişaf etmişdir. Məhz dünya tolerantlıq təcrübəsində Amerika, İsveç, Avstraliya və Kanada modelləri mövcuddur.

Qeyd etmək lazımdır ki, "multikulturalizm" termini siyasi leksikona ilk dəfə 1970-ci ildə – Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir. O, anqlo-saksonlarla yeni avstraliyalılar arasındakı nifaqın aradan götürülməsinə çox səy göstərmişdir.1979-cu ildə hökumət Mədəni Müxtəlifliyin Problemləri üzrə Avstraliya İnstitutunu, 1987-ci ildə isə Multikulturalizm Problemləri Komitəsini yaratdı. Bu, Avstraliya dövlətinin dini ayrı-seçkiliklər üzərindəki böyük qələbəsi idi.

Beləliklə, modellərin müqayisəli təhlili nəticəsində bir neçə ümumiləşdirmə aparmaq istərdim:

1) Pozitiv sosial təzahür forması olan multikulturalizm cəmiyyətdə normal mühitin, vətəndaş həmrəyliyinin, birgəyaşayışın əldə edilməsi, etnik ayrı-seçkiliyin aradan qaldırlmasınada yardımçıdır;

2) Multikulturalizm alternativi yoxdur;

3) Multikultural cəmiyyətin tərkibini demokratiya təşkil edir;

4) Dünya tarixi inkişafın gedişində yaranan Amerika, İsveç, Avstraliya və Kanada modellərinə yeni bir tarixi təcrübə multikulturalizmin Azərbaycançılıq modeli əlavə edilir;

5)Multikulturalizm kimi milli zəmində nəzəriyyə kimi formalaşan, beynəlxalq təcrübə kimi siyasətə çevrilən bu bəşəri ideyaları siyasətləşdirən və dəstəkləyən məhz dövlətdir.

Etnik-psixoloji məqamdan yararlanaraq, demək olar ki, dözümlülük hər bir ölkənin vətəndaşları tərəfindən yüksək qiymətləndirilirsə, bu böyük bir təcrübənin humanist nəticəsidir. Lakin əksinə olarsa, bu böyük müvəffəqiyyətsizliyin nəticəsi hesab olunar. Təcrübəyə əsaslanmaqla bu istilahın qəbul edilməsinin doğru olub-olmamağı tam sübuta yetirilir. Bütün bunlar göstərir ki, dözümlü davranış normal, inkişaf edən, vətəndaş cəmiyyətinin mövcud olduğu cəmiyyətlərdə tətbiq olunan bir istilahdır, nailiyyətdir, dözümlülük münasibəti də onun açarıdır. Əslində istər dözümsüzlük, istərsə də dözümlülük tətbiq olunan dövlətin və cəmiyyətin inkişaf səviyyəsinin hansı dərəcədə olduğunu göstərir.1995-ci il noyabrın 16-da keçirilmiş UNESKO Baş Konfransının 28-ci sessiyasında Tolerantlıq prinsiplərinə dair bəyannamə qəbul olundu. Bu bəyannamədə vurğulanır ki, "dözümlülük, ilk növbədə insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir", bununla yanaşı "dözümlülük, insan hüquqlarına dair beynəlxalq hüquq aktlarında müəyyən olunmuş normaları iddia edən, həqiqətin mütləqləşdirilməsindən və ehkamçılıqdan imtina edən bir anlayışdır".

Məhz tolerantlıq və multikultural dəyərlərin qorunub saxlanıldığı Azərbaycan Respublikası tarixin sınanmış təcrübəsinə böyük hörmətlə yanaşmış və özünün Şərq modelini qoymaqla bütün dünyaya ev sahibliyi etmişdir. Bu isə çox çətin və ağır, taleyüklü bir məsələdir. Bu da təbiidir. Belə ki, cəmiyyətimizdə bütün din sahibləri, müxtəlif mədəniyyətlərə sahib insanlar rahat şəkildə yaşayır, onların dininə, mədəniyyətlərinə hörmət edilir və Azərbaycan Respublikasının vətəndaşı kimi azad, fəal inkişaf edib fəaliyyət göstərirlər.

Hamıya məlum olduğu kimi, ölkəmizdə tarixi ənənəyə söykənən və uzun əsrlik tolerantlıq mühiti formalaşıb. Bu öz təsdiqini burada yaşayan xalqların uzun illik yaşam tərzində büruzə verir. Bunun nəticəsidir ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir, müxtəlif sahələrdə çalışır və fəaliyyət göstərirlər. Xalqımız qonaqpərvər, sülhsevər və humanist olduğu üçün respublikamızda yaşayan digər xalqlar özlərini yad, özgələşmiş kimi hesab etmirlər. Başqa xalqların, dinlərin nümayəndələri Azərbaycanı öz vətəni hesab etməsəydi və burada özünü azad, sərbəst hiss etməsəydi, respublikamızın müdafiəsinə qalxmaz, vətənpərvərlik nümunələri göstərməzdilər.

Azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmiş, milli identikliyin qorunub saxlanılmasına xidmət edən multikul-

turalizm Azərbaycanda çox uğurla aparılır. Humanist nəzəriyyəyə söykənən, daha sonralar isə ideologiyaya çevrilən multikulturalizm tolerantlığın təcəssümüdür. Məhz bu siyasət dövlətin aparıcı xətti olması, heç bir demokratik dövlətdən, vətəndaş cəmiyyətindən danışmağa dəyməz. İnteqrativ proses olan multikulturalizm bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən, mədəniyyətlərin və dinlərin toqquşmasına xidmət etməyən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur. Multikulturalizm bir siyasətdir. O, insanlara hörmətlə yanaşır. Dinindən, irqindən asılı olmayaraq onu öz ölkəsinin vətəndaşı kimi haqqlarını qoruyur, bütövlükdə isə beynəlxalq sülhün təminatçısı kimi çıxış edir. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Demokratiyanın təməl daşı olan tolerantlıq və multikulturalizm, eyni zamanda, vicdan azadlığının təmin edilməsi və qanunun aliliyi deməkdir. Qanunun aliliyi isə demokratiyanın əsas göstəricilərindəndir. Çünki multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Multikulturalizm haqqında dialoqların təşkil edib müxtəlif dövlətlərin xalqlarının bir araya yığması isə dünyada ədalətə və sülhə çağırışdır.

Bu gün Azərbaycan tolerant dövlət kimi formalaşmış və bütün dünyaya bir humanist nəzəriyyənin təbliğ edən Azərbaycan modelini tətbiq edir. Müasir Azərbaycanın banisi Ulu öndər Heydər Əliyev hakimiyyəti dövründə multikultural dəyərlər "Azərbaycançılıq" ideologiyasının böyük bir tərkib hissəsinə çevrilmişdi. "Bu dahi şəxsiyyətin uzaqgörənliyi nəticəsində bu milli və bəşəri dəyərlər yeni müstəviyə keçdi və ideologiyanın ayrılmaz qolu oldu. Bu gün Azərbaycan multikulturalizm siyasəti və bu sahədəki uğurları ilə dünyanın bir çox ölkələrinə, o cümlədən tarixən zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunədir. Qətiyyətlə demək olar ki, Azərbaycan multikulturalizmi ölkəmizin siyasi simasının əsas cizgilərindən birinə çevrilib. Azərbaycan multikulturalizminin siyasi banisi məhz bunu istəyirdi" (3).

Hal-hazırda Ulu Öndərin siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün dünya Azərbaycanı tolerantlıq nümunəsinin qarantı kimi tanıyır. Ölkəmizdə mövcud olan yüksək multikultural dəyərlər, tolerantlıq, bütün dünyəvi dinlərin sərbəst şəkildə fəaliyyət göstərməsi Azərbaycanın xarici imicini formalaşdırır və eyni zamanda bir vizit kart rolunu oynayır. Sadalanan bu nailiyyətlər Prezident İlham Əliyevin uğurlu siyasətinin tərkib hissəsi olmaqla, xalqa dinindən, dilindən asılı olmayaraq Azərbaycan vətəndaşına olan hörmətdən irəli gəlir. Məhz bu sahədə dövlət tərəfindən həyata keçirilən çıxışlar, toplantılar, beynəlxalq konfranslar bu siyasətin uğurla həyata keçirilməsinə əsaslanır.

Məlumdur ki, dünyada 5000-ə qədər xalq, millət və etnik qrup yaşayır.

Bu say qədər də mədəniyyət, mentalitet, həyat tərzi vardır. Hamıya, hər kəsə örnək olabiləcək bir nümunə olan Azərbaycan dövlətinin ardıcıl siyasəti məhz tolerantlıq və multikulturalizm sahədə atılan uğulu addımlardır. Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə yaradılmış dövlət müşavirlik institutu, həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu sahənin dövlət siyasətinin tərkib hissəsinin olması da bunu sübut edir. Humanist dövlət kimi dünya birlikləri tərəfindən tanınan Azərbaycan bu siyasətin aparıcı sütunudur. Bu dəyərləri yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanda multikulturalizmlə bağlı fikirləri bunu deməyə əsas verir: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir" (1).

Multikulturalizm siyasəti özlüyündə geniş bir siyasətdir. Multikulturalizmin geniş təbliği Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti ilə bağlı olaraq onun apardığı siyasətin tərkib hissısi kimi diaspora fəaliyyətinin inkişafına yeni mərhələ açdı. Belə ki, Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə həmin ilin martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Ulu öndər Heydər Əliyev tərəfindən qurulan diasporçuluq fəalyyəti davamı olaraq yüksək mütəşəkkillik və ruh yüksəkliyi ilə başa çatan qurultayda Azərbaycan diasporunun fəaliyyət konsepsiyası hazırlanmışdır.

Bu gün Azərbaycan diasporunun dünya təcrübəsindəki diasporçuluq fəaliyyətindən kəskin fərqi bütün dünyaya paylanmış azərbaycanlıları bir araya yığmaq və onları "Azərbaycançılıq" prinsipləri ilə maarifləndirməkdir. Bu fəaliyyət isə ömürlükdür. Nə qədər Azərbaycan var, onun müdrik rəhbərinin ərməgan etdiyi və xalqına əmanət qoyub getdiyi bir konsepsiya- Müstəqil Azərbaycanın dövlət ideologiyası vardır və daim yaşayacaqdır.

Hamıya yaxşı məlumdur ki, qloballaşan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq problemi ilə bağlı 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edildi. 2016-cı ildə Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzaladı. Məhz həmin il, yəni 2016-cı il Bakıda "multikulturalizm ili" qeyd olundu.

"Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc yanaşı yaşama prinsipidir. Multikulturalizmin xarakterik xüsusiyyəti tolerantlıq, dözümlülükdür. Ölkəmiz isə tolerantlığın məkanıdır. "Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir, Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir" deyən

Heydər Əliyevin bu irsini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əiyev uğurla davam etdirir. Belə bir dönəmdə Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib" fikri multikultural dəyərlərə hörmət edən Azərbaycanın dünya dövlətləri üçün bir örnək və nümunəsinin sübutudur. Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə hər zaman öz töhfələrini verən Azərbaycan nəinki regionda, eləcə də bütün dünya üçün örnəkdir.

Sosiallaşan cəmiyyətdə ölkəmizdəki mövcud multikurturalizmin hamı üçün örnək olabiləcəyini xüsusi qeyd edən, qiymətləndirən Moskva və bütün Rusiyanın patriaxı II Aleksi hələ 2001-ci ildə Bakıda Heydər Əliyevə müqəddəs Moskva Knyazı Daniel ordenini təqdim edərkən demişdi: “Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir” (2). Roma Papası mərhum II İohann Pavelin xristianlığın katolik məzhəbinə etiqad edən ölkələrin israrlı dəvətlərinə rəğmən, məhz əhalisinin cəmi 0,5 faizini katoliklərin təşkil etdiyi Azərbaycana səfər etməsi isə azsaylı millət və onların etiqad etdiyi dinlərə də xoş münasibətin dönməzliyindən xəbər verir. İlk islam ölkəsi kimi Azərbaycanın Vatikanda təmsil edilməsi məhz Azərbaycanın böyük beynəlxalq nüfuzunu artırır, multikultural dəyərlərə qiymət verən Azərbaycanı dünya birliklərinə tanıdır. İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman isə Bakının İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar deyib: “İSESCO bütün dünyaya çatdırmalıdır ki, siz necə də qədim və zəngin mədəniyyətə sahibsiniz. Ölkənizlə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır” (4). Bütün du deyilənlər Azərbaycan Respublikası və onun dövlət başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsi kimi qiymətləndirilən və dəyərləndirilən fikirlərdir.

Azərbaycanın qazandığı uğurlar, dünya tolerantlıq təcrübəsinin yeni mərhələsinin Azərbaycan modeli İlham Əliyev tərəfinən BMT kürsüsündən elan edilib. Bu modelin onun əksər xarici ölkə başçıları, din xadimləri, siyasətçiləri, alimləri tərəfindən qəbul edilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırıb. Dini-etnik faciələrlə, irqi ayrı-seçiliklərlə, özünün şovinist baxışları ilə seçilən Qərb mütəxəssisləri etiraf edirlər ki, dünyada tolerantlıq yoxdur, bu sadəcə olaraq bir fərziyyədir. Lakin Azərbaycan Respublikasının Prezidentinin çıxışları və bir real təcrübə olaraq hamının Azərbaycana dəvət etməsi 2012-ci il Londonda “Avropa multikurturalizminin perspektivləri: dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli” mövzusunda keçirilən beynəlxalq konfransda çıxışları, Azərbaycan modeli haqqında səslənən fikirləri bir daha təsdiq edir və hamını heyrətləndirir. İndi dünya birlikləri Azərbaycanı Qərblə Şərqin qovuşuğunda yerləşən, sivilizasiyalararası münasibətlərin formalaşmasında böyük rola malik ölkə adlandırırlar.

Bu gün Dövlət başçısının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan özünün multikurturalizm modelini dünyaya təqdim edir. 2014-cü il fevral ayı-

nın 28-də yeni təsisat – Azərbaycan Respublikasının millətlərarası, multikurturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin təsis olunmuş, Prezident İlham Əliyevin fərmanı ilə 2014-cü il may ayının 15-də isə hələlik dünyada yeganə olan Bakı Beynəlxalq Multikurturalizm Mərkəzi yaradılmışdır. Bu istiqamətdə Azərbaycan ölkədə multikurturalizm mühitinin qorunması məqsədilə bir sıra nüfuzlu beynəlxalq qurumlarla – BMT, ATƏT, İƏT və Avropa ittifaqı ilə əməkdaşlığı daha da genişləndirməkdədir.

Bir məsələni də xatırlatmaq yerinə düşər. 2008-ci ilin dekabr ayında dünyanın 48 ölkəsinin, o cümlədən 10 islam dövlətinin, 8 beynəlxalq təşkilatın, bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdiyi Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Azərbaycan tərəfinin təşəbbüsü ilə ilk dəfə olaraq, "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyənnaməsi" qəbul edilmiş, sivilizasiyalar arasında dialoqun əldə oliunması və inkişafına yönəldilən "Bakı prosesi"nin təməli qoyulmuşdur. 2015-ci il yanvar ayının 30-da isə Nyu-Yorkda–BMT mənzil-qərargahında "Bakı prosesi" və 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimat mərasimi keçirilmişdir. "Tarixi hadisə" adlandırılan həmin mərasimdə "Bakı prosesi"nin və forumun mühüm missiyası – dünyada sülh və əməkdaşlığın qorunması, qarşılıqlı faydalı dialoqun yaradılması prinsiplərinə xidmət edəcək Azərbaycanın bu sahədə ev sahibliyi etməsidir. Multikulturalizm siyasətinin uğurla həyata keçirildiyini görən cənab Prezident çıxışların birində bunları söyləmişdir: "Bəzi ölkələrdə, ümumiyyətlə, yüksək səviyyədə bəyan edirlər ki, multikulturalizm siyasəti fiaskoya uğrayıb. Bu, çox təhlükəli meyildir. Düşünürəm ki, Azərbaycanın nümunəsi bunun tam əksini göstərir. Onu göstərir ki, öz mədəniyyətinə, tarixinə bağlı olmaqla bərabər, eyni zamanda, başqa xalqların və dinlərin nümayəndələrinin mədəniyyətinə də hörmətlə yanaşmaq olar. Təsadüfi deyil ki, Bakı bu sahədə beynəlxalq əməkdaşlığın özünəməxsus mərkəzinə çevrilib. Bu yaxınlarda bizdə Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb, müxtəlif tədbirlər, beynəlxalq forumlar keçirilir. Əlbəttə, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə kimi belə bir nümunə göstərir ki, sosial sifariş və dövlətin düzgün siyasəti olanda bütün bu məsələləri bacarıqla həll etmək mümkündür" (1).

Bu gün multikulturalizm siyasəti xalqımızın gündəlik rastlaşdığı həyat tərzidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin xalqımızın həyat tərzinə çevrilməsini haqlı olaraq mühüm üstünlük hesab edir: "Azərbaycanda hökm sürən ab-hava, dinlərarası, millətlərarası münasibətlər, multikulturalizm dəyərləri - bunlar bizim üçün həyat tərzidir. Ancaq əgər biz bəzi başqa ölkələrə nəzər yetirsək görərik ki, bu, heç də hər yerdə belə deyil. Əksinə, milli, dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir, məzhəb zəminində qan tökülür."Azərbaycan ərazisindəki sabitliyin təzahürü kimi xarici ölkə vətəndaşlarının Azərbaycana gəlməsi bu ölkə haqqında böyük təəssüratlar yaratdı. Belə ki, 2016-cı ilin 30 oktyabr-04 noyabr tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikul-

turalizminə səyahət" layihəsi çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ-ın Kaliforniya ştatında yerləşən Sinay məbədinin üzvlərindən ibarət 50 nəfərlik heyətin rəhbəri ravvin David Volpe Amerikada çıxan "Time" jurnalında dərc etdirdiyi "Azərbaycan Yaxın Şərqdə tolerantlıq vadisidir" adlı məqaləsində Azərbaycandakı multikulturalizm və tolerantlıq mühiti haqqında bunları yazır: "Bir həftə öncə Qüds şəhərində bir İsrail diplomatı bizimlə görüşdə bu sözləri demişdi ki, mən İsveçdə başımda kipa ilə gəzməyə ehtiyat edirəm, amma Azərbaycanda yox. Azərbaycanda heç kəs buna görə sənə problem yaratmayacaqdır. Mən bunu təsdiq edə bilərəm. Bakı küçələrində bir həftəyə yaxın kipa ilə gəzdim, nəzakət və mehribanlıqdan başqa bir qarşılıq görmədim. Bu, dünyada çox az rast gəlinən qeyri-adi bir nailiyyətdir. Azərbaycan başqa dini ənənələrin intişarını ehtiva edən iftixarlı və qədim tarixə malik bir ölkədir". Yael Lerman Mazar adlı başqa bir əcnəbi qonağımız isə "The Jerusalem Post" qəzetində dərc olunan "Azərbaycan İsrailə olan ümidimi necə bərpa etdi?" adlı məqaləsində aşağıdakıları qeyd edir: "Azərbaycana, ayaq basana qədər qədim tarixə malik olan bu xalq və bu gənc dövlət barədə heç nə bilmirdik. Bir həftə sonra isə biz Azərbaycanı, bu məğrur ölkəni, onun səxavətli hökumətini və gözəl insanlarını böyük məhəbbət hissi ilə tərk etdik. Azərbaycana gəldikdən sonra dünyanın başqa heç bir yerində rastlaşmadığımız çoxlu faktların şahidi olduq. Birincisi, Azərbaycan müsəlman və demokratik ölkədir. İkincisi, Azərbaycanda heç vaxt talanlar törədilməyib. Burada antisemitizm sadəcə olaraq mövcud deyil. Dini icmaların rəhbərləri insanları zorakılığa çağırmır. Yerli əhali ölkədəki plüralizm və mövcud etnik müxtəlifliklə fəxr edir".

Beləliklə, yüksək mənəvi dəyərlər nümayiş etdirən Azərbaycan Dövləti hamıya örnək ola bilən multikultural dəyərləri nümayiş etdirir.

Qloballaşma şəraitində multikulturalizmin aktuallığı müasir dövrdə mili-etnik zəmində baş verən qarşıdurma proseslərində çox vacib və əhəmiyyətli bir işdir. Bu işin əhəmiyyətliyi onun siyasiləşdirilməsi və hüquqi müstəvidə dəyərləndirilməsini tələb edir. Milli-etnik müstəvidə baş verən məsələlər, milli identiklik, xalqların öz hüquq və müqəddəratlarının qorunması, vətəndaş cəmiyyətinin yaranması və qarşıda duran məsələlər və ümumilikdə götürdükdə bir dövlətətin tərkibində azad və suveren yaşamaq məsələləri çox ağır və məsuliyyətli bir işdir. Bu məsuliyyəti dərk edən və Ulu Öndər Heydər Əliyevin "Azərbaycançılıq" konsepsiyasının bir tərkib hissəsi olan azsaylı xalqların azad yaşamaq haqqındakı hüquqlarının müdafiəçisi olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya siyasətinə, eləcə də mədəniyyətinə bir töhfə vermiş "Mədəniyyətlər arası dialoq" beynəlxalq forumlarının vaxtında keçirilməsinin mümkünlüyünü qeyd edirdi. Çünki real şərait bunu tələb edir. Bir tərəfdən yeni müstəqil dövlətin daxilindəki sabitliyi qoruyub saxlamaq, eləcə də Qafqazda, gərgin geosiyasi regeonda nüfuz sahibi olmaq, 20% torpaqları işğal olunan Azərbaycanın haqq səsini və eləcə də bu ölkədə gedən quruculuq işlərini dünyaya bir nümunə kimi göstərməyin vaxtı çatmışdır. Bu nöqteyi-nəzərdən Azərbaycan bu sahədə ev sahibliyi kimi ağır, çətin, məsuliy-

yətli, lakin şərəfli işi öz öhdəsinə götürmüşdür. Böyük mədəniyyət nümunəsini nümayiş etdirən Azərbaycan Dövləti özünün bu vaxtadək keçirilən VI Beynəlxalq Mədəniyyətlərarası dialoqlarında, eləcə də İkinci Bakı Beynəlxalq Humanitar Forumunda Azərbaycanın Birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyeva məhz qlobal səviyyədə dialoq kimi başa düşülən, müasir dünyada zəruriliyi kəskin duyulan qlobal etikanın əhəmiyyətini vurğulamışdır. "Qlobal etika" anlayışının müasir dövr üçün çox böyük əhəmiyyəti vardır.”Qlobal etika” deyəndə bu toplantıya yığılan müxtəlif cəmiyyətlərin aktiv üzvlərinin, eləcə də elm və mədəniyyət xadimlərinin bir araya yıgılması üçün mədəni mühitin, dialoqa girməsi üçün yaranacaq etik norma və şəraitin qorunub saxlanacağı məkan nəzərdə tutulur.

Hamıya məlumdur ki, Azərbaycanda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərin həm də ölkədə mədəni mühitin formalaşdıran böyük məkandır.Bu tədbirlərin əhəmiyyətini düzgün qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2013-cü ilin oktyabr ayında Bakı Beynəlxalq Humanitar Forumunun açılışında demişdir ki, əgər biz, dünyada sivilizasiyaların əməkdaşlığını, dialoqunu gücləndirmək istəyiriksə, onda biz bütün imkanlardan istifadə etməliyik. “Bütün imkanlar” dedikdə, bu ifadə alimlərin, ictimai elm nümayəndələrinin və əlbəttə, filosofların səylərini ehtiva etməsini nəzərdə tutur. Əlbəttə, təşəbbüskarı Azərbaycan Respublikasının Prezidentinin özünün olduğu Forum yalnız müxtəlif mədəniyyət və elm sahələrin nümayəndələrinin arasında deyil, həm də alimlər arasında dialoq üçün məkan yaradır.

Onu da vurğulamaq vacibdir ki, Bakı Beynəlxalq Humanitar Forumunun "Multikulturalizm" bölməsində “Azərbaycançılıq” ideologiyasının və onun böyük bir tərkib hissəsi olan multikulturalizm siyasətinin təbliğində “Fəlsəfə” bölməsinə geniş yer verməsi və belə yüksək diqqət yetirilməsi ənənəvi olmuşdur və əvvəlki forumların hər birində müzakirəyə çıxarılan məsələlər, tanınmış filosofların iştirakı və onların bu məsələləri digər ictimai fənlərin nümayəndələri ilə birlikdə müzakirə obyekti etmişdilər. Filosoflar metodologiyanın əhəmiyyətini xüsusi vurğulaşmış, ictimai təcrübə sahəsində nələrin tədqiq edilməli olduğunu adekvat izah edə bilməyəndə, metodologiyanın axtarışları ilə sosioloq, hüquqşünas, mədəniyyətşünas və başqalarını cəlb etməyə məcburdular. Bu geniş əlaqələr prizmasında elm adamlarının geniş müzakirəsi və dialoqa girmək mədəniyyəti üzə çıxır.

Məlumdur ki, multikulturalizm mövzusunun geniş izahı böyük təcrübənin davamı kimi qəbul olunmalıdır. Belə ki, bu yanaşma uğurlu dünya multikultural dəyərlərin nəticələrinə baxmağı məcbur edir. Eləcə də “Multikulturalizmin Azərbaycan variant” dedikdə, bu ərazidə yaşayan azsaylı xalqların etnik mənsubiyyəti, adət-ənənələri, milli xüsusiyyətləri nəzərə alınmalıdır. Əslində, mədəniyyətlərin dialoqu fəlsəfənin multikulturalizm dünyasına "giriş"idir. Məlumdur ki, fəlsəfə həmişə dünyagörüşü forması olmaqla özündə humanist ideyaları əks etdirməklə öz əxlaqi-dəyişdirici funksiyası ilə sıx bağlıdır. Məhz fəlsəfənin tərkib hissəsi olan mədəniyyət də bu xeyirxahlıq missiyasını yerinə yetirir.

Məkan və zaman kateqoriyalarını nəzərə almaqla multikultural dəyərlərin keyfiyət göstəricilərinə diqqət yetirmək, mədəniyyətin metafizik əsasları haqqında düşünmək lazımdır.

Yuxarıda deyilənlərdən bir daha aydın olur ki, dövlətçilik ənənlərinin mövcud olduğu, vətəndaş cəmiyyətinin inkişaf etdiyi bir ölkədə - Müstəqil Azərbaycan Dövlətində, multikulturalizm nəzəriyyəsi və siyasətinin lazım olduğu bir şəraitdə Bakı Beynəlxalq Humanitar Forumu, onun "Multikulturalizm" bölməsi, "Mədəniyyətlərin Dialoqu" Forumu olduqca yüksək əhəmiyyət kəsb edir. Belə ki, böyük Dövlətçilik ənənələrinə və təcrübəsinə əsaslanan bu nəzəriyyənin nəzəri şərhə çox böyük ehtiyacı vardır. Bu missiyanı isə biz filosoflar tədqiq etməli, araşdırdığımız elmi-tədqiqat işlərimizin aparıcı istiqamətlərindən birinə çevirməliyik.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il mayın 18-də Bakıda keçirilən II Ümumdünya Mədəniyyətərarası dialoq Forumun açılışındakı nitqi.
2. Heydər Əliyevin çıxışı.“Dinin ən birinci məqsədi insanlar arasında sülh yaratmaqdır.” Respublika-news.az.2001.
3. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası: 2014. IV Bakı Beynəlxalq Humanitar Forumu ərəfəsində. Red. Kamal Abdullayev. B.: Mütərcim, 2015, 74 s.
4. Əbdüləziz bin Osmanın BDU-da çıxışı. B., 22 dek. Göyçək Mahmudlu, Azərtac.
5. Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009, 258 s.
6. Xəlilov S. Şərq ruhunun Qərb həyatı. Aida İmanquliyeva yaradıcılıq axtarışlarının izi ilə. Bakı: Şərq-Qərb, 2009.
7. С.Нанхингтон. Столкновение цивилизаций. М.: АСТ, 2003, с.90.
8. Samuel P. Hanqtinqton. The Clash of Civilizations and the RemarkinqWorld Order. Semon and Schuster. N. K., 1996, 367 p.


## МЕЖКУЛЬТУРНЫЙ ДИАЛОГ И ТОЛЕРАНТНОСТЬ В КОНТЕКСТЕ ВОСТОК-ЗАПАД


**С.Г.АЛИЕВА**


### РЕЗЮМЕ


Статья посвящена сравнительному анализу культурной и социально-политической среды в контексте Восток-Запад и анализу научных работ выдающихся ученых и исследователей в данной области, а также международному сотрудничеству, которое усматривается разрыв в отношениях Восток-Запад и относительно смягчает эту дискриминацию. В статье также характеризируются успешные результаты политики мультикультурализма, проводимой суверенным азербайджанским государством. Таким образом, в статье представлена азербайджанская модель, которая будет служить примером для государств мира, проанализированы компоненты концепции мультикультурализма и процесса его действия как политики.



**Ключевые слова:** идеология "азербайджанства", мультикультурализм, толерантность, расизм, ксенофобия, изоляционизм, ассимиляция, апартеид

## INTERCULTURAL DIALOGUE AND TOLERANCE IN THE EAST-WEST CONTEXT

**S.H.ALİYEVA**

**SUMMARY**

Paper reflects the internationall cooperation, which sees the gap in East-West relations and aims to alleviate this discrimination as well as the analysis and promotion of the purposeful polley pursued by the Independent Azerbaijan State, which hosts this area .The paper also demonstrates the successful results of the multiculturalism policy, which is part of the policy carried out by the independent Azerbaijan State. Thus, the "Azerbaijan model" of this policy are implementinq which will be an example for the world states The components of the concept of multiculturalism and its process as a policy are analyzed

**Key words:** "Azerbaijanism" ideology, multiculturalism, tolerance, racism, xenophobia, isolationism, assimilation, apartheid

## SOSİOLOGİYA VƏ PSİXOLOGİYA

UOT 316.42

# ŞƏXSİYYƏTİN PEŞƏ MÜQƏDDƏRATININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİNƏ AİLƏNİN TƏSİRİ

**S.S.HAŞIMOVA**
***Bakı Dövlət Universiteti***
***hashimova_sudaba@rambler.ru***

*Məqalədə göstərilir ki, şəxsiyyətin peşə müqəddəratına təsir göstərən əsas və birinci obyektiv amil ailədir. Ailəni şəxsiyyətin və xüsusən də uşaq və gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə ümumən çox güclü təsir göstərən sistem kimi müəyyənləşdirmək olar. Peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin peşə sosiallaşmasının hissəsi kimi - ailədə başlayır. Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir.*

**Açar sözlər:** ailə, şəxsiyyət, gənclər, peşə müqəddəratı, peşə sosiallaşması, peşə oriyentasiyası, peşə rolları, peşə seçimi, əmək fəaliyyəti, əmək növləri.

Peşə müqəddəratının sosioloji cəhətdən başa düşülməsi sosial qrupun cəmiyyətin sosial və peşə strukturlarında öz yerini müəyyənləşdirməsi prosesini, sosial və peşə potensialını reallaşdırması strategiyasının seçimini nəzərdə tutur. Peşə müqəddəratını müəyyənləşdirmə əmək subyektinin peşə təşəkkülü və inkişafının əsas amili olan şəxsiyyətin peşə aktivliyinin xüsusi forması kimi çıxış edir [2]. Peşə müqəddəratını müəyyənləşdirmə professionallaşmanın müxtəlif mərhələlərində aktivləşə bilər ki, bu da bir sıra obyektiv və subyektiv amillərlə bağlıdır. Peşə müqəddəratını müəyyənləşdirmənin aktivləşdirilməsinin nəticəsi kimi müxtəlif peşə fəaliyyəti formalarının reallaşdırılması və müxtəlif tip peşə məqsədlərinin formalaşması çıxış edir [8, 3-5].

Peşə müqəddəratını müəyyənləşdirmə insanın bütün həyatı boyu davam edir. Belə ki, insan öz peşə varlığını daim yenidən mənalandırır və nəhayətdə özünün seçdiyi peşədə qalmağa qərar verir. Peşə müqəddəratını müəyyənləşdirmə insanın bütün həyatına əsaslı şəkildə təsir göstərir ki, bu da özünü istər peşə inkişafında, ailə qurmaq perspektivində, istərsə də maddi, psixoloji durumda, özünüdəyərləndirmədə - bir sözlə, insanın bütün həyat tərzində göstərir.

Müasir peşə müqəddəratını müəyyənləşdirmə prosesi dövri xarakter daşıdığından insan öz həyatı boyu peşə seçimi, adaptasiyası mərhələlərinə təkrarən qayıda bilər. Buradan da peşə müqəddəratını müəyyənləşdirmənin iki

qrupunu - ilkin və təkrar peşə müqəddəratını müəyyənləşdirməni fərqləndirmək mümkündür [2, 12].

Fərdi-şəxsi xüsusiyyətlər, müəyyən bir sosial qrupa mənsubiyyət, eləcə də gender fərqləri öz müqəddəratını müəyyənləşdirmənin müddətinə təsir göstərən amillərdir. Hər bir fərdin sosial böyümə müddəti fərqli olduğundan, müxtəlif şəxslərin peşə müqəddəratını müəyyənləşdirməsi müxtəlif yaşlarda baş verə bilər [4, 52]. Peşə müqəddəratını müəyyən etmədə fərq eyni zamanda müxtəlif sosial təbəqələrdən çıxmış insanlar və ya onların cinsi mənsubiyyətindən asılı olaraq (məsələn, bütün ömrü boyu evdar qadın olmuş bir şəxs ərindən boşandıqdan sonra peşə müqəddəratını yenidən müəyyənləşdirməli olur) yarana bilər [4, 52].

Şəxsiyyətin peşə müqəddəratına təsir göstərən amilləri iki qrupa bölmək olar: subyektiv və obyektiv. Subyektiv amillərə - fərdi-şəxsi keyfiyyətlər bacarıqlar, qabiliyyətlər, temperament və xarakterin xüsusiyyətləri, intellektin səviyyəsi, sağlamlıq vəziyyəti; hazırlıq səviyyəsi; ictimaiyyət tərəfindən tanınmağa iddialı olma; peşə fəaliyyəti haqqında məlumatlılıq; yaş və peşə böhranları; optantın şəxsi peşə planı aiddir. Obyektiv amillərə isə - ailə (məsələn, valideynlərin təhsil səviyyəsi və valideynlərin uşaqlarının peşə seçiminə dair mövqeyi); cəmiyyətin müəyyən bir sosial təbəqə və qrupuna mənsubiyyət, eləcə də gender fərqləri [5, 57]; kollektivdə şəxslərarası münasibətlər, həmçinin müəssisənin özündə vəziyyət, təhsil sistemi müəssisələri; Kütləvi İnformasiya Vasitələri; hökumətin iqtisadi və siyasi qərarları, ölkədəki sosial-iqtisadi şərait; dövlət hakimiyyət orqanları, əmək bazarı aiddir.

Şəxsiyyətin peşə müqəddəratının müəyyənləşdirilməsinə, həmçinin sosial qruplar və sosial institutlar kimi strukturlar təsir göstərir. Onların təsiri mikro və makrosəviyyələrdə baş verir. Ailə, həmyaşıdlar, peşə daşıyıcıları və s. kimi sosial qruplar peşə müqəddəratının müəyyənləşdirilməsinə mikrosəviyyədə təsir göstərirlər. Sosial qruplar, həmçinin sosial institutların təsirinin ötürücüsü kimi çıxış edirlər. Makrosəviyyədə peşə müqəddəratının müəyyənləşdirilməsi təhsil, peşə və əmək bazarı kimi sosial institutların qarşılıqlı təsirilə nizamlanırlar [2, 13-14].

Şəxsiyyətin peşə müqəddəratının müəyyənləşdirilməsinə, təsir göstərən əsas və birinci amil olan - ailənin peşə müqəddəratının müəyyənləşməsində rolunu ardıcıl şəkildə nəzərdən keçirək. Ailəni şəxsiyyətin və xüsusən də uşaq və gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə ümumən çox güclü təsir göstərən sistem kimi müəyyənləşdirmək olar [6, 34]. Bu iki cür – bilavasitə, valideynlərin və ya onları əvəz edən şəxslərin tələblərinin birbaşa təsiri formasında və bilvasitə, uşaqların ideallarının, meyllərinin, dəyərlər oriyentasiyasının müəyyənləşdirilməsi formasında baş verir.

Peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin peşə sosiallaşmasının hissəsi kimi - ailə, məktəb, dostlar, peşə məktəbləri, kütləvi informasiya vasitələri, əhalinin məşğulluq xidmətləri və müəssisələr kimi sosiallaşma institutlarından ibarət olan müəyyən sosial mühitdə baş verir. Ailə birinci peşə

sosiallaşması institutu kimi şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir edir [1, 4].

Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir. Bununla yanaşı cəmiyyətdə baş verən sürətli dəyişikliklər cəmiyyətin sosial və peşə strukturunun dərin transformasiyasının nəticəsi kimi, həyat və peşə yoluna ənənəvi baxışlarda əsaslı dəyişikliklər fərd tərəfindən dəyərlərin və əmək fəaliyyəti normalarının tez bir şəkildə dərk olunması zərurətini ortalığa qoyur [1].

Ailədə peşə müqəddəratının müəyyənləşdirilməsi məsələsi, bir qayda olaraq, uşaqların yeniyetmə dövründə ciddi müzakirələr predmetinə çevrilir, baxmayaraq ki, bəzi hallarda valideynlər bu problemə öz uşaqlarının daha kiçik yaşlarında müraciət edə bilirlər [6, 34].

Peşə müqəddəratının müəyyənləşdirilməsi problemi çərçivəsində ailənin böyük və kiçik üzvləri arasında qarşılıqlı münasibətlərin mümkün müxtəlifliyinə dair bir sıra misallara nəzər salaq:

1. Böyüklər (valideynlər) məktəblinin qərarına hörmətlə yanaşmaqla ona seçim azadlığı verir.
2. Böyüklər (valideynlər) uşağın gələcəyi məsələsinə olduqca həssas yanaşırlar.
3. Böyüklər (valideynlər) məktəblinin seçimindən narazıdırlar.
4. Böyüklər (valideynlər) məktəbliyə bu və ya digər dərəcədə təhrif olunmuş istiqamət verirlər.

Qeyd edək ki, valideynlərin mövqelərinə dair yuxarıda təsvir olunmuş variantlardan heç biri onların uşaqları tərəfindən düzgün peşə seçimi edilməsinə gətirib çıxarmır.

Əldə olan müsbət təcrübəyə arxalanaraq, arzu olunan qismində sintez əsasında aşağıdakı, beşinci variantı təklif etmək olar:

5. Böyüklər (valideynlər) uşaqlar üçün həyati və peşə cəhətdən düzgün, mənəvi cəhətdən əsaslandırılmış cavablarının sərbəst və fəal şəkildə axtarılması üçün şərait yaradır. Bu variant həyatda az-az hallarda baş verdiyindən, onu idealizə olunmuş hesab etmək olar. Onun reallaşdırılmasına yalnız "ailə-məktəb-peşə təhsili-əmək sferası" sistemində nail olmaq mümkündür [6, 35-36].

İnsanın peşə müqəddəratını müəyyənləşdirməsi uşağın oyun vaxtı müxtəlif peşə rollarını və davranış nümunələrini görüb götürdüyü erkən uşaqlıq dövründən başlayır və insanın bütün sonrakı həyatına təsir edəcək məsuliyyətli qərarın qəbul edilməsinin zəruri olduğu yetkinlik dövründə intensiv davam edir [3, 3-7].

Potensial əmək subyekti nöqteyi-nəzərindən uşağın şəxsiyyətinin məktəbəqədər və məktəb yaşında inkişafı ilk növbədə böyüklərin məsuliyyət daşıdığı onun ünsiyyət dairəsindən, şəxslərarası münasibətlərdən birbaşa asılıdır. Əgər böyüklər məktəb yaşına çatmamış uşağı onun üçün mümkün olan əmək növlərində iştiraka təşviq edirlərsə (məsələn, evdə, bağda iş və s.), onda əmək əlamətləri ilə fəaliyyət artıq məktəbəqədər dövrdə mümkündür.

Böyüklər, həmçinin uşağın ümumi işlərdə iştirakını elə təşkil edə bilər ki, əmək fəaliyyəti bu hadisələrin mühüm aspektinə çevrilmiş olsun. Bu halda məktəblilərdə və ya yuxarı sinif şagirdlərində böyüklərin müxtəlif əmək növlərinə dair nizama salınmış və çoxplanlı təsəvvür formalaşa bilər. Peşə seçiminin hər bir şəxs tərəfindən fərdi şəkildə həyata keçirilməsinə baxmayaraq, o, ümumi struktura malikdir. Belə ki, məsələn, Y.A.Klimov yeniyetmənin peşə müqəddəratını müəyyənləşdirməsində bir neçə tip situasiya fərqləndirir. Bura aşağıdakı hallar daxildir: a) ailənin yaşlı üzvlərinin mövqeyi, b) həmyaşıdların, yoldaşların və "əhəmiyyətli başqalarının" mövqeləri, c) tərbiyəçilərin, müəllimlərin, sinif rəhbərlərinin və b. mövqeyi, ç) şagirdin, optantın hazırkı vaxt üçün formalaşmış şəxsi peşə planları [6, 231].

Şəxsiyyətin müqəddəratının müəyyənləşdirilməsinin mühüm aspektini, həmçinin başqa birisinin deyil, fərdin özünün peşə seçimi haqqında qərar qəbul etməsinin dəqiq dərk olunması təşkil edir. Bu amilin olmadığı təqdirdə peşə müqəddəratının müəyyənləşdirilməsi haqqında danışmağa da dəyməz [6, 27-28, 7]. Peşə seçimi, eləcə də rasional (məqsədli) və ya emosional (simpatiyaya görə) əsasda həyata keçirilə bilər. Burada ən əsası optantın öz seçimindən razılığı, öz seçimini dərk etməsidir.

Beləliklə, şəxsiyyətin peşə müqəddəratına təsir göstərən birinci və əsas obyektiv amil ailədir. Öz sosiallaşdırma funksiyası ilə ailə böyüməkdə olan nəslə məxsusi normaları, dəyərləri və davranış münasibətləri olan istehsal, iqtisadi və siyasi münasibətlərə daxil olmağa yardım göstərir. Bu gün ölkəmizdə savadlı, məsuliyyətli, peşə cəhətdən yüksək dərəcədə mobil, özlərini dəyişmiş sosial-iqtisadi şəraitdə müvəffəqiyyətlə və effektiv reallaşdırmağı bacaran insanlara daha çox tələbat var. Bu məktəbi bitirən və sərbəst əmək fəaliyyətinə qədəm qoyan yeniyetmələr üçün daha doğrudur.

**ƏDƏBİYYAT**


1. Дьякова М. А. Профессиональное самоопределение учащейся молодежи в условиях трансформации современного общества. Автореферат. Кандидат социологических наук. Хабаровск, 2002, 22 с.
2. Лобова Е.В. Процесс первичного профессионального самоопределения учащихся: социологический анализ / Автореферат диссертации на соискание ученой степени кандидата социологических наук, Екатеринбург, 2006, 23 с.
3. Никулин А.Ю. Профессиональное самоопределение старшеклассников. Братск: БрГТУ, 2001, 73с.
4. Кутугина В.И. Факторы профессионального самоопределения личности в современных условиях. Современные проблемы науки и образования." №1, 2007, с.51-53.
5. Кон И.С. Психология старшеклассника. М.: Просвещение, 1980, 192 с.
6. Климов Е.А. Психология профессионального самоопределения: Учеб. пособие для студ. высш. пед. учеб. заведений. М.: Академия, 2004, 304 с.
7. Климов Е. А. Путь в профессию. Л.: Лениздат, 1974, 190 с.
8. Цветкова Н. А. Профессиональное самоопределение личности на разных этапах становления профессионала. Автореферат. Ярославль, 2005, 23 с.

## ВЛИЯНИЕ СЕМЬИ НА ПРОФЕССИОНАЛЬНОЕ САМООПРЕДЕЛЕНИЕ ЛИЧНОСТИ

**С.С.ГАШИМОВА**

### РЕЗЮМЕ

В статье отмечается, что семья является первым и основным объективным фактором, влияющим на профессиональное самоопределение личности. Семью можно определить как систему, оказывающую сильнейшее влияние на выявление профессионального самоопределения личности вообще, ребенка и молодежи, в частности. Профессиональное самоопределение как часть профессиональной социализации личности начинается в семье. Семья в рыночных условиях занимает центральное место в профессиональной ориентации молодежи и стандартным образом выражает потребности личности.

**Ключевые слова:** семья, личность, молодежь, профессиональное самоопределение, профессиональная социализация, профессиональная ориентация, профессиональные роли, профессиональный выбор, трудовая деятельность, виды труда.

## THE IMPACT OF FAMILY TO THE PROFESSIONAL SELF-DETERMINATION OF A PERSONALITY

**S.S.HASHIMOVA**

### SUMMARY

The article shows that the main and first objective factor influencing the self-determination of personality is the family. The family can be defined as a system that has a very strong impact on the identification of professional identity, and in particular the child and the youth. Professional self-determination of an individual as part of their professional socialization - begins in the family. Family in market conditions is central to the vocational orientation of young people and in a standard way expresses the needs of the individual.

**Key words:** family, personality, youth, professional self-determination, professional socialization, professional orientation, professional roles, professional choice, work activity, types of labor.

## İQTİSADİYYAT

**UOT 33. 336**

# XARİCİ İNVESTİSİYALARIN ARTIRILMASI ÜZRƏ SİNQAPUR MODELİNİN AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYALARIN ARTIRILMASI ÜÇÜN PRAKTİK İSTİQAMƏTLƏRİ

**N.XUDİYEV, A.ƏLİXANOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***abdulla.alikhan@gmail.com***

*Məqalə qlobal dünyada xarici investisiyalar üzrə həyata keçirilən islahatlarının və təşviq mexanizmlərinin şərhləri ilə başlayır. Məqalədə əsasən qeyri-neft sektoruna xarici investisiyaların artırılması məqsədilə uğurlu dünya nümunəsi hesab olan Sinqapur modeli araşdırılmış və xarici investisiyaların dinamikasının təhlili yer almışdır. Xüsusi olaraq müasir dövrdə xarici investisiyaların cəlb olunması və artırılması naminə biznes mühiti qiymətləndirilmişdir. Məqalənin sonunda Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoruna xarici investisiyaların artırılması istiqamətində müasir təkmilləşdirmə istiqamətləri üzrə praktiki təkliflər təqdim edilmişdir.*

**Açar sözlər:** birbaşa xarici investisiyalar, ÜDM, qeyri-neft sektoru.

İnvestisiyalar uzunmüddətli dayanıqlı iqtisadi və sosial inkişafın təminatı kimi çıxış edən əsas iqtisadi və maliyyə vasitələrdən biri hesab edilir. Ölkə üzrə əhalinin yığımları və dövlətin gəlirləri yeni kapitala investisiyalar üçün yeganə kapital mənbəyi hesab edilmir. Bildiyimiz kimi, ölkə iqtisadiyyatında reallaşan investisiyalar kapitalın mənbəyi və cəlb olunması baxımından daxili və xarici investisiyalara ayrılır. İnvestisiyaların artırılmasının əsas mənbəyi isə ölkə iqtisadiyyatına valyuta ehtiyatlarının daxil olması ilə reallaşan xarici investisiyalar hesab edilir. Son onilliklərdə dünyada gedən qloballaşma prosesi fonunda, qlobal və regional səviyyədə xarici investisiya axınları artmışdır. Belə ki, bazar iqtisadiyyatı strukturuna sahib olan ölkələr xarici investisiyaları cəlb etmək və dünya iqtisadiyyatına daha sürətli inteqrasiya etmək məqsədilə bir çox iqtisadi islahatlar, təşviq proqramları və strateji tədbirlər həyata keçirmişlər. UNCTAD hesabatına əsasən qeyd etmək olar ki, təkcə 1993-2003-ci illər ərzində dünya ölkələri üzrə həyata keçirilən 1,718 sayda requlyator dəyişikliklərin 94%-i məhz birbaşa və dolayı vasitə ilə xarici investisiyaların

inkişafı və təşviqi ilə əlaqədar olmuşdur [1, 24]. Sözügedən illər ərzində, Sovetlər Birliyinin dağılması və inkişaf etməkdə olan (İEOÖ) və keçid iqtisadiyyatı ölkələrinin bazar iqtisadiyyatı yönümlü islahat və siyasət mexanizmlərinin həyata keçirilməsi nəticəsində xarici investisiyaların ölkə iqtisadiyyatlarına və o cümlədən, qeyri-neft sektorunun inkişafına cəlb edilməsi sürəti artmışdır. Təkcə, 2018-ci ildə isə 55 ölkə üzrə 112 sayda milli iqtisadiyyata dəstəklə bağlı xarici investisiya üzrə siyasətlər həyata keçirilmişdir. Həmin tədbirlərin 65-i liberallaşma və təşviq xarakterli olub xarici investisiya axınlarının səmərəli təşkilinə müsbət rol oynayır [2, 85].

1980-ci ildə dünya ölkələri üzrə BXİ üzrə daxilolmaların həcmi 20 milyard ABŞ dolları təşkil edirdisə, 2012-ci ildə bu daxilolmaların həcmi 22.8 trilyon ABŞ dolları təşkil etmişdir. Nəticə etibarı ilə, əgər dünya ölkələri üzrə xarici investisiya daxilolmaları üzrə fondların dünya ÜDM-ində çəkisi 1980-ci ildə 6% təşkil edirdisə, 2012-cı ildə bu rəqəm 25% [3, 9], 2018-ci ildə isə bu rəqəm 38% təşkil etmişdir [2, 85]. Beləliklə, əminliklə qeyd etmək olar ki, ölkələr üzrə xarici investisiyaların əsas mənbəyi birbaşa xarici investisiyalar (BXİ) hesab edilir. Təsadüfi deyildir ki, dünya ölkələri üzrə qlobal BXİ daxilolmaları üzrə kapital axınları 2015-ci ildə 35% artaraq 1.76 trilyon dollar təşkil etmişdir. Eyni zamanda, UNCTAD statistikasına əsasən dünya üzrə BXİ daxilolmaları 2016-cı ildə 2% və 2018-ci ildə isə 13% azalma ilə müşahidə edilərək müvafiq olaraq 1.7 və 1.3 trilyon ABŞ dolları təşkil etmişdir. Həmçinin Müstəqil Dövlətlər Birliyinin (MDB) də siyahıda yer aldığı keçid iqtisadiyyatı ölkələrində də xarici investisiyaların azalma tendensiyaları müşahidə edilmişdir. Sözügedən regionda böyük məbləğdə BXİ daxilolmaları Rusiya, Qazaxıstan, Azərbaycan və Ukrayna kimi ölkələr qəbul etmişlər. UNCTAD hesabatı statistikasında, həmçinin BXİ daxilolmaları üzrə artımın əsas səbəbləri, həyata keçirilən genişmiqyaslı özəlləşdirmələrin və o cümlədən mineral resursların kəşf edilməsi və sonrakı istehsal fəaliyyəti ilə əlaqədar olmuşdur.

**Qeyri-neft sektorunda xarici investisiyaların artırılması üzrə Sinqapur nümunəsi**

2018-ci ildə dünyada regionlar üzrə ən yüksək xarici investisiya daxilolmaları əsasən İnkişaf etmiş ölkələrin iqtisadiyyatları, Asiya ölkələri, keçid iqtisadiyyatı olan ölkələr və Latın Amerikası hövzəsi ölkələrində baş vermişdir. Ən yüksək BXİ axınlarını qəbul edən ölkələr müvafiq olaraq Çin, ABŞ, Rusiya və Braziliya təşkil edərək ön sırada yer almışdır. Qeyd etmək lazımdır ki, sözügedən ölkələrin iqtisadi gücü, coğrafi mövqeyi və potensialları BXİ daxilolmaları üçün əlverişlidir. UNCTAD hesabatına əsasən Sinqapur, Serbiya və Çili qlobal BXİ daxilolmaları üzrə yuxarıda qeyd olunan ayrı-ayrı ölkə qrupları üzrə qabaqcıl sırada yer alırlar. Məqalədə həmin ölkələrin BXİ daxilolmalarını reallaşdıran təcrübələri və modelləri üzrə iqtisadiyyatın inkişaf konyukturası, xarici investisiyaların dinamikası və investisiyaların cəlb edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər və təşviqlər Sinqapur nümunəsi üzrə təhlil edilmişdir. Ümumiyyətlə, Sinqapur, Serbiya və Çili modelləri ən uğurlu təcrübələr

olmaqla yanaşı Azərbaycanın qeyri-neft sektorunda xarici investisiyaların artırılması məsələlərində olduqca cəlbedici hesab edilə bilər. UNCTAD-ın 2019-cı il Dünya İnvestisiya hesabatına əsasən, Sinqapur 2018-ci ildə ABŞ, Çin və Honq-Konq kimi ölkələrdən sonra dünyada dördüncü sırada yer alan və xarici investisiya cəlb edən ölkələrdən biridir. Müstəqilliyini 1965-ci ilin Avqust ayında əldə etmiş Sinqapur hazırda əhali sayı 5.6 milyon nəfər olan və ərazisinin çox kiçik olmasına baxmayaraq, ölkə təkcə 2018-ci ildə 77 milyard ABŞ dolları məbləğində BXİ daxilolmaları cəlb etmişdir.




**Şək. 1.** 2016-2018-ci illərdə BXİ daxilolmaları üzrə göstəricilər

**Mənbə**: UNCTAD 2019

Sinqapur xarici investorlar üçün olduqca cəlbedicidir. Ölkə xarici investorlara sərfəli kredit təklif etməsi ilə yanaşı, səmərəli idarəetmə sistemi, vergi güzəştləri, keyfiyyətli sənaye parkları, xüsusi iqtisadi zonalar, yüksək səviyyədə əlverişli siyasi sabitlik və korrupsiyanın mövcud olmaması baxımından xarici investisiyaların iqtisadiyyatda reallaşdırmaq üçün əlverişli hesab edilir. Beləliklə, Sinqapur investisiyaların cəlb olunmasında uğurlu nəticələrə necə nail oldu?

Sinqapur modelinin uğurlu fəaliyyəti uzunmüddətli tarixi əhatə edir. Müstəqilliyinin ilk illərində vacib qərarların alınması fonunda, 1967-ci ildə Sinqapur İqtisadi Ekspansiya Aktını qəbul etmişdir. BXİ daxilolmalarının cəlb edilməsi isə 1983-ci ildə Sinqapur Ticarət İnkişaf Şurasının yaradılması ilə səciyyələnir. Sözügedən şura illər ərzində ölkənin dünya bazarına inteqrasiya edilməsi məqsədilə Azad Ticarət Razılıqlar (ATR) üzrə müzakirələr etmiş və ilk razılıq 1993-ci ildə imzalanmışdır. Regional və beynəlxalq ATR-in sayı müvafiq olaraq 18 və 24 ədəddir [4, 2]. Sinqapur həm də 1995-ci ildən etibarən Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvüdür. Qeyd etmək lazımdır ki, tarixdə ikinci (ilk Çində) neft emalı həyata keçirən iqtisadi zona 1969-ci ildə

Sinqapurda yaradılmışdır. 70-ci illərdən etibarən ölkə sürətli olaraq xüsusi iqtisadi zonalar yaradılmağa başladı.

1990-cı ildən etibarən Sinqapur dövləti ilə qarşılıqlı əlaqədə fəaliyyət həyata keçirən onlarla birgə Sənaye Xüsusi İqtisadi Zonalar İndoneziyada, Vyetnamda və Çində qurulmuşdu. Həmçinin, 1994-cu ildə Sinqapur və Çin birgə Suzhou Sənaye Parkını yaratdılar. Bu zonalar həm də dövlətlərin birgə partnyorluğu üzərində qurulurdu. Daha sonralar Sinqapur digər dövlətlərlə birgə strateji iqtisadi zonalar yaratmağa başladı. Strateji zonalar şəbəkəsinin qurulması ölkənin "Regionlaşma 2000" proqramının tərkib hissəsi olmuşdur [4, 156-157]. Proqramın əsas məqsədi daha aşağı əmək qabiliyyəti və bacarıq və əlavə dəyər tələb edən istehsal fəaliyyətləri üzrə sahələri regionlara köçürməklə Sinqapurun "Ümumi Biznes Mərkəzinə" keçidini səmərəli təşkil etmək və ölkə iqtisadiyyatının yenidən qurulması ilə fəaliyyət göstərəcək Sinqapur əsilli TMŞ-in ən yüksək səviyyəli fəaliyyətlərini reallaşdıran regional bir mərkəzə çevirmək idi [4, 415]. 2000-ci illərdən başlayaraq Xüsusi İqtisadi Zonalar bilik və texnologiyaya əsaslanan fəaliyyət sahələrinə keçid etməyə başladılar. Daha sonrakı illərdə araşdırma və inkişaf tələb edən yüksək dəyərli məhsulların istehsalı üzrə fəaliyyət istiqamətləri genişlənməyə başladılar. Sözügedən xüsusi iqtisadi zonalar işsizliyi azaltmaq, ixrac potensialını stimullaşdırmaq və tədiyyə balansını müsbət etmək və o cümlədən, xüsusi sənaye sektorlarının inkişaf etdirilməsi, texnoloqiyanın transferi kimi başlıca prioritet hədəfləri var idi. Bu məqsədlərə nail olmaq və xarici investisiyaları cəlb etmək məqsədilə, həmin xüsusi zonalar, vergi güzəştləri, səmərəli və sadələşdirilmiş idarəetmə sistemi, gömrük güzəştləri, əmək qanunvericiliyi və səmərəli maliyyə axının təminatı və effektiv idarəetməyə sahib olan məkan qismində çıxış edirdilər [5, 1].

Hazırda, Sinqapur xarici investisiyalar üçün olduqca açıq ölkədir və xarici investisiyalara və investisiyaları həyata keçirən müəssisələrə vergi güzəştləri təklif edir. Həmçinin Sinqapur hökuməti davamlı olaraq milli iqtisadiyyatın səmərəli fəaliyyəti üçün məhsuldar dövlət investisiyaları həyata keçirir. Buna misal olaraq nəqliyyat infrastrukturu layihələrini (Sinqapurdan Kuala Lumpura sürətli qatar xətti) və gələcəkdə iqtisadiyyata yönəltməyi təşviq edən proqramları göstərmək olar. 2017-ci ildə iqtisadi məhsuldarlığı artırmaq və inkişaf potensiallı hesab edilən 23 sənaye sektorunda innovasiyanı sürətləndirmək məqsədilə hökumət 8 milyard ABŞ dollarından artıq (ÜDM-in təxminən 2,5% -i həcmində) vəsait səfərbər etmişdir.

Sinqapur, həmçinin maliyyə bazarlarının inkişaf etməsinə xüsusi önəm vermişdir. Nəticə etibarı ilə hazırda dünya üzrə 20 ən böyük istiqraz bazarının üçü Asiyada yerləşir və onlardan biri Sinqapurdadır. Ölkə artıq Asiyanın "Maliyyə Hub"-ına çevrilmişdir. Sinqapur üçün əsas xarakterik olan məsələlər ölkənin əsasən maliyyə xidmətləri, peşəkar xidmətlər, media, telekommunikasiya sektorlarında əsasən üstünlük təşkil etməsidir. Dövlətlə əlaqəli müəssisələr daxili iqtisadiyyatda və həmçinin investisiya qoyuluşunda dominant rol oynayır.

**Biznes mühitinin təhlili.** Sinqapur nümunəsi uğurlu iqtisadi model olaraq iqtisadi inkişaf göstəricilərindən, ticarət açıqlığı səviyyəsindən istifadə etməklə xarici investisiyaları cəlb etmək məqsədilə proaktiv bir strategiyaya əsaslanmışdır [6, 1]. “Biznesə Başlama” indeksi reytinqinin 2003-cü ildə ilk dərc olunduğu tarixdən 2017-ci ilə qədər ölkə həmişə lider mövqe olmuşdur. Misal üçün 2013-ci ildə Sinqapurda biznesi qeydiyyata almaq üçün 3 prosedurala və cəmi 2 gün tələb olunurdu. Bu göstərici olduqca vacibdir, çünki səmərəli biznes mühitinin göstəricidir. Tikintiyə icazə almaq üçün isə 10 prosedura və icazənin alınması üçün maksimum 60 gün tələb olunur. Tikinti icazə xərci isə tikintinin dəyərinin (misal üçün anbarın dəyəri) 0.3% nisbətində olur. Kapitala investisiya, aktivlərin yerləşdirilməsi, tikinti və qurğuların alınması və biznesə başlanması baxımından tikintiyə icazə alınması səmərəli təşkil xarici investorlar üçün çox vacibdir. Misal üçün, Asiya-Sakit okean hövzələri üzrə 19 ölkənin daxil olduğu 218 ölkə üzrə aparılan qiymətləndirmədə tikinti sektorunda icazənin alınması xarici investorlar üçün ən uzun prosedur və böyük maneələrdən biri hesab olunmaqdadır [7, 28].

Sinqapurda bütün vergilər üzrə il ərzində cəmi 5 dəfə ödəniş edilir və bu proseslər il ərzində maksimum 82 saat zaman tələb edir. Əmlakın satın alınması üçün cəmi 4 prosedura və qeydiyyatı üçün isə maksimum 19 gün tələb olunurdu. Beləliklə, biznes əməliyyatlarının artması və müştərilərin ehtiyaclarının daima dəyişdiyi bir zamanda və xarici investorlar və digər müəssisələr daha çevik və səmərəli biznes mühiti axtarışında olurlar. Çünki, belə mühit biznes sahiblərinə qaydaları çətinlik çəkmədən maneəsiz həll etməsi çevik biznes qərarlarının qəbulu və həyata keçirilməsi baxımından əhəmiyyətli edir. Eyni fikirləri biznesin inkişafı üçün kreditin əldə olunması üçün tələb olunan zaman üçün də qeyd etmək olar. Adekvat və etibarlı maliyyə vasitələrinə yaxınlıq, o cümlədən, kredit və sığorta məhsullarının müxtəlif çeşidlərinin əldə olunması da vacibdir. Doğrudur, xarici investorlar beynəlxalq maliyyə bazarları vasitəsilə kapital cəlb etmək imkanına sahib ola bilərlər. Lakin xarici şirkətlərin ölkədəki fəaliyyəti zamanı gündəlik əməliyyatları, qısamüddətli maliyyələşmə və ixracın maliyyələşdirilməsi vasitələri və bank məhsullarını ölkə daxilində yerləşdirən maliyyə vasitəçiliyi həyata keçirilir.

Djankov və digər aparıcı tədqiqatçılar 98 ölkə üzərində aparılan araşdırmada qeyd edirdilər ki, ölkədən məhsulun ixrac edilməsi və sənədləşmə üçün tələb olunan zaman və bu kontekstdə mövcud olan suallar investorlar üçün xarici ticarətin reallaşması baxımından digər vacib qərar vermə faktoru hesab edilir [8, 78]. Sinqapurda 2013-ci ildə sözügedən ixrac prosesinə sənədləşməni tamamlamaq üçün 3 sənəd və maksimum 6 gün tələb olunurdu. Bu səbəbdən Sinqapur biznesdə sənədləşmələrin çevik və səmərəli təşkili baxımdan son onilliklərdə xarici investorlar üçün çox cəlbedici ölkə olmuşdur.

Biznesdə müəyyən münaqişələrin və ya digər məsələlərin baş verməsi zamanı məhkəmə işinin təşkili və tamamlaması üçün 21 prosedura və 150 gün ərzində bitməsi tələb olunur. Qeyd edək ki, əgər xarici investorlar özlərini hü-

quq sistemləri vasitəsilə qorunmuş hiss etməsələr həmin ölkə xarici investorlar üçün cəlbedici hesab olunmur. Ümumiyyətlə, güclü hüquq sistemi investorları xarici investisiyaların artırılmasında daha inamlı edir [9, 78]. Nəticə etibarı ilə, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb olunması potensialı artır.

Biznes fəaliyyətinin təşkili və işlərin aparılması ilə bağlı qeyd olunan rəqəmlər onu göstərir ki, Sinqapurda biznesə başlamaq daha az vaxt, kargüzarlıq və sənədləşmə işləri tələb etməklə xərc baxımından çox effektivdir. Əgər hər hansı bir proses daha uzun müddət vaxt alırsa, o zaman korrupsiya riski də artmış olur. Bütün qeyd olunan üstün cəhətlərin nəticəsi olaraq təsadüfi deyil ki, Sinqapurda ən böyük xarici investisiyalar həm də ABŞ tərəfindən olmuşdur. Qeyd etmək olar ki, ABŞ Xarici Qanuna əsasən Transmilli Şirkətlərin korrupsiyaya yol verərək əlverişli biznes edilməsi qadağan edilmişdir [10, 216]. Beləliklə, şəffaf biznes mühitinin yaradılması istiqamətində addımlar investorların ölkəyə cəlb edilməsi ehtimalını yüksək edir.

Beləliklə, Dünya Bankının da istinad etdiyi və nəzərə aldığı Biznesə Başlama indeksinin göstəriciləri onu deməyə əsas verir ki, vergi islahatları və dərəcələri, maliyyələşmə mənbələrini və vasitələrinə çıxış, elektrik enerjisi istehsalı və təminatı, korrupsiyanın dərəcəsi, torpaq və əmlak mülkinə çıxışın olması, ixrac və nəqliyyat, siyasi və iqtisadi vəziyyət, əmək qanunvericiliyi, gömrük siyasəti, ticarət qanunvericiliyi və biznesə başlama meyarları investorlar üçün vacibdir.

Əlavə olaraq, tanınmış ABŞ iqtisadçıları Landes və Diamond ölkənin coğrafi mövqeyi, təbii resursları, mədəniyyətin səviyyəsi, varlı qonşu ölkələrinin olmasının xarici investorların xarici investisiyalar üzrə qərarlarına təsir edən faktorlar olduğunu qeyd etmişdilər [11, 78]. Sözsüz ki, BXİ daxilolmalarına təsir edən fərqli və dəyişkən faktorlar mövcuddur. Həmçinin həmin faktorların bu və ya digər ölkədə təsir istiqamətləri fərqli ola bilər. Misal üçün ölkənin texnologiya üzrə inkişaf səviyyəsi, nəqliyyat və kommunikasiya yüksək səviyyədə inkişaf edərsə, o zaman coğrafi mövqe o qədər də əhəmiyyət kəsb etməyə bilər. Bu baxımdan, qeyd etmək lazımdır ki, xarici investisiyaların cəlb olunmasında uğurlu modellər əsasən dövlətin biznes mühiti üzrə strateji hədəf və səmərəli fəaliyyətdən asılıdır. Odur ki, xarici investisiyaların cəlb olunması ilə ölkənin qeyri-neft sektorunun inkişafı və uğurlu iqtisadi inkişafı ölkənin zəngin resursa sahib olmasında və ya dənizə çıxışında, güclü tarixi mədəniyyətinə, tropik və ya subtropik bölgədə yerləşməsində deyil, məhz dövlətin həmin mövcud olan faktorların harmoniya şəklində istifadə etməklə səmərəli, işlək və çevik idarə edilən iqtisadiyyat yaradılmasından ibarətdir. Beləliklə, bir sıra vacib institutların o cümlədən, maliyyə və sığorta agentlikləri, vergi sistemi, hesabatlıq və audit üzrə agentliklər, analitiklər, güclü hüquqi sisteminin səmərəli fəaliyyəti, biznes mühitinin səmərəli təşkili və xarici investisiyaların artırılması üçün əhəmiyyətlidir.

**Nəticə və təkliflər**

Beləliklə, Sinqapur nümunəsinə uyğun olaraq iqtisadiyyatda qeyri-neft

sektoruna xarici investisiyaların artırılması məqsədilə həm stimullaşdırıcı və həm də fundamental mexanizmlər tətbiq edilməli, yeni strategiyalar işlənməlidir. Bu baxımdan Sinqapurun müsbət təcrübəsindən yararlanaraq Azərbaycanda qeyri-neft sektorunun inkişafına xarici investisiyaların cəlb olunması istiqamətində aşağıdakı praktiki tədbirlərinin nəzərdən keçirilməsi məqsədəuyğundur:

- ❖ *İnvestisiya Fondunun yaradılması*: Xarici investisiyaların qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq və strateji sahələrdə investisiyaların qorunması və təkmilləşdirilməsi məqsədilə 2016-cı ildə Türkiyə dövləti Suveren İnvestisiya Fondu yaratmışdır. İnvestisiya yönümlü oxşar investisiya fondunun Azərbaycanda yaradılması təklif olunur [12, 1].
- ❖ *Ölkələr arası investisiya* fondlarının yaradılması: İqtisadiyyatın qeyri-neft sektoru və ixrac potensialının artırılması məqsədilə Türkiyə, Rusiya, Yaponiya, İran və s. digər geniş iqtisadiyyata malik ölkələr ilə birgə inkişaf fondlarının yaradılması məqsədəuyğun ola bilər. Nümunə olaraq, 2014-cü il Noyabrın 24-də iqtisadi əməkdaşlıq və investisiyaların cəlb olunması məqsədilə "Rusiya-Qırğızıstan İnkişaf Fondu" yaradılmışdır [13, 1]. Nümunə olaraq oxşar fondun Azərbaycan ilə yaradılması, Azərbaycanın Avrasiya İqtisadi İnkişaf birliyinə daxil olmadan belə, dolayı vasitə ilə həmin birliyin iqtisadi iştirakçısı olması və həmin iqtisadi birliyə üzv ölkələr tərəfindən xarici investisiyaların cəlb olunmasında mühüm rol oynaya bilər.
- ❖ *İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı tədbirlərin monitorinq edilməsi:* Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"-nə əsasən, investisiya axınını cəlb etmək üçün əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlər və mexanizmlər müəyyən edilmişdir. Həmin tədbirlərin davamlılığı, görülmüş işlərin və davam edən layihələrin mümkün risklərinin azaldılması məqsədilə monitorinqinin aparılması məqsədəuyğun hesab edilir [14, 1].
- ❖ *Regional biznes layihələr:* Qeyri-neft sektorunun inkişafı məqsədilə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ilə birgə layihələrə investisiya edilməlidir. Bu mexanizm ilə Azərbaycanda AİŞ vasitəsilə yeni texnoloji sahələr üzrə investisiyalar davam etdirilməlidir. Həmçinin mövcud bizneslərin strukturu yenidən qiymətləndirilməli, o cümlədən birləşmələr və mümkün satınalmalar qiymətləndirilə bilər.
- ❖ *ARDNF və AİŞ ilə birgə investisiya proqramı*: Birgə investisiyalar reallaşması məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) maliyyə vəsaitləri hesabına və sənaye sahələrində formalaşa biləcək yeni rentabelli (xalis cari dəyəri müsbət olan) birgə xarici və yerli kapital ilə formalaşan layihələrin 60%-ə qədər hissəsinin maliyyələşməsi ilə əlaqədar aşağı faizli və uzunmüddətli yeni maliyyə borc mexanizmlərini tətbiq etməklə borcların verilməsi üzrə maliyyə paket və proqramları nəzərdən keçirilə və

tətbiq oluna bilər;

- *Beynəlxalq İdarəetmə Standartlarının tətbiqi*: Bir müddət əvvəl Azərbaycanda İnvestisiya Holdinq yaradılmışdır [15, 1]. Holdinq tərəfindən böyük dövlət və özəl şirkətlərdə korporativ idarəetmə standartları, idarəetmə, maliyyə və monitorinq üzrə hesabatların formatları və standartların işlənib hazırlanması və tətbiqi yerli dövlət və özəl şirkətlərin fəaliyyətinin səmərəli təşkili və eyni zamanda biznes mühitinin rəqabətliliyi baxımından xarici investorlara faydalıdır.
- İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri üzrə hesabatda İnsan Kapitalının İnkişafı və təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməlidir [16, 23]. Qeyd etmək lazımdır, İKİ indeksinin xarici investisiyaların cəlb edilməsi baxımından əhəmiyyətli dəyişən olması Azərbaycan iqtisadiyyatı nümunəsində müəlliflər tərəfindən empirik yolla tədqiq qiymətləndirilmişdir [17, 129-137].
- *Sektoral təşviqlər planı*: Xarici investisiyaların təşkili agentliyi sektoral, o cümlədən turizm sektoru üzrə xarici investisiyaların cəlb olunması üçün "Azərbaycanda İnvestisiya et" proqramı hazırlanmalı və bu proqram çərçivəsində hər bir sektor üzrə detallı investisiya imkanları üzrə planlar və prioritet tədbirlər hazırlanmalıdır. Misal üçün, qeyd olunan sektorlardan biri turizm sektoruna aiddir və plana uyğun olaraq yay və qış kurort mərkəzləri üzrə həyata keçirilən investisiyaların məbləği, yerli və xarici investorları maraqlandıracaq və məlumatlandıracaq statistik məlumatlar verilə bilər. Bu proqram Çili də uğurla tətbiq edilmişdir [18, 15-18]. Bu kimi tədbirlər xarici investorlar üçün səmərəli məlumat bazaların yaradılması baxımdan faydalıdır.

Sinqapur nümunəsi dünya miqyasında xarici investisiyaların cəlb olunmasında uğurlu model kimi çıxış edir. Azərbaycan iqtisadiyyatı özünün inkişaf konyunkturasına və mövcud regional inkişaf perspektivlərini və resurslarını nəzərə alaraq Sinqapur modeli üzrə (o cümlədən Çili və Serbiya modelləri üzrə) yer alan tədbirlərin və təşviqlərin həyata keçirilməsi xarici investisiyaların cəlb olunmasını artıracaqdır. Sözsüz ki, hazırda Qlobal müstəvidə birbaşa xarici investisiyaların axınlarında COVİD-19 pandemiyası ilə əlaqədar 2020-ci ildə və növbəti illərdə kəskin azalmalar gözlənilir [19, 1]. Hesab edirik ki, bu vəziyyətdə ölkəmiz mövcud durumda qeyd olunan praktiki təşviq təklifləri və digər müasir təkmilləşdirmə tədbirlərini nəzərə alaraq və həyata keçirərək iqtisadiyyatın qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsində önəmli irəliləyiş əldə olunacaqdır. Bu baxımdan, Sinqapur nümunəsi fonunda Azərbaycanının qeyri-neft iqtisadiyyatına xarici investisiyaların cəlb olunması məqsədilə yuxarıdakı istiqamətlər üzrə təkliflərin nəzərdən keçirilməsi və

işlərin aparılması investorların səmərəli cəlb edilməsi üzrə müasir və praktiki təkmilləşdirmə tələbləri hesab edilə bilər.


**ƏDƏBİYYAT**

1. UNCTAD, World Investment Report. "FDİ From Developing and Transition Economies: İmplications for Development". New York and Geneva: United Nations, 2006, pp.24.
2. UNCTAD, World Investment Report. Special Economic Zones. New York and Geneva: United Nations, 2019, pp.85
3. UNCTAD, World Investment Report. Investment and Digital Economy. Geneva: United Nations, 2012, pp.9
4. UNCTAD, World Investment Report. Special Economic Zones. New York and Geneva: United Nations, 2019, pp 2-157.
5. Cheong.T "CEO International (Singapore, Southeast Asia, North Asia)The Key Success Factors of Special Economic Zones" Surbana jurong, 2018, pp.1 Link: https://surbanajurong.com/perspective/the-key-success-factors-of-special-economic-zones/
6. Santander, Trade Markets, 2019, pp.1 https://santandertrade.com/en/portal/establish-overseas/singapore/foreign-investment
7. Singapore Business Federation, "Key Findings from Abac 'Ease of Doing Business'(Eodb) Survey," Presentation at Singapore Business Federation dialogue session "Removing Barriers for Business Growth in APEC," Singapore. 2009. pp.28
8. Djankov, S. Freund, C. L. and Pham, C. S. "Trading on Time," World Bank Policy Research Working Paper (3909). Washington DC. 2006. pp. 82
9. Jay Dahya, Orlin Dimitrov, and John J. McConnell, "Dominant Shareholders, Corporate Boards, and Corporate Value: A Cross-Country Analysis," Journal of Financial Economics 87, no. 1. 2008. Pp.73-100.
10. Jack G and Kaikati, "The Price of International Business Morality: Twenty Years under the Foreign Corrupt Practices Act," Journal of Business Ethics 26, no. 3. 2000. Pp. 213-222
11. Landes. D.S. The Wealth and Poverty of Nations: Why Some Are So Rich and Some So Poor. New York: W. W. Norton. 1999.
12. Turkey's Wealth Fund, 2020. p.1 https://www.tvf.com.tr/en/home
13. "Russian-Kyrgyz Development Fund", Devex, 2019. p.1 https://www.devex.com/organizations/russian-kyrgyz-development-fund-127744
14. E-qanun.az Investisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında, 2018. http://www.e-qanun.az/framework/37648
15. https://www.azernews.az/nation/167847.html
16. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" .2016. s.23 https://president.az/articles/21953
17. Nizami Khudiyev and Abdulla Alikhanov Testing Of Fdi And Non-Oil Fdi Inflows In Azerbaijan Using Dunning's Eclectic Model". 55$^{th}$ International Scientific Conference on Economic and Social Development. Book of Proceedings, Vol.3/4 Pp.620-626.
18. Foreign Investors' Guide, Invest in Chile. Key Information to invest in Chile. 2019. pp.52.Link:https://investchile.gob.cl/wp-content/uploads/2019/03/foreign-investors-guide-english.pdf
19. World Economic Forum, Foreign investment is drying up thanks to COVID-19. But there may be a silver lining, 2020. https://www.weforum.org/agenda/2020/04/foreign-investment-covid19-economy-winners/

## РОЛЬ И ПРАКТИЧЕСКИЕ НАПРАВЛЕНИЯ СИНГАПУРСКОЙ МОДЕЛИ ДЛЯ УВЕЛИЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В НЕ НЕФТЯНОЙ СЕКТОР АЗЕРБАЙДЖАНА

**Н.ХУДИЕВ, А.АЛИХАНОВ**

### РЕЗЮМЕ

Статья начинается с объяснения реформ и стимулов для привлечения иностранных инвестиций в глобальном мире. В статье исследуется пример Сингапура и его модель, которую можно рассматривать как успешный пример увеличения прямых иностранных инвестиций в не нефтяной сектор. В статье также представлен анализ тенденций ПИИ в Сингапуре. Деловая среда была подвергнута особой оценке и анализу с целью привлечения иностранных инвестиций в наше время. В конце статьи также представлены практические предложения по современным усовершенствованиям для привлечения и увеличения иностранных инвестиций в не нефтяной сектор экономики Азербайджана

**Ключевые слова**: прямые иностранные инвестиции, ВВП, ненефтяной сектор.

## THE ROLE AND PRACTICAL DIRECTIONS OF SINGAPORE MODEL FOR INCREASE OF FOREIGN INVESTMENTS IN THE NON-OIL SECTOR OF AZERBAIJAN

**N.KHUDIYEV, A.ALIKHANOV**

### SUMMARY

The article begins with an explanation of the reforms and incentives for attracting foreign investments in the global world. The article examines the case of Singapore and its model, which can be considered as a successful case for an increase of foreign direct investment in the non-oil sector. The article also provides trend analyses of FDİ in Singapore. The business environment has been especially evaluated and analyses in order to attract foreign investment in modern times. At the end of the article, practical proposals for modern improvements to attract and increase foreign investments in the non-oil sector of Azerbaijan economy have been also presented.

**Keywords**: foreign direct investments, GDP, non-oil sector.

UOT 330.341.1:62

# СУЩНОСТЬ И ХАРАКТЕРИСТИКИ ИННОВАЦИЙ

**Ф.З.МЕХДИ**
***Азербайджанский Государственный Университет Нефти и Промышленности***
***farid.mehdi2@gmail.com***

*На основе критического анализа многочисленных определений очень важного для современности явления инноваций выявлены основные признаки этого понятия, а также систематизированы его основные характерные черты. В процессе исследования представилось целесообразным введение понятий теоретической и практической идей с целью различения соответствующих открытий и изобретений. Результаты исследования представляют интерес, как с точки зрения государственного регулирования инноваций, так и выявления приоритетных направлений инновационной деятельности компаний.*

**Ключевые слова:** инновация, НИОКР, выгода, эффективность

Специалистам по логике и научным исследователям хорошо известен факт о крайне важной роли категорий в формировании и развитии любой отрасли человеческого познания, так как они (и только они) четко должны отражать смысл, который в них вкладывается. По этой причине выдающиеся ученые-теоретики различных научных областей проявляют скрупулёзное отношение к определениям понятий своей науки. К сожалению, не всегда удается давать подобные определения. В особенности это относится к гуманитарным дисциплинам. В течение столетий становления экономикса как науки ее выдающиеся представители внесли огромный вклад в этом направлении, обеспечивая экономическую теорию определенной стройностью. Так, довольно конкретными и понятными являются определения таких категорий, как спрос, предложение, всех индикаторов национальной системы счетов, инфляции и т.д. Но в большинстве случаев экономикс так же страдает указанным недостатком гуманитарных наук. По сей день нет общепринятого единого определения таких категорий, как финансы, экономическое развитие и т.п. К таковым относится и понятие инновации. Здесь проблема усугубляется так же тем, что инновация сравнительно молодая категория, не прошедшая достаточ-

ную практическую апробацию по сравнению, например, с такими трудноопределимыми, но широко употребляемыми категориями, как финансы, рациональное поведение, полезность и т.д.

Красноречиво выражает эту проблему Стефан Линдегард – главный Трансформатор движения Transform-or Die! Автор, докладчик и консультант, специализирующийся на преобразованиях корпораций, основанных на цифровизации, дезорганизации и инновациях: «Я стараюсь не определять "инновации", поскольку мы должны смягчить наше использование слова и термина» [1].

Поэтому представляется необходимым анализ основных подходов к определению понятия «инновация».

В словаре Уебстера инновация в ее современном значении определяется как "новая идея, творческая мысль, новое воображение в виде устройства или метода" [2]. На наш взгляд это определение имеет два недостатка, так как не охватывает процесс внедрения новой идеи и, самое главное, факт извлечения выгоды.

Определение известного американского экономиста Петер Друкера лишены этих недостатков. В своей статье «Innovation and Entrepreneurship: Practice and Principles» он пишет: "Инновации - это специфический инструмент предпринимательства ... акт, который наделяет ресурсы новой способностью создавать богатство" [3]. Это определение более абстрактное и поэтому более объемлющее, что с одной стороны может считаться его достоинством, но, с другой стороны, общность не позволяет раскрыть важную для этого понятия практическую сущность.

В [4] инновации рассматриваются как применение лучших решений, которые отвечают новым требованиям, ранее не известным или существующим потребностям рынка. Недостаток этого определения заключается в том, что оно игнорирует тот факт, что при продуктовой инновации (об этом понятии речь пойдет ниже) эти «новые потребности» общества генерируются самим новым продуктом.

Скотт Беркун в своем сайте считает, что "инновации-это значительные позитивные изменения” [5]. Занимающее важное место» в этом достаточно широком определении слово «значительные» слишком расплывчато. Правда, автор сам задается этим вопросом и старается конкретизировать это слово, приводя примеры «изобретения электрической лампочки, конституционных правительств, беспроводного радио и интернета». Для определенных случаев (например, для скорости двигателя или мощности батареи) он в качестве критерия предлагает улучшение на 30% или более. Но, во-первых, опять остается проблема и интерпретации этого слова для качественных улучшений (например, для продуктовой инновации) и во-вторых, иногда улучшение и на 5% может приносить огромные выгоды для общества. С другой стороны, это определение фокусируется на результате, а не на процессе, который должен содержать что-то новое.

По этому поводу характерно комментарий, приводимый в [6]: «… и хотя слово "изменение" подразумевает новизну, оно, вероятно, слишком широкое. Что делать, если мы смотрим на изменение известной бизнес-модели, которая приводит к потере стоимости акций, но увеличению стабильности? В этом есть что-то новое, но нам это не кажется инновацией».

